Əsir götürülmüş Əliyev Vətən Əmirxan oğlunun erməni əsarətindən qayıtmış qardaşı, Ağcabədi rayonundakı «Alman» çadır şəhərciyində məskunlaşmış Əliyev Şahruz Əmirxan oğlunun dediyinə görə, onları həmkəndliləri ilə birlikdə əsir götürərək Xankəndində yerləşən internat məktəbdə saxlayıblar. 20 fevral 1992-ci ildə qardaşı Əliyev Vətəni, Axundov Hafizi və bir neçə kişini onlardan ayırıb, naməlum istiqamətə aparıblar.

Erməni əsiliyindən azad edilmiş Xocavənd rayonu Qaradağlı kənd sakini Əliyev Oruc Məhərrəm oğlu izahatında 117 həmkəndlisi ilə birlikdə Axundov Hafizin də Xankəndində saxlandığını qeyd edib.

Akhundov Hafiz Elmaz oglu

Akhundov Hafiz Elmaz oglu was born in Garadaghli village of Khojavand district of Azerbaijan Republic in 1973. On the 17th of February, 1992 during the day of Garadaghli's occupation, his father with 117 villagers was taken hostage and sent to Khankandi.

According to the information of his father Akhundov Elmaz Yusif oglu (at present he lives in Dunyamallar village of Beylagan district) who returned from Armenian captivity, they took them to Khankandi and 3 days later his son with 5 young men were taken to Armenia. Then he didn't see Hafiz any more.

The brother of prisoner of war Aliyev Vatan Amirkhan oglu – Aliyev Shahruz Amirkhan oglu who returned from Armnenian captivity (at present he lives in camp town «Alman» in Agjabadi) said that he with villagers was taken prisoner and kept in Khankandi boarding school. On the 20th of February, 1992 Armenians separated Aliyev Vatan, Akhundov Hafiz and several men from other prisoners and took them to unknown direction.

Aliyev Oruj Maharram oglu who lived in Garadaghli village of Khojavand district and released from captivity noted that when he was kept in Khankandi with 117 men Akhundov Hafiz was with them.



Azayev
İlqar
Ağasəlim oğlu

1968-ci ildə Bakı şəhərində anadan olub. 11 noyabr 1991-ci ildə könüllü olaraq Ağdam cəbhəsinə yollanıb, Yaqub Rzayevin dəstəsində Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 26 dekabr 1991-ci ildə Ağdamın Xramort kəndi uğrunda döyüşdə əsir götürülüb.

19 yanvar 1992-ci ildə Azayev İlqar valideynlərinin yaşadığı Bakının Binə qəsəbəsindəki evlərinə məktub göndərib. Həmin məktubda o, Ağdamın Xramort kəndi yaxınlığında əsir götürüldüyünü, Ermənistanın Mehri rayonunda saxlandığını bildirib. Xahiş edib ki, Qubadlı rayonu yaxınlığındakı Gorus-Qafan yolunda itkin düşmüş iki erməninin tapılıb onunla dəyişdirilməsi üçün əllərindən gələni əsirgəməsinlər. Valideynləri həmin ermənilər tapa bilmədikləri üçün Azayev İlqarın dəyişdirilməsi baş tutmayıb.

Azayev
Ilgar
Agasalim oglu

Azayev Ilgar Agasalim oglu was born in Baku in 1968. On the 11th of November, 1991 he voluntarily went to Aghdam and took part in fights for Garabagh allotted to Yagub Rzayev's detachment. On the 26th of December, 1991 during the fight for Khramort village of Aghdam Azayev Ilgar was taken prisoner.

On the 19th of January, 1992 Ilgar sent a letter to his parents who lived in Baku, Bina Settlement. It's written that Azayev Ilgar was taken hostage near Khramort village of Aghdam. At the present moment he is in Mehri district of Armenia. He asked them to find 2 Armenians who missed near the road of Gorus-Gafan of Gubadli district and do their best to change them. Because of his parents couldn't find those Armenians and Azayev Ilgar's change wasn't realized.



Babayev
Əliəşrəf
Ağabala oğlu

1971-ci ildə Bakı şəhərinin Ramana qəsəbəsində anadan olub. 1992-ci ildə hərbi xidmətə çağırılıb. 14 yanvar 1993-cü ildə Ağdərə rayonu uğrunda döyüşdə əsir götürülüb.

Dağlıq Qarabağda, Xankəndi şəhəri, Obuvnaya küçəsi, ev 2a, mənzil 19-da yaşayan keçmiş əsir Dadayan Levon Sergeyeviçə Əliəşrəfin şəklini göstərdikdə onu tanıyıb, Şuşa həbsxanasında saxlandığını söyləyib. Erməni tərəfi faktı inkar edib.

Babayev
Aliashraf
Agabala oglu

Babayev Aliashraf Agabala was born in Baku of Ramana settlement in 1971. In 1992 he was called up for military service. On the 14th of January, 1993 during the fight for Aghdara district Aliashraf was taken prisoner.

Former prisoner of war Dadayan Levon Sergeyevich (he lives in Upper Qarabagh of Azerbaijan Republic, Obuvnaya Street, 2a, app.19) saw Aliashraf's picture and recognized him. He said that he was kept in Shusha prison. But Armenian side denied that fact.



Babayev
Əlipaşa
Adil oğlu

1973-cü ildə Azərbaycan Respublikasının Dəvəçi rayonunda anadan olub. 1992-ci ilin oktyabr ayında Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 1993-cü ildə Ağdərə rayonunun Çıldıran-Mehmanə kəndləri istiqamətində döyüşlərdə iştirak edib. 3 fevral 1993-cü ildə Çıldıran kəndi yaxınlığında əsir götürülüb.

Atası-Dəvəçi rayonu Nizami küçəsi, ev 3-də yaşayan Babayev Adil Abdulla oğlunun dediyinə görə, oğlunun axtarışı zamanı onun sağ olduğunu, Xankəndi şəhərində ağır fiziki işlərə cəlb edildiyini öyrənib. Bu məlumatı 1998-ci il may ayının 7-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndəsi Rafiq Hüseynov da təsdiq edib.

Əsir Məhərrəmov Mehdi Əmirxan oğlunun atası-Bərdə rayonunun Yeni-Daşkənd kəndində məskunlaşmış, əslən Ermənistan Respublikasının Vardenis rayonunun Daşkənd kəndindən olan Məhərrəmov Əmirxan Həsən oğlu öz oğlu ilə birliklə Babayev Əlipaşanın da Xankəndində əsirlikdə saxlandığını birdirib. Qarşı tərəf onların övladlarını azad etmək üçün böyük məbləğdə pul tələb edib, həmin məbləğ tapılmadığı üçün onları azad etmək mümkün olmayıb.

Babayev
Alipasha
Adil oglu

Babayev Alipasha Adil oglu was born in Davachi district of Azerbaijan Republic in 1973. In October of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Davachi district. Babayev Alipasha took part in fights for Childiran-Mehmane villages of Aghdara district in 1993. On the 3rd of February, 1993 during the fight in Childiran village Alipasha was taken prisoner.

According to the words of his father Babayev Adil Abdulla oglu (now he lives in Davachi, Nizami Street app.3), when he searched for his son, he found out that he was alive, kept in Khankendi of Upper Garabagh and forced for heavy labour. That information was given by the representative of ICRC Rafig Huseynov on the 7th of May, 1998.

The father of prisoner of war Maharramov Mehdi Amirkhan oglu - Maharramov Amirkhan Hasan oglu who lived in Dashkand village of Vardenis of Armenia (now he lives in Yeni-Dashkand village of Barda district) informed that his son with Babayev Alipasha was taken prisoner by Armenians and kept in Khankandi. Armenian side demanded much money for their sons' release but the parents couldn't find money and it was impossible to release them.

Babayev
Famil
Zahiddin oğlu

1966-cı ildə Azərbaycan Respublikası Qax rayonunun Qaşqaçay kəndində anadan olub. 1992-ci ilin mart ayında «könüllülər» taborunun tərkibində cəbhəyə yollanıb. 29 avqust 1992-ci ildə Füzuli rayonunun Qırmızı Bazar kəndi istiqamətində döyüşdə yaralı vəziyətdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Babayev Əfrahim Zahiddin oğlunun bidirdiyinə görə, Familin döyüş yoldaşları erməni tərəfi ilə radiodanışıqlarda onun yaralı vəziyyətdə əsir götürüldüyünü, Xocavənd şəhərində saxlandığını və Tamara adlı bir erməni qadın ilə dəyişmək istədiklərini öyrəniblər. Tamara tapılmadığı üçün dəyişmə baş tutmayıb.

Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Füzuli rayonu Yağlıvənd kənd sakini Kazımov Əhəd Musa oğlu izahatında yazıb ki, 1992-ci ildə Karen adlı bir erməni Familin sağ olduğunu və Xocavənd şəhərində saxlandığını bildirib.

Babayev
Famil
Zahiddin oglu

Babayev Famil Zahiddin oglu was born Gashgachay village of Gakh district of Azerbaijan Republic in 1966. In March of 1992 he was sent to front allotted to battalion of «volunteers». On the 29th of August, 1992 during the fight in direction of Girmizi Bazar village of Fuzuli district wounded Famil was taken prisoner by Armenians.

According to the information of his brother Babayev Afrahim Zahiddin oglu, Famil's front-line comrades found out by radio communication that he was wounded and taken as a prisoner in Khojavand and they wanted to change him for Armenian woman whose name was Tamara. Tamara wasn't found and the change didn't realize.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district) wrote a statement that Armenian man whose name was Karen informed that Famil was alive and kept in Khojavand town in 1992.

Babayev
İslam
Əhmədağa oğlu

1957-ci ildə Azərbaycan Respublikası Ağsu rayonunun Musabəyli kəndində anadan olub. Daxili İşlər Nazirliyinin Bakı şəhəri Nəsimi Rayon Polis Şöbəsində işləyib. 1992-ci il aprel ayının 28-

Babayev
Islam
Ahmedaga oglu

Babayev Islam Ahmedaga oglu was born in Musabeyli village of Agsu district of Azerbaijan Republic in 1957. He worked at Police Department of Baku city, Nasimi district of the Ministry of Internal Affairs

də polis əməkdaşları ilə Şuşa şəhərinin müdafiəsinə göndərilib. Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. 8 may 1992-ci il tarixdə Turşsu yaxınlığındakı Bala Kirs dağında yerləşən posta göndərilib və bir daha geri qayıtmayıb.

Qardaşı-Ağsu rayonu Musabəyli kənd sakini Babayev Qismət Əhmədağa oğlunun verdiyi məlumata görə, İlham əsir götürüldükdən sonra 1992-ci ildə erməni polis əməkdaşı Albert Voskanyan azərbaycanlı hərbçilərlə radioəlaqə yaradaraq onun sağ olduğunu və Şuşa şəhərindəki həbsxanada saxlandığını deyib. Ermənilər İslamı Artur adlı əsirlə dəyişmək istədiklərini bildiriblər. Lakin o, həbsxanada saxlandığı üçün Arturu Rüstəm adlı başqa bir azərbaycanlı əsirlə dəyişiblər. 1993-cü ildə Voskanyan yenidən radiodanışıqlar aparıb, İslam Babayevi Şahverdiyan Leonid Leopoldoviçlə dəyişmək istədiyini bildirib. Ermənilər Şahverdiyanı alıb, İslamı qaytarmayıblar, bəhanə gətiriblər ki, Leonid Dağlıq Qarabağ vətəndaşı deyil.

of Azerbaijan Republic. On the 28th of April, 1992 he with other policemen was sent to defend Shusha town. Islam took part in fights for Shusha. On the 8th of May, 1992 during occupation of Shusha by Armenians he was sent to the point duty in Bala Kirs Mountain near Turshsu and didn't return back any more.

According to the information of his brother Babayev Gismet Ahmedaga oglu who lived in Musabeyli village of Agsu district, after Ilham was taken prisoner, an Armenian policeman Albert Voskanyan connected by radio communication with Azerbaijani military men and said that he was alive and kept in Shusha prison in 1992. Armenians informed that they wanted to change Islam for Artur. Because of they kept him in prison, Artur was changed for another Azerbaijani prisoner whose name was Rustam. In 1993 Voskanyan again connected by radio communication and wanted to change Islam Babayev for Leonid Leopoldovich. That time the change didn't realize. Armenians got Leonid Leopoldovich but didn't return Islam and said that Leonid wasn't the citizen of Upper Garabagh.



Babayev
Məhərrəm
Əşrəf oğlu

1955-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun İmambinəsi kəndində anadan olub. 16 fevral 1993-cü ildə kolxozun mal-qarasını otararkən Əsədov Xəmməməd Mədət oğlu ilə Həsənriz (Aterk) kəndi yaxınlığında ermənilər tərəfindən girov götürülüb. Fevral ayının 27-də özləri ailə üzvlərinə məktub yazıb, Xankəndində girov saxlandıqlarını və Sevyan ailəsinin 4 üzvünü tapıb onların

Babayev
Maharram
Ashraf oglu

Babayev Maharram Ashraf oglu was born in Imambinasi village of Kelbajar district of Azerbaijan Republic in 1955. On the 16th of February, 1993 Maharram grazed the cattle of collective farm and with Asadov Hamammed Madat oglu they were taken hostages by Armenians in direction of Hasanriz (Aterk) village. On the 27th of February he wrote a letter to his family and informed that if they found 4 members

dəyişdirilməsini xahiş ediblər.

Erməni girovluğundan qayıtmış Cəfərov Xasay Ağamalı oğlunun dediyinə görə, Xankəndində saxlandığı zaman onları ağır fiziki işlərə cəlb ediblər. Növbəti dəfə işə gedərkən bir erməni ona yaxınlaşaraq əslən Kəlbəcərdən olduğunu deyib, Xaməmmədlə Məhərrəmi tanıyıb-tanımadığını soruşub. Erməni həmin adamları ailəsindən, yəni Sevyanlar ailəsindən itkin düşmüş 4 nəfərlə dəyişmək istədiyini bildirib.

Əsədov Xaməmmədin Goranboy rayonunun Qaradağlı kəndində yaşayan oğlu Əsəd Əsədov atası və bibisinin həyat yoldaşı Məhərrəmin məktub yazıb, onları Sevyanlarla dəyişmələrini rica etdiyini öz izahatında göstərib. Lakin Sevyanlar tapılmadığı üçün Babayev Məhərrəmlə qohumunun sonrakı aqibəti bəlli olmayb.

of the Sevyans family who were taken hostages in Khankandi, they would change him soon.

According to the words of Jafarov Hasay Agamali oglu who returned from Armenian captivity, when they were kept in Khankandi Armenians forced them for heavy labour. The next time when he went to work an Armenian stopped and said that he was from Kelbajar and if he knew Maharram and Khammamad. That man said that he wanted to change those men for 4 missed men from the Seyvans family.

The son of Asadov Hamammad - Asadov Asad who lived in Garadaghli village of Goranboy district wrote a letter to his father and aunt's husband and asked to change him for the Seyvans family. But the Seyvans were't found and the further life of Babayev Maharram and his relatives were unknown.



Babayev
Nurəddin
Seyidabbas oğlu

1962-ci ildə Bakı şəhərində anadan olub. 1993-cü ildə qardaşı Nəsrəddinlə birlikdə könüllü orlaraq orduya yazılıb. 13 yanvar 1994-cü ildə «Yasamal» taborunun tərkibində Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində döyüşdə mühasirəyə düşərək əsir götürülüb.

Qardaşı-Bakı şəhəri 20 Yanvar küçəsi, ev 39, mənzil 138-də yaşayan Babayev Nəsrəddin Seyidabbas oğlunun verdiyi məlumata görə, 13 yanvar 1994-cü il tarixdə döyüş zamanı geri qayıtmaq əmri aldıqda qardaşı Nurəddini tapa bilməyib. Məlum olub ki, o və Bakı şəhərinin Bülbülə kəndindən olan Telman adlı döyüşçü er-

Babayev
Nureddin
Seyidabbas oglu

Babayev Nureddin Seyidabbas oglu was born in Baku in 1962. In 1993 Nureddin voluntarily with his brother Nasraddin joined the army. On the 13th of January, 1994 he took part in fights for Yukhari Seyidahmedli village of Fuzuli district allotted to «Yasamal» battalion. Babayev Nureddin was surrounded and taken prisoner.

According to the information of his brother Babayev Nasreddin Seyidabbas oglu (he lives in Baku, 20th of January Street 39, app. 138); they voluntarily took part in fights for Fuzuli. On the 13th of January, 1994 he got the order to return and didn't find brother there. It was also informed that Nasreddin

mənilər tərəfindən əsir götürülüblər.

17 mart 1994-cü ildə Gəncə şəhərindən onların evinə tanımadıqları qadın zəng vuraraq ermənilərin radio verilişində Nurəddinin müsahibə verərək Füzuli rayonunun Seyidəhmədli kəndində əsir götürüldüyünü və 2 azərbaycanlı əsirlə birlikdə Dağlıq Qarabağda saxlandığını eşitdiyini deyib.



Babayev
Səfər
Əlifəttah oğlu

1973-cü ildə Bakı şəhərində anadan olub. 7 dekabr 1991-ci ildə sovet ordusundan yenicə tərxis olunmuş Babayev Səfər torpaqlarımızın müdafiəsində iştirak etmək üçün Ağdam rayonuna yollanıb, Yaqub Rzayevin (Qatır Məmmədin) dəstəsində döyüşüb. 1 yanvar 1992-ci ildə Ağdam uğrunda döyüşlərin birində əsir götürülüb.

Atası-Bakı şəhəri, Zirə qəsəbəsi, Ağamalıoğlu küçəsi, ev 11-də yaşayan Babayev Əlifəttah Əliheydər oğlunun verdiyi məlumata görə, 1992-ci il yanvar ayının 11-də və fevral ayının 13-də Səfər tərəfindən yazılmış, Ermənistanın Mehri rayonundan yola salınmış 2 məktub alıb. Səfər məktubunda Bakı şəhərinin Binə qəsəbəsində yaşayan yaxın qohumu İlqar Azayevlə erməni əsirliyində olduğunu və qarşı tərəfin onları azad etmək üçün Gorus-Qafan yolunda itkin düşmüş M.Gevorqyan və L. Avanesyanın tapılmasını tələb etdiklərini bildirib. O, yazıb ki, itkin düşmüş ermənilərin evində saxlanılır, əgər həmin şəxslər tapılmasa, onu öldürəcəklər.

1992-ci ilin fevral ayında Babayev Əlifəttah Mehri rayonuna gedib, polis idarəsinin rəisi ilə görüşüb. Rəis ona Səfər və İlqarın həqiqətən əsir götürüldüklərini və itkin düş-

with Telman who lived in Baku of Bulbule village was taken prisoner.

On the 17th of March, 1994 a woman rang them up from Ganja and told that there was a program by Armenian radio and she heard Nureddin's interview, he was taken prisoner in Seyidahmedli village of Fuzuli district with 2 Azerbaijani prisoners.

Babayev
Safar
Alifattah oglu

Babayev Safar Alifattah oglu was born in Baku in 1973. On the 7th of December, 1991 Safar was mobilized from Soviet Army and sent to Aghdam district to defend the lands. He fought in detachment of Yagub Rzayev (Gatir Mammad). On the 1st of January, 1992 during one of the fight for Aghdam district Babayev Safar was taken prisoner.

According to the information of his father Babayev Alifattah Aliheydar oglu (he lives in Baku, Zira settlement, Agamalioglu Street, 11), he got 2 letters written by him on the 11th of January, 1992 and on the 13th of February he got 2 letters written by Safar from Mehri district of Armenia. Safar wrote that he was in captivity with his close relative Ilgar Azayev (he lives in Baku, Bina settlement) and Armenians demanded M.Gevorkyan and L.Avanesyan missed at Gorus-Gafan way to change with them. He wrote his father that he was kept in missed Armenians' houses and asked to find those men. If he couldn't find them Armenians would kill him.

In February of 1992 Babyev Alifattah went to Mehri district and met the head of police department. The head confirmed the fact that Safar and Ilgar really were taken prisoners and could change them for the

müş ermənilərlə dəyişdirilə biləcəklərini deyib. Babayev 2 dəfə erməni əsiri tapıb. Həmin əsirlər başqa adamlarla dəyişdirildiyi üçün o, oğlunu qaytara bilməyib. 1995-ci ildə Gürcüstandan ona Səfərin və İlqarın sağ olması haqqında xəbər gəlib. Erməni tərəfi onları azad etmək üçün 5.000.000 rus rublu tələb edib. Sonradan ermənilər onların yerini dəyişdirərək izi itiriblər.

Hərbi əsir Azayev İlqar Ağasəlim oğlunun anası- Bakı şəhəri, Binə qəsəbəsi, Bünyadzadə küçəsi, ev 3-də yaşayan Azayeva Xırdaxanım Musaxan qızının ərizəsində göstərilib ki, oğlu evə 1992-ci ildə Səfərin yazdığı məktubla eyni məzmunda məktub göndərib.

Beynəlxalq Qırmızı Xaç Komitəsi 2002-ci ildə Azərbaycan və Ermənistana etdikləri səfərin hesabatında bu faktı təsdiq edib.

missed Armenians. Babayev found Armenian prisoners twice. Those prisoners were changed for another men and that's why he couldn't return his son. In 1995 he got information from Georgia that Safar and Ilgar were alive. Armenian side demanded 5 million of Russian rubles for their release. Then Armenians change the place and the trace was lost.

According to a statement of prisoner of war Azayev Ilgar Agasalim oglu's mother Azayeva Hirdakhanim Musakhan gizi (she lives in Baku, Bina settlement, Bunyadzade Street, 3), her son wrote the same letter as Safar's one and sent home in 1992.

That fact was confirmed by ICRC during report trip to Azerbaijan and Armenia.

Bağırov Elşən Həsən oğlu

1963-cü ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri ermənilər tərəfindən işğal olunan gün vahiməyə düşən əhali meşəyə üz tutub. 50 nəfər Dəhraz kəndi yaxınlığında mühasirəyə düşüb, girov götürülərək həmin kənddə yerləşən donuzçuluq fermasına gətiriliblər. Səhəri gün ermənilər onların arasından Bağırov Elşən də daxil olmaqla 13 nəfər boy-buxunlu gənci seçərək naməlum istiqamətə aparıblar.

Bu məlumatı Xocalı sakinləri - Bakı şəhəri, Atatürk prospekti, ev 2A, mənzil 57-də yaşayan Xudayarov Vəfadar Səlim oğlu, Bakı şəhəri, Xətai prospekti, ev 40-da yaşayan Xudayarov Rövşən Adil oğlu, Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki «Günəşli» sanatoriyasında məskunlaşmış Hüseynov Kamil Dadaş oğlu, Ağayev Səttar Muxtar oğlu, Xudayarov Abil Adil oğlu və başqaları təsdiq ediblər.

Qardaşı-Bağırov Rza Həsən oğlu ərizəsində yazıb ki, onun gah Xankəndində, gah da Yerevanda saxlandığını öyrənib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun təqdim etdiyi azərbaycanlı hərbi əsir və girovların siyahısında Bağırov Elşənin Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

Bagirov Elshan Hasan oglu

Bagirov Elshan Hasan oglu was born in Khojali town of Azerbaijan Republic in 1963. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenians, panic-stricken people ran to the forest. 50 men were surrounded in direction of Dahraz village and inhabitants were taken prisoners and sent to a pig farm in the same village. The next morning Armenians separated 13 young and tall men including Bagirov Elshan and took them to unknown direction.

That information was confirmed by Khudayarov Vefadar Salim oglu (now he lives Baku, Ataturk avenue, 2A, ap. 57), Khudayarov Rovshan Adil oglu (at present he lives in Baku, Khatai avenue, 40), Huseynov Kamil Dadash oglu (he lives in "Guneshli" sanatorium in Baku, Mardakan settlement), Agayev Sattar Mukhtar oglu, Khudayar Abil Adil oglu and others who lived in Khojali.

His brother Bagirov Rza Hasan oglu wrote a statement that when he searched for his son, he found out that he was kept in Khankandi and Yerevan.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district represented a list of Azerbaijani prisoners of war and hostages and there was the name of Bagirov Elshan in the list. It was shown he was kept in Spitak of Armenia.



Bağırov Nasir Hüseynqulu oğlu

1958-ci ildə Azərbaycan Respublikasının Şuşa şəhərində doğulub. Şəhərin müdafiəsini təşkil edənlərdən olub. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün kolxozlararası tikinti idarəsinin yanında növbə çəkib. İşğaldan sonra Nasiri görən olmayıb.

Qardaşı-Şuşa şəhər sakini, hazırda Bakı şəhəri, Azadlıq prospekti, ev 162/11, mənzil 11-də yaşayan Bağırov Elman Hüseynqulu oğlunun dediyinə görə, Nasirin axtarışı zamanı öyrənib ki, həmyerliləri Əsəd, Nigar, Rasim, Qax polisinin əməkdaşları Polad, İbrahimxəlil və Rəcəb 8 may 1992-ci ildə onu postda növbə çəkən vaxt görüblər. Erməni əsirliyindən qaçmış 16 yaşlı Teymur 1993-cü ildə dövlət televiziyası ilə çıxış edərkən Əsgəranda Nasirlə birlikdə saxlandığını bildirib. Nasir ona başqa bir qardaşının da əsirlikdə olduğunu deyib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən

Bagirov Nasir Huseyngulu oglu

Bagirov Nasir Huseyngulu oglu was born in Shusha town of Azerbaijan Republic in 1958. He was one of the organizers of Shusha's defense. On the 8th of May, 1992 during the day of Shusha's occupation he was on point duty at the constructive department of collective farm. After occupation nobody has seen Nasir.

According to the words of his brother Bagirov Elman Huseyngulu oglu who lived in Shush town (at present he lives in Baku, Azadlig avenue 162/11, app. 11), when he searched for Nasir his villagers: Asad, Nigar, Rasim and policemen from Gakh district: Polad, Ibrahimkhalil and Rajab saw him on point duty on the 8th of May, 1992. According to the words of Elman, Teymur of 16 years old who ran away from Armenian captivity informed by TV that he was kept with Nasir in 1993. Nasir said him that his brother was also kept in captivity.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, Armenian Gagik (63-60-

(63-60-73) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Nasir Bağırovun qardaşı Ruslan Bağırovla Xankəndi Polis Şöbəsində saxlandığı göstərilib.



Bağırov Qüdrət Nüsrət oğlu

1965-ci ildə Azərbaycan Respublikasının Lənkəran şəhərində anadan olub. 6 yanvar 1994-cü ildə Xocavənd rayonu uğrunda döyüşdə iştirak edib. 31 yanvar 1994-cü ildə həmin rayonun Şişqaya yüksəkliyi yaxınlığında döyüş zamanı itkin düşüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun verdiyi izahata görə, ermənilərlə radiodanışıqlarda qarşı tərəfin nümayəndəsi Abo ona Xocavənd rayonunun Kurapatkino kəndində saxlanılan əsləri lənkəranlı Bağırov Qüdrətin də adı daxil olan 9 azərbaycanlı əsirin siyahısını verib. Abo bildirib ki, onları 5 nəfər itkin düşmüş erməni əsiri ilə dəyişə bilər. Qarşı tərəfin şərti yerinə yetirilmədiyi üçün dəyişmə baş tutmayıb.

Hərbi əsir Cəfərov Babək Lətif oğlunun atası-Bakı şəhəri Pirallahı qəsəbəsi, Rzayev küçəsi, ev 2, mənzil 46-da yaşayan Cəfərov Lətif Həsən oğlu ərizəsində yazıb ki, oğlunun döyüş yoldaşları onun və Bağırov Qüdrətin Şişqaya yüksəkliyi uğrunda döyüş zamanı əsir düşdüklərini və Xocavənd rayonunun Kurapatkino kəndində saxlandıqlarını deyiblər.

70) gave him a list of Azerbaijani prisoners of war and hostages in Tbilisi. There was the name of Bagirov Nasir in that list. It was shown that he was kept with his brother Bagirov Ruslan in Police Department of Khankandi.

Bagirov Gudrat Nusrat oglu

Bagirov Gudrat Nusrat oglu was born in Lankaran town of Azerbaijan Republic in 1965. On the 6th of January, 1994 he took part in fights for Khojavand district. On the 31st of January, 1994 during the fight in direction of Shishgaya height of Khojavand district Gudrat was missed.

According to a statement of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district), representative of Armenian side Abo gave him a list of Azerbaijani prisoners and hostages by radio communication and there was the name of Bagirov Gudrat from Lankaran who kept in Kurapatkino village of Khojavand district. Abo informed that he could change military men only for 5 missed Armenians. Armenians' condition wasn't carried out and the change didn't realize.

The father of prisoner of war Jafarov Babek Latif oglu - Jafarov Latif Hasan oglu (he lives in Baku, Pirallahi settlement, Rzayev Street 2, app.46) wrote a statement that his son's front-line comrades informed during the fight in Shishgaya height Bagirov Gudrat was taken prisoner and kept in Kurapatkino village of Khojavand district.



Bağırov Ruslan Hüseynqulu oğlu

1956-cı ildə Azərbaycan Respublikasının Şuşa şəhərində anadan olub. 8 may 1992-ci ildə zabit Ruslan Bağırov səhər saat 6 radələrində evdən çıxıb və bir daha geri qayıtmayıb.

Qardaşı-Şuşa şəhər sakini, hazırda Bakı şəhəri, Azadlıq prospekti 162/11, mənzil 11-də yaşayan Bağırov Elman Hüseynqulu oğlu Ruslanın axtarışı zamanı döyüş yoldaşlarından onun günün müxtəlif saatlarında şəhərin müxtəlif nöqtələrində göründüyünü, döyüş sursatı aparıb, yaralı gətirdiyini öyrənib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən (Yerevan nömrəsi: 63-60-70) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Bağırov Ruslanın Xankəndi şəhərində saxlandığı göstərilib. Elmanın verdiyi məlumata görə, ermənilər Ruslanı müxtəlif vaxtlarda Ermənistanın Spitak şəhərində, Gorusda, Xəlfəlidə və Xankəndində saxlayıblar.



Bağırov Vüqar Novruz oğlu

1973-cü ildə Azərbaycan Respublikasıı Zəngilan rayonunun Mincivan qəsəbəsndə anadan olub. Neft Akademiyasının I kurs tələbəsi Bağırov Vüqar könüllü olaraq doğma torpaqlarını qorumaq

Bagirov Ruslan Huseyngulu oglu

Bagirov Ruslan Huseyngulu oglu was born in Shusha town of Azerbaijan Republic in 1956. On the 8th of May, 1992 officer Bagirov Ruslan left the house at 6 o'clock and didn't return any more.

When his brother Bagirov Elman Huseyngulu oglu who lived in Shusha town (at present he lives in Baku, Azadlig avenue 162/11, app. 11), searched for Ruslan, his front-line comrades saw him in different places of the town at different hours. He found out that he brought weapons and helped the wounded.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, Armenian Gagik (63-60-70) gave him a list of Azerbaijani prisoners of war and hostages in Tbilisi. There was the name of Bagirov Ruslan in that list. It was shown that he was kept in Khankandi. According to the words of Elman, Armenians kept Ruslan in Spitak, Gorus, Khalfalid and Khankandi.

Bagirov Vugar Novruz oglu

Bagirov Vugar Novruz oglu was born in Minjivan settlement of Zangilan district of Azerbaijan Republic in 1973. The 1st course student of Oil Academy Vugar voluntarily returned Zangilan dis-

üçün Zəngilana qayıdıb, ərazi özünümüdafiə taborunun tərkibində döyüşüb. 23 avqust 1993-cü ildə Cəbrayıl rayonunun işğalı zamanı ayağından yaralanaraq əsir götürülüb.

Döyüş yoldaşı Azər (Zəngilan işğal olunan gün şəhid olub) adlı şəxs Füzuli rayonu Əhmədbəyli kəndində ermənilərlə radioəlaqə yaradıb, polis şöbəsinin rəisi Eduarddan Bağırov Vüqarın və Almuradov Xaqani Ağaqulu oğlunun əsir götürüldüyünü öyrənib. Qarşı tərəfin nümayəndəsi onların azad olunması üçün 1 milyon rus rublu tələb edib. Əsir götürülmüş döyüşçülərin valideynləri həmin məbləği düzəldib. Lakin Azərbaycan əraziləri bir-birinin ardınca ermənilər tərəfindən işğal olunduğu üçün Ediklə əlaqə kəsilib.

Vüqarın atası-Zəngilan rayonu Mincivan qəsəbə sakini Bağırov Novruz Mənsim oğlu verdiyi məlumatda bildirib ki, Qubadlı rayonunda ermənilər tərəfindən girov götürülüb, sonradan azad olunan Kərəm adlı bir şəxsin dediyinə görə, Xankəndi-Şuşa yolunda ermənilərin maşınlarını təmir edən zaman azərbaycanlı əsirləri işdən gətirən avtomobil onun yanında dayanıb. Maşından düşən Vüqar adlı gənc Zəngilan rayonunun Mincivan qəsəbəsində yaşayan zabit Bağırov Novruzun oğlu olduğunu və valideynlərinin onu qurtarmasını onlara çatdırmağı xahiş edib. Azad olunan Kərəm xəbəri Vüqarın babası-Rzaquliyev Sədətquluya çatdırıb.

Əli Bayramlı şəhəri, Nizami küçəsi, ev 15-də yaşayan, erməni əsirliyindən qayıtmış Rüstəmov İlqar Malik oğlu Vüqarın şəklini gördükdə tanıyıb, onu yaralı halda Xankəndidəki xəstəxanada gördüyünü deyib.

trict to defend native landsallotted to self-defense battalion. On the 23rd of August 1993 during occupation of Jabrayil district by Armenians he was wounded in leg and taken prisoner.

His front-line comrade Azer (he died during Zangilan's ocenpation) connected with Armenians by radio communication and found out from the head of Police Department Edik that Bagirov Vugar and Almuradov Khagani Agagulu oglu were taken prisoners and they demanded 1 million Russian rubles for their release. Their parents prepared money. The territories were occupied by Armenians one after the other, connection with Edik was interrupted.

According to the information of Vugar's father Bagirov Novruz Mensim oglu who lived in Minjevan settlement of Zangilan district, he was taken prisoner by Armenians. Later according to the words of Karam who was taken prisoner by Armenians in Gubadli district and later released from captivity informed, when Azerbaijani prisoners repaired Armenians' cars on the way to Khankandi-Shusha, the car had stopped which took them after work. A man whose name was Vugar from Minjevan settlement of Zangilan district said that he was officer Novruzov's son and asked parents to help. Later that information was told his grandfather, Rzaguliyev Sadatgulu.

Rustamov Ilgar Malik oglu who returned from Armenian captivity (now he lives in Ali-Bayramli, Nizami Street 15) saw his picture, recognized him and informed that wounded Vugar was in Khankandi hospital.

Bağıyev
Füzuli
Knyaz oğlu

1974-cü ildə Azərbaycan Respublikası İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olub. 1992-ci ilin iyun ayında hərbi xidmətə çağırılıb. 1992-cü il dekabr ayının 16-da Laçın rayonunun Təzəkənd kəndi ətrafında döyüşlərdə iştirak edib.

28 mart 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı Kəlbəcər və Laçın rayonları arasında Qamışlı kəndi istiqamətində gedən döyüşdə itkin düşüb. Sonradan məlum olub ki, o, əsir götürülərək Xocavənd rayonuna aparılıb.

Atası-İsmayıllı rayonu Qamışlı kənd sakini Bağıyev Knyaz Oruc oğlunun söylədiyinə görə, əsir götürüldükdən sonra oğlu Xankəndində bir ermənin evində saxlanılıb.

Ağdam rayonu Şelli kənd sakini, həmin rayonun Quzanlı kəndində yerləşən çadır şəhərciyində məskunlaşmış Məmmədov Hamlet Məhiş oğlunun dediyinə görə, radiodanışıq zamanı qarşı tərəfin nümayəndəsi Füzulinin əsir götürülüb, Xocavənd rayonunda saxlandığını bildirib.

Bagiyev
Fuzuli
Knyaz oglu

Bagiyev Fuzuli Knyaz oglu was born in Mollaisagli village of Ismayilli district of Azerbaijan Republic in 1974. In June of 1992 he was called up for military service. On the 16th of December, 1992 Bagiyev Fuzuli took part in fights near Tazakand village of Lachin district.

On the 28th of March, 1993 when Kelbajar district was occupied by Armenians, during the fight in direction of Gamishli village he was missed. Later it was known that Fuzuli was taken as a prisoner and sent to Khojavand district.

According to the words of his father Bagiyev Knyaz Oruj oglu who lived in Gamishli village of Ismayilli district, when Fuzuli was taken prisoner he was kept in a house of Armenian in Khankandi.

According to the words of Mammadov Hamlet Mehish oglu who lived in Shelli village of Aghdam district (at present he lives in camp town which situated in Guzanli village), it was found out by radio communication that Armenian side took him as a prisoner and kept in Khojavand.



Balayev
Razı
Şahmar oğlu

1963-cü ildə Bakı şəhərində anadan olub. 17 noyabr 1993-cü ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 11 yanvar 1994-cü ildə Ağdərə rayonunun Akop-Komari

Balayev
Razi
Shahmar oglu

Balayev Razi Shahmar oglu was born in 1963. On the 17th of November, 1993 he was called up for military service by Military Registration and Enlistment Office of Khatai district. On the 11th of January,

kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Zərgər kənd sakini, Beyləqan rayonundakı 2 saylı məktəbdə məskunlaşmış Əliyev Valeh Həsən oğlu bildirib ki, 1994-cü ildə Şuşa həbsxanasının həyətində Razı Balayevlə rastlaşıb və söhbət edib.

1994 during the fight for Akop Komari village of Aghdara district he was taken prisoner by Armenians.

Aliyev Valeh Hasan oglu who returned from American captivity a lived in Zargar village of Fuzuli district (now he lives school № 2 of Beylagan district) informed that he met Razi Balayev in Shusha prison in 1994 and talked to him.



Baratov Hörmət Beytulla oğlu

1975-ci ildə Azərbaycan Respublikası Xaçmaz rayonunun Nərəcan kəndində anadan olub. Ağdam uğrunda döyüşlərdə iştirak edib. 18 aprel 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndində gedən döyüşdə ağır yaralanıb və əsir götürülüb. Xankəndi şəhərindəki uşaq xəstəxanasında saxlanılıb.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlu 1994-cü ildə əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Albert Voskanyandan alınmış Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən 37 azərbaycanlı hərbi əsirin siyahısında Baratov Hörmətin də adı olduğunu bildirib. Siyahını Şuşa şəhərindəki erməni alayının qərargah rəisi Armais Saakyan təsdiq edib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyiblər. Ayriyan öldüyü üçün dəyişmə baş tutmayıb.

Həmin siyahını əsir götürülmüş İsayev Bəxtiyarın atası-Bakı şəhəri, Motodrom massivi 8-də yaşayan İsayev Səfər Əli oğlu, əsir Ağalarov Yaşarın atası-Goranboy

Baratov Hormet Beytulla oglu

Baratov Hormet Beytulla oglu was born in Nerejan village of Khachmaz, of Azerbaijan Republic in 1975. He took part in fights for Aghdam. On the 18th of April, 1994 during the fight for Gulluje village of Aghdam district, Baratov Hormet was seriously wounded and taken prisoner by Armenians and kept in children hospital in Khankandi.

According to the information of Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (at present time he lives in sanatorium "Zugulba" in Buzovna settlement, Baku), when he was engaged in change of prisoners and hostages in 1994, the representative of Armenian side Albert Voskanyan gave him a list of 37 Azerbaijani prisoners of war hidden from ICRC. There was the name of Baratov Hormet in that list. That list was confirmed by Armais Saakyan the chief of staff of Armenian regiment in Shusha. It was shown that Hormet was kept in Khankandi. Armenians wanted to change those prisoners for a killer of journalist Salatin Asgarova Arkadi Ayriyan whose nickname was "Napoleon". The change didn't realize because Ayriyan died in the prison.

That list was gotten by the father of prisoner of war Isayev Bakhtiyar Safar oglu – Isa-

rayonu Xanqərvənd kənd sakini Ağalarov Musa, əsir Muxtarov Telmanın atası-Hacıqabul rayonu Nəvahi kənd sakini Muxtarov Əlisahib və əsir Hümbətov Xalidin atası-Kəlbəcər rayonu Halçalı kənd sakini Hümbətov Əli də əldə edib.

yev Safar Ali oglu (he lives in Baku, Motodrom massif 8), the father prisoner of war Agalarov Yashar Musa oglu – Agalarov Musa who lived in Khangarvand village of Goranboy district, the father of prisoner of war Mukhtarov Telman Alisahib oglu – Mukhtarov Alisahib who lived in Navahi village of Hajigabul district and the father of prisoner of war Humbatov Khalid Ali oglu – Humbatov Ali who lived in Halchali village of Kelbajar district.



Bayraməliyev Vüqar Seyidbaba oğlu

1975-ci ildə Azərbaycan Respublikası Quba rayonunun II Nüvədi kəndində anadan olub. 13 yanvar 1994-cü ildə Quba Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Ağdam rayonuna göndərilib. 24 aprel 1994-cü ildə Ağdam rayonunun Şotlanlı kəndində yaralı vəziyyətdə əsir götürülüb.

Atası-Quba rayonu II Nüvədi kənd sakini Bayraməliyev Seyidbaba Camalağa oğlu ərizəsində yazıb ki, 23 aprel 1994-cü ildə oğlunu görmək üçün onun döyüşdüyü Ağdam rayonuna gedib. Vüqarla görüşdükdən sonra gecəni Tərtər rayonunda qalıb, səhəri gün onun xidmət etdiyi Şotlanlı kəndinə gəldikdə, orada qızğın döyüş getdiyindən batalyona yaxın düşə bilməyib. Qapanlı kəndində döyüşün səngiməsini gözləyib. 24 aprel 1994-cü ildə axşamüstü ağır döyüşdən qayıdan əsgərlərdən Vüqarı soruşub. Döyüşçülər onun saat 14-15 radələrində yaralandığını və döyüş meydanında qaldığını deyiblər. Döyüş gedən kənd və onun ətrafındakı ərazilər ermənilər tərəfindən işğal olduğu üçün atası Vüqar haqqında məlumat əldə edə bilməyib.

Erməni əsirliyindən azad olunmuş Füzu-

Bayramaliyev Vugar Seyidbala oglu

Bayramaliyev Vugar Seyidbala oglu was born in 2nd Nuvedi village of Guba district of Azerbaijan Republic in 1975. On the 13th of January, 1994 he was called up for the Military Registration and Enlistment office and was sent to Aghdam district. On the 24th of April, 1994 during the fight in Shotlanli village of Aghdam district wounded Vugar was taken prisoner by Armenians.

His father Bayramaliyev Seyidbala Jamalaga oglu who lived in Nuvedi village of Guba district wrote a statement that he went to Aghdam to see his son on the 23rd of April, 1994. After meeting Vugar, he stayed at the hotel in Terter. The next morning he went to Shotlanli village to say good-bye to his son. Because of battles he couldn't come up to his battalion. He has been waited for the end of battle in Gapanli village. In the evening of 24th of April, 1994 he asked about Vugar from a soldier who returned from the fight. Fighters said that nearly at 14-5 o'clock he was wounded and stayed at the battle field. Armenians occupied that village, his father couldn't get any information concerning him.

According to the information of Mamma-

li rayonu Horadiz qəsəbə sakini Məmmədov Rafiq Sevindik oğlunun verdiyi məlumata görə, Ağdamın Qərvənd kəndindəki xəstəxanada saxlandığı zaman 1994-cü ilin yazında sağ ayağından yaralanmış, əslən Quba rayonundan olan Bayraməliyev Vüqarı da oraya gətiriblər. Ermənilər əsirlərə bir-biri ilə ünsiyyət yaratmağa imkan vermədikləri üçün onunla ətraflı söhbət edə bilməyib. Vüqar təxminən 12-15 gün orada qaldıqdan sonra gecə Xankəndinə aparılıb. Rafiq bir daha onu görməyib.

dov Rafig Sevindik oglu who lived in Horadiz settlement of Fuzuli district and released from Armenian captivity, he was treated in a hospital with very bad conditions in Garvand village of Aghdam district. There was Bayramaliyev Vugar from Guba who wounded in leg in spring of 1994. It was impossible to talk to another prisoners because Armenian didn't allow. Vugar has been stayed there for 12-15 days and then he is taken to Khankandi. Rafig didn't see him any more.



Bayramov Azad Muxtar oğlu

1973-cü ildə Azərbaycan Respublikası Lerik rayonunun Siyov kəndində anadan olub. Füzuli rayonu uğrunda döyüşlərdə iştirak edib. 14 avqust 1993-cü ildə Füzuli rayonunda yerləşən Qızılqaya yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Lerik rayonu Siyov kənd sakini Bayramov Muxtar Xeybər oğlu Azad əsir düşdükdən sonra Lerik Rayon Hərbi Komissarlığına çağırıldığını və orada oğlunun hərbi biletinin ona verildiyini deyib. Hərbi bileti onlara təqdim edən əslən Sabirabad rayonundan olan Ramiz adlı şəxs 14 avqust 1993-cü ildə Qızılqaya yüksəkliyi uğrunda döyüşdə Azadın boynundan yaralandığını və döyüşdən qayıtmadığını bildirib.

Əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu ərizəsində yazıb ki, 1993-cü ilin sentyabr ayında qarşı tərəflə aparılan radioəlaqə zamanı Lerik rayon sakini

Bayramov Azad Mukhtar oglu

Bayramov Azad Mukhtar oglu was born in Siyov village of Lerik district of Azerbaijan Republic in 1973. He took part in fights for Fuzuli district. On the 14th of August, 1993 during the fight for Gizilgaya height of Fuzuli district Azad was taken prisoner by Armenians.

His father Bayramov Mukhtar Kheybar oglu who lived in Siyov village of Lerik district said when his son was taken prisoner, he was called by the Military Registration and Enlistment Office of Lerik district and then he was given Azad's military ticket. Ramiz who gave him it and originally from Sabirabad district informed that on the 14th of August, 1993 during the fight for Gizilgaya height, Azad was wounded in neck and he didn't return from the battle.

According to the words of Kazimov Ahad Musa oglu who engaged in change of prisoners and hostages and lived in Yaglivand village of Fuzuli district (at present he lives in Allahyarli village of Beylagan district), wrote a statement that he connected with Armenian side by radio communication in

Bayramov Azadın əsir götürüldüyünü, Şuşa həbsxanasında saxlandığını öyrənib.

Erməni əsirliyindən qayıtmış Kəlbəcər rayonu Kilsəli kənd sakini, Bərdə rayonunun Həsənqaya kəndində məskunlaşan Quliyev Bəxtiyar Məhəmməd oğlu 1993-cü ildə yaralı vəziyyətdə əsir götürüldüyü üçün Xankəndi xəstəxanasında saxlanılıb. Həmin vaxt Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilən yaralı, Lerik rayon sakini Bayramov Azad Muxtar oğlu da onunla birlikdə olub.

September of 1993 and found out that wounded Azad from Lerik district was taken prisoner and kept in Shusha prisoner.

Guliyev Bakhtiyar Mahammad oglu who returned from Armenian captivity and lived in Kilsali village of Kelbajar district (now he lives in Hasangaya village of Barda district), he was wounded and kept as a prisoner in Khankandi hospital in 1993. Bayramov Azad Mukhtar oglu who was hidden from ICRC and lived in Lerik village was kept with him.



Bayramov Azad Zahid oğlu

1971-ci ildə Azərbaycan Respublikası Samux rayonunun Yenikənd kəndində anadan olub. 1992-ci ildə Xanlar Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Füzuli rayonunun «İşıqlı» taborunun tərkibində döyüşüb. Sonradan həmin rayonun Məlikcanlı kəndinə göndərilib. 4 iyul 1993-cü ildə Füzuli rayonunun Məlikcanlı kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Samux rayonu Yenikənd kənd sakini Bayraməliyev Zahid Tanrıverdi oğlunun verdiyi məlumata görə, oğlunun axtarışı zamanı döyüş yoldaşları Azadın ayağından yaralandığını və ermənilər tərəfindən əsir götürüldüyünü deyiblər.

Qardaşı-Bakı şəhəri, Bakıxanov qəsəbəsi, M.Ş.Vazeh küçəsi, ev 6, mənzil 13-də yaşayan Bayramov Alim Zahid oğlu izahatında yazıb ki, Gürcüstanda yaşayan qohumu vasitəsilə orada yaşayan ermənilərdən Azadın əvvəl Ermənistanın Leninakan, sonra Yerevan şəhərlərindəki həbsxanalarda saxlandığı öyrənilib.

Bayramov Azad Zahid oglu

Bayramov Azad Zahid oglu was born in Yenikand village of Samukh district in 1971. In 1992 he was called up for military service by the Military Registration and Enlishment office of Khanlar district and fought allotted to "Ishigli" battalion of Fuzuli district. On the 4th of July, 1993 during the fight in Melikyanli village of Fuzuli district Azad was taken prisoner by Armenians.

According to the information of his father Bayramaliyev Zahid Tanriverdi oglu who lived in Yenikand village of Samukh district, while searching for his son, Azad's front-line comrades said that he was wounded in leg and taken prisoner by Armenians.

His brother Bayramov Alim Zahid oglu (hi lives in Baku, A.Bakikhanov settlement, M.Sh.Vazeh street, 6, ap. 13) wrote a statement that he found out from Armenian by the assistance of his relative who lived in Georgia that at first Azad was kept in Leninakan of Armenia and then in prison in Yerevan city.

Bayramov
Ələsgər
Səlim oğlu

1912-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Zor kəndində anadan olub. 31 avqust 1993-cü ildə yaşadıqları kənd ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Bayramova Məstan Ağaşirin qızı (1915) ilə birlikdə girov götürülüb.

Oğlu-Qubadlı rayonu Zor kənd sakini, Sumqayıt şəhəri, 9-cu mikrorayon, ev 13A/2, mənzil 1-də məskunlaşmış Bayramov Mürvət Ələsgər oğlunun dediyinə görə, ermənilər kəndə hücum edən zaman valideynlərini girov götürmüşlər.

Gəlini-Qubadlı rayonu Zor kənd sakini, Sumqayıt şəhəri 41-ci məhəllədə yerləşən 9 saylı yataqxanada məskunlaşmış Bayramova Gülxanım Ağamalı qızı ərizəsində yazıb ki, kəndləri ermənilər tərəfindən işğal olunan vaxt qaynatası Bayramov Ələsgər Səlim oğlu, qaynanası Bayramova Məstan Ağaşirin qızı və həyat yoldaşı Səlim kənddə qalıb. Gülxanım uşaqlarını valideynlərinin yaşadıqları kənddə qoyub, qayıdan zaman orada həyat yoldaşı, qaynatası və qaynanasından başqa heç kimi görməyib. Onlar oğlu və gəlininə kənddən çıxmağı məsləhət görüblər. Həyat yoldaşı ilə Sumqayıt şəhərinə gələn Gülxanım bir daha onları görməyib.

Bayramov
Alesgar
Salim oglu

Bayramov Alesgar Salim oglu was born in Zor village of Gubadli district of Azerbaijan Republic in 1912. On the 31st of August, 1993 during the day of occupation of their by Armenians his wife Bayramova Mestan Agashirin gizi (year of birth: 1915) and Alasgar were taken hostages.

According to the words of his son Bayramov Murvat Alesgar oglu who lived in Zor village of Gubadli district (at present he lives in Sumgayit town, 9th microdistrict, 13 A/2, ap.1), during Armenians attack his parentswere taken hostages by Armenians.

His son's wife Bayramova Gulkhanim Agamali gizi who lived in Zor village of Gubadli district (now she lived in the hostel № 9 in Sumgayit town, 41 quarter) wrote a statement that during occupation of their village by Armenians, her father-in-law Bayramov Alasgar Salim oglu, mother-in-law Bayramova Mastan Agashirin gizi and her husband – Salim stayed at the village. Gulkhanim stayed children at the village with parents and when she returned, she saw nobody except husband, father-in-law and mother-in-law. They advised son and his wife to leave the village. She and her husband who came to Sumgayit didn't see them any more.



Bayramov
Ramiz
Nəriman oğlu

1963-cü ildə Bakı şəhərində anadan olub. 1992-ci ildə Binəqədi Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Piyadaların döyüş maşını heyətinin komandiri vəzifəsində xidmət edib. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan gün komandiri olduğu piyadaların döyüş maşınının heyət üzvləri ilə birlikdə əsir götürülüb.

Anası-Bakı şəhəri, Dərnəgül qəsəbəsi, Nəvai küçəsi, ev 76, mənzil 57-də yaşayan Bayramova Zinyət Seyfəli qızı ərizəsində döyüş yoldaşlarından Ramizin Şuşanın işğalı günü piyadaların döyüş maşınının heyəti ilə əsir götürüldüyünü öyrəndiyini yazıb.

Əsir Cabbarov Əli Telman oğlunun atası - Bakı şəhəri, «Qızıl Şərq» hərbi şəhərciyi, ev 98, mənzil 19-da yaşayan Cabbarov Telman İdris oğlunun dediyinə əsasən, 1994-cü ildə oğlunun axtarışı zamanı Gürcüstan Respublikası ərazisində milliyyətcə erməni olan Artur adlı bir şəxslə görüşüb. Artur ona Cabbarov Əli Telman oğlunun, Bayramov Ramiz Nəriman oğlunun və Abbasov Rafael Soltan oğlunun əsir götürüldüyünü, Ermənistanın Spitak şəhərində saxlandığını deyib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Alaverdiyan Samirdən (Yerevan tel: 48-67-93) aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Bayramov Ramizin də adı olub. Onun Ermənistanın Spitak şəhərində saxlandığı göstərilib.

Bayramov
Ramiz
Nariman oglu

Bayramov Ramiz Nariman oglu was born in Baku in 1963. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Binagadi district. Ramiz served as a commander of infantry armored machine. On the 8th of May, 1992 during the day of Shusha's occupation Ramiz as a commander of infantry armoured machine and its members of crew were taken prisoners together.

His mother Bayramova Zinayet Seyfali gizi (she lives in Baku, Darnagul settlement, Navai Street, ap. 57) wrote a statement while searching for her son, she found out from his front-line comrades that during the day of Shusha's occupation together with members of infantry armoured machine he was taken prisoner by Armenians.

According to the information of the former head of Executive Power of Fuzuli district Eyvazov Fireddin Ali oglu (at present he lives in the hostel № 4, room 205 of ATU in Baku) who worked in 1992-1993, he was engaged in registration of prisoners and hostages who were taken in 1992-1993. According to the given information, Alesgarov Karam was taken prisoner and kept in Khankandi town.

During radio communication with Armenians, Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Machgara village of Beylagan district) informed and found out that Alesgarov Karam was taken prisoner and kept in Khankandi town of Upper Garabagh.

When Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district searched for his sister Huseynova Tamara Saleh gizi, he met a representative of Armenian Society of Red Cross Alaverdiyan Shamir in Tbilisi (Yerevan city-74, Nijniy Shengavit Street, 35, app.22, phone: 48-67-93) and got a list of Azerbaijanis. There was the name of Karam in that list. He was kept in Khankandi town.



Ələsgərov Nahid Azay oğlu

1967-ci ildə Azərbaycan Respublikası Quba rayonunun Digah kəndində anadan olub. 15 dekabr 1993-cü ildə Quba Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Tank taborunun tərkibində tankın heyət üzvü kimi Ağdam rayonu uğrunda döyüşlərdə iştirak edib. 31 dekabr 1993-cü ildə Ağdam rayonunun Salahlı kəndində gedən qızğın döyüş zamanı tankın heyət üzvləri - Məmmədov Ağahəsən Firudin oğlu (Bakı), İbrahimov İlham Abdulla oğlu (Lerik) və Gimadiyev İldar Nailoviçlə (Bakı) birlikdə ermənilər tərəfindən əsir götürülüb.

5 yanvar 1994-cü ildən 8 may 1995-ci ilə qədər erməni əsirliyində olmuş, I qrup əlil, Nəsimi rayonu A. Səhhət küçəsi, ev 57 ünvanda yaşayan Hüseynov Cavid Ağa oğlu izahatında yazıb ki, 1994-cü ilin yay aylarında işğal olunmuş Ağdam rayonunda yerləşən daş karxanasına gətirilib, ağır fiziki işə cəlb olunduğu zaman keçmiş döyüş yoldaşları Ələsgərov Nahid Azay oğlu, Məmmədov Ağahəsən Firudin oğlu, İbrahimov İlham Abdulla oğlu və Gimadiyev İldar Nailoviçi də orada görüb. Onlar Cavidə Xocavənd rayonunda əsir saxlandıqlarını və Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədildiklərini deyiblər. O, bir daha əsir götürülmüş tankçıları görməyib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin 1994-cü ildə verdiyi məlumata görə, Nahid Ələsgərovu həmin ilin sentyabr ayında işğal olunmuş Ağdam rayonunda yerləşən daş karxanasında işlədilən görüblər.

Alesgarov Nahid Azay oglu

Alesgarov Nahid Azay oglu was born in Digah village of Guba district of Azerbaijan Republic in 1967. On the 15th of December, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Guba district. Nahid took part in fights for Aghdam district as a member of tank crew allotted to tank battalion. On the 31st of December, 1993 during the fight for Salakhli village of Aghdam district, the members of tank crew: Nahid with Mammadov Agahasan Firudin oglu (Ganja), Ibrahimov Ilham Abdulla oglu (Lerik) and Gimadiyev Ildar Nailovich (Baku), they were taken prisoners by Armenians.

Huseynov Javid Aga oglu, invalid of 1st group (he lives in Nasimi district, A.Sahhat Street, 57) being in Armenian captivity from the 5th of January, 1994 to the 8th of May, 1995 wrote a statement that during his captivity, he was taken to quarry in summer of 1994. When he was forced for heavy labour, he saw his former soldier brothers: Alesgarov Nahid Azay oglu, Mammadov Agahasan Firudin oglu, Ibrahimov Ilham Abdulla oglu and Gimadiyev Ildar Nailovich there. They said that Javid was kept as a prisoner in Khojavand district and they hid from ICRC. That was last their meeting; he didn't see tankmen who were taken prisoners any more.

According to the information of ICRC from 1994 Alesgarov Nahid has been seen working in quarry in occupied Aghdam district in September of 1994.

Əliməmmədov Namiq Şahmalı oğlu

1962-ci ildə Azərbaycan Respublikası Əsgəran rayonunun Pircamal kəndində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün ailə üzvləri ilə birlikdə ermənilər tərəfindən girov götürülüb.

Qardaşı-Əsgəran rayonu Pircamal kənd sakini, Bakı şəhəri, Nərimanov rayonu, Mayakovski küçəsi, ev 17, mənzil 27-də yaşayan Əliməmmədov Yaşar Şahmalı oğlu ərizəsində yazıb ki, həmin dəhşətli gecə ailə üzvləri və yaxın qohumları ilə meşədə girov götürülərək Pircamal kəndindəki maldarlıq fermasına gətirilib, orada ağır işgəncələrə məruz qalıblar. Ermənilər 1 mart 1992-ci ildə qardaşı Əliməmmədov Namiqi, həmyerlisi Məmmədov Kamil Əmir oğlu və adını bilmədiyi mehseti türkü ilə naməlum istiqamətə aparıblar. Bir daha qardaşı haqqında heç bir məlumat ala bilməyib.

Erməni girovluğundan qayıtmış Xocalı şəhər sakini, Bakı şəhəri, Mərdəkan qəsəbəsindəki «Günəşli» sanatoriyasında məskunlaşmış Abdullayeva Sənəm Həsən qızı Əsgəran rayonunun Pircamal kəndindəki maldarlıq fermasında saxlandığı zaman Əliməmmədov Namiqi də orada gördüyünü bildirib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan üzrə nümayəndəliyindən verilən məlumata görə, Əliməmmədov Namiq 27 fevral 1992-ci ildə ermənilər tərəfindən əsir götürülüb və bir neçə gün Əsgəran rayonunun Pircamal kəndindəki fermada saxlandıqdan sonra naməlum yerə aparılıb.

Alimammadov Namig Shahmali oglu

Alimammadov Namig Shahmali oglu was born in Pirjamal village of Asgaran district of Azerbaijan Republic in 1962. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces Namig with the members of his family was taken hostages.

His brother Alimammadov Yashar Shahmali oglu who lived in Pirjamal village of Asgaran district (now he lives in Baku, Narimanov district, Mayakovski Street 17, app.27) wrote a statement that during the night of Khojali's occupation Namig with the members of his family and close relatives was taken hostage in the forest, then he was taken to the stock-breeding farm in Pirjamal village and put to tortures. On the 1st of March, 1992 brother Alimammadov Natig, villager Mammadov Kamil Amir oglu with a mehseti turk but didn't know his name were taken to unknown direction. He didn't get any information concerning his brother.

Abdullayeva Sanam Hasan gizi who lived in Khojali (she lives in "Guneshli" sanatorium in Mardakan settlement) and returned from Armenian captivity saw Alimammadov Namig in the stock-breeding farm in Pirjamal village of Asgaran district.

According to the information of Azerbaijan representative ICRC, Alimammadov Namig was taken prisoner by Armenians, kept in the stock-breeding farm in Pirjamal village of Asgaran district for several days and then he was taken to unknown direction on the 17th of February, 1992.

Əlimərdanov Məhərrəm Şükür oğlu

1963-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun İmamqulubəyli kəndində anadan olub. 1992-ci ilin aprel ayından Gülablı taborunun tərkibində döyüşüb. 4 sentyabr 1992-ci ildə döyüşçü qohumu Məmmədov Cənnət Hümbət oğlunun toyu olduğundan digər qohumları - Məmmədov İsa Hümbət oğlu (1957) və Mehdiyev Möhübbət Qeys oğlu (1956) ilə birlikdə onu döyüş bölgəsindən gətirmək üçün P22-58AQ dövlət nömrə nişanlı qırmızı rəngli «Jiquli» markalı avtomaşında Abdal-Gülablı kəndinə gedib, bir daha geri qayıtmayıb. Həmin gün onlar işğal olunan Abdal-Gülablı kəndində girov götürülübər.

3 gün sonra ermənilər Novruzlu kəndindəki hərbi hissə ilə radioəlaqə yaradaraq Əlimərdanov, Məmmədov və Mehdiyevi girov götürdüklərini, Aşot adlı itkin düşmüş erməni ilə dəyişmək istədiklərini deyiblər. Aşot tapılmadığı üçün girovların qaytarılması baş tutmayıb. Bu məlumatı Məhərrəmin qaynı-Sumqayıt şəhəri, 17-ci mikrorayon, ev 63, mənzil 53-də yaşayan Hüseynov Musa Hümbət oğlu verib.

Alimardanov Maharram Shukur oglu

Alimardanov Maharram Shukur oglu was born in Imamgulubeyli village of Aghdam district of Azerbaijan Republic in 1963. In April of 1992 he fought allotted to Gulabli battalion. On the 4th of September, 1992 Maharramov with other relatives Mammadov Isa Humbet oglu (the year of birth: 1957) and Mehdiyev Mohubbet Geys oglu (the year of birth: 1956) by red car "Jiquli" (public plate-number P 22-58AQ) went to his relative Mammadov Jannat Humbat oglu's wedding party in Abdal-Gulabli village. He didn't come back any more. They were taken hostages because Armenians captured Abdal-Gulabli village that day.

After those events Armenians connected with military unit in Novruzlu village by radio communication and said Alimardanov, Mammadov and Mehdiyev were taken hostages. They wanted to change them for missed Armenian whose name was Ashot. It was impossible to release hostages because Ashot wasn't found. That information was given by Maharram's brother-in-law Huseynov Musa Humbet oglu (he lives in Sumgayit town, 17th microdistrict 63, app. 53).



Əlimov
Sakit
Əlim oğlu

1974-cü ildə Azərbaycan Respublikası Şəki rayonunun Orta Zəyzid kəndində anadan olub. 13 oktyabr 1992-ci ildə Şəki Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Ağdərə rayonu uğrunda döyüşlərə göndərilib. Qurtuluş batalyonunun tərkibində döyüşüb. 2 fevral 1993-cü ildə Ağdərə rayonunun Çıldıran kəndi uğrunda döyüşdə əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Laçın rayonu Katos kənd sakini, hazırda Şəki rayonunun Göybulaq kəndində məskunlaşan İbişov Taleh Mədət oğlu ərizəsində yazıb ki, Yerevan şəhərindəki əsir düşərgəsində Əlimov Sakitlə birlikdə saxlanılıb.

Alimov
Sakit
Alim oglu

Alimov Sakit Alim oglu was born in Orta Ziyad village of Shaki district of Azerbaijan Republic in 1974. On the 13th of October, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shaki district and then he was sent to fight for Aghdara district. He fought allotted to battalion of Rebirth. On the 2nd of February, 1993 during the fight for Childiran village of Aghdara district Sakit was taken prisoner by Armenians.

Ibishov Taleh Madat oglu who returned from Armenian captivity and lived in Katos village of Lachin district wrote a statement that he was kept with Alimov Sakit in camp for prisoners in Yerevan.



Əliyev
Anatoli
Hümbətoviç

1963-cü ildə Bakı şəhərində anadan olub. 1992-ci il iyun ayının 24-də Yasamal Rayon Hərbi Komissarlığı tərəfindən səfərbər edilib. Ağdam uğrunda döyüşlərdə iştirak edib. Əliyev Anatoli 30 iyun 1992-ci ildə Ağdam rayonunun Şelli kəndindəki Qara Qaya postu yaxınlığında əsir götürülüb.

Bacısının axtarışı ilə məşğul olan Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğluna Ermənistan Qırmızı Xaç və Aypara Cəmiyyətinin nümayəndəsi

Aliyev
Anatoli
Humbatovich

Aliyev Anatoli Humbatovich was born in Baku in 1963. On the 24th of June, 1992 he was mobilized by the Military Registration and Enlistment Office of Yasamal district. Aliyev Anatoli took part in fights for Aghdam. On the 30th of June, 1992 during the fight near Gara Gaya point of Shelli village of Aghdam district he was taken prisoner.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district and engaged in sister's search, got a list of

Davidyan Valentinanın Tbilisi şəhərində verdiyi azərbaycanlı əsir və girovların siyahısında Əliyev Anatolinin də adı olub. Məlumata görə, o, Ermənistanın Kirovakan şəhərində, Mxitaryan adlı bir şəxsin evində saxlanılıb.

Azerbaijani prisoners of war and hostages from the representative of Society of Red Cross and Crescent and there was the name of Aliyev Anatoli in the list. According to the information a man whose name was Mkhitaryan kept him in Kirovakan city of Armenia.

Əliyev
Asif
Pənah oğlu

1954-cü ildə Azərbaycan Respublikasının Laçın rayonu Şamkənd kəndində anadan olub. 31 mart 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı qohumları ilə birlikdə avtomobildə həmin ərazini tərk edərkən əsir götürülüb. Sonradan iki qohumu qaytarılıb. Qarşı tərəf onları erməni əsirləri ilə dəyişmək istədikləri üçün saxladıqlarını bəhanə gətirərək qaytarmayıblar. Asif qohumları ilə birlikdə Xankəndi şəhəri yaxınlığındakı Kərkicahan kəndində yerləşən heyvandarlıq fermasında təsərrüfat işlərinə cəlb edilib.

Aliyev
Asif
Panah oglu

Aliyev Asif Panah oglu was born in Shamkand village of Lachin district of Azerbaijan Republic in 1954. On the 31st of March, 1993 during the occupation of Kelbajar district, when Aliyev Asif with several relatives left the same territory by car, they were taken prisoners by Armenians. Later his two relatives were returned. Armenians stopped them apparently to change for Armenian prisoners. Asif with relatives forced for agricultural work at the stock-breeding farm near Khankandi of Upper Garabagh.



Əliyev
Azər
Fərrux oğlu

1970-ci ildə Azərbaycan Respublikasının Bərdə rayonunda anadan olub. 1988-1990-cı illərdə Çexoslavakiya Respublikasında hərbi xidmətdə olub. 1991-ci ilin axırlarında könüllü olaraq cəbhəyə gedib. Ağdam və Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak

Aliyev
Azer
Ferrukh oglu

Aliyev Azer Ferrukh oglu was born in Barda district of Azerbaijan Republic in 1970. He served in Republic of Chehoslavakia in 1988-1990. At the end of 1991 Azer voluntarily went to the front. He took part in fight for Aghdam and Aghdara districts. Then their battalion

edib. Sonradan onun xidmət etdiyi tabor Kəlbəcər rayonuna göndərilib. Əliyev Azər Murovdağ ətrafında gedən döyüşlərdə iştirak edib. 23 yanvar 1994-cü ildə Kəlbəcər rayonunun Buzluq yüksəkliyi uğrunda döyüşdə yaralanaraq əsir götürülüb, işğal olunmuş Xankəndi şəhərində saxlanılıb.

Qardaşı-Əliyev Hikmət Fərrux oğlunun əldə etdiyi məlumata görə, Azər əlləri donmuş vəziyyətdə Xankəndi həbsxanasında 46 nəfər azərbaycanlı əsirlə birlikdə saxlanılıb.

was sent to Kelbajar district. Aliyev Azer took part in fights near Murovdag. On the 23rd of January, 1994 during fight for Buzlug height of Kelbajar district wounded Azer was taken prisoner and kept in Khankandi.

According to the given information of his brother Aliyev Hikmet Azer whose hands were frozen with 46 Azerbaijani prisoners was kept in Khankandi.



Əliyev
Azər
Nağı oğlu

1968-ci ildə Sumqayıt şəhərində anadan olub. 1992-ci ilin iyun ayında Qarabağ uğrunda döyüşlərdə iştirak etmək üçün Sumqayıt şəhər Hərbi Komissarlığına müraciət edib. 27 iyun 1992-cü ildə Ağdam rayonunun Şelli kəndinə göndərilib, Fred Asifin taborunda döyüşüb. 30 iyun 1992-ci il tarixdə Ağdam rayonunun Qaraqaya kəndində gedən döyüşdə əsir götürülüb.

Sumqayıt şəhəri, 45-ci məhəllə, ev 14, mənzil 90-da yaşayan valideynləri Əliyeva Xədicə Səfər qızı və Əliyev Nağı Qədim oğlu ərizələrində döyüş yoldaşlarından Azərin əsir götürülərək Ermənistanın Kirovakan şəhərində saxlandığı barədə öyrəndiklərini göstəriblər.

Baldızı-Gəncə şəhəri, Nizami küçəsi, ev 129 ünvanda yaşayan Sarıyeva Hicran Fərhad qızının dediyinə görə, 1993-cü ilin dekabr ayında milliyyətcə erməni olan Artyom adlı şəxs onlara zəng vurub, sonradan dəstəyi Azərə verib. Telefonda Azərin səsi eşidilib. O, 3 dəfə «Hicran, mənəm, Azərəm, Azər» deyib. Lakin Hicran gözləmədiyi halda onun səsini eşitdiyi üçün özünü itirib, əlaqə kəsilib. Sonradan Azər haqqında heç bir məlumat əldə olunmayıb.

Aliyev
Azer
Nagi oglu

Aliyev Azer Nagi oglu was born in Sumgayit town of Azerbaijan Republic in 1968. In June of 1992 he appealed to the Military Registration and Enlistment Office of Sumgayit town to take part in fights for Garabagh. On the 27th of June, 1992 Azer was sent to Shelli village of Aghdam district and fought in Fred Asif's battalion. On the 30th of June, 1992 during fight in Garagaya village of Aghdam district Aliyev Azer was taken prisoner by Armenians.

His mother Aliyeva Khadija Safar gizi and father Aliyev Nagi Gadim oglu (they live in Sumgayit, 45 quarter, app. 14/90) wrote a statement that Azer was taken prisoner by Armenians. It was shown that he was kept in Kirovokan of Armenia.

According to the words of his sister-in-law Sariyeva Hijran Farhad gizi (she lives in Ganja, Nizami Street, 129), an Armenian Artyom rang her up and passed the phone to Azer in December of 1993. She heard Azer's voice. He told "Hijran, I'm Azer, Azer" for 3 times. But Hijran was very excited because heard his voice. Then the connection was interrupted. There's no information concerning Azer.

Əliyev
Bəhruz
Bədəl oğlu

1963-cü ildə İsmayıllı rayonunun Talıstan kəndində anadan olub. 1994-cü ilin aprel ayında İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 5 may 1994-cü ildə Tərtər rayonu 3 saylı sovxozun ərazisində gedən döyüş zamanı əsir götürülüb.

Qardaşı-Əliyev Pərviz Bədəl oğlu Bəhruzun axtarışı ilə məşğul olan zaman Ağdam rayonu Baş Qərvənd kəndi yaxınlığında Seyran adlı erməni hərbçisi ilə görüşüb. Seyran ona Əliyev Bəhruzun Şuşa şəhər həbsxanasında saxlandığını bildirib və onu azad edəcəyinə söz verib. Lakin nədənsə, 20 sentyabr 1994-cü ilə təyin olunmuş dəyişmə baş tutmayıb.

Aliyev
Bahruz
Bedel oglu

Aliyev Bahruz Bedel oglu was born in Talistan village of Ismayilli district of Azerbaijan Republic in 1963. In April, 1994 he was called up for military service by the Military Registration and Enlistment Office of Ismayilli district. On the 5th of May, 1994 during the fight in the direction of Terter-Aghdara, on the territory of Terter collective farm №3 Bahruz was taken prisoner.

During the search for his brother, Aliyev Perviz Bedel oglu met an Armenian military men whose name was Seyran near the Bash Garvand village of Aghdam district. Seyran said him that Aliyev Bahruz was kept in prison in Shusha of Upper Garabagh and he would release him from the captivity. But on the 20th of September, 1994 appointed change did not realize.



Əliyev
Bəylər
Qiyas oğlu

1962-ci ildə Ermənistan Respublikası Kalinino rayonunun Sarıyel kəndində anadan olub. Məlum hadisələrdən sonra Azərbaycana köçüb.

15 noyabr 1993-cü ildə könüllü olaraq Milli Ordu sıralarına yazılıb. Ağdam rayonunun Cavahirli kəndində yerləşən hərbi hissədə, tağım komandiri vəzifəsində xidmət edib. 13 aprel 1994-cü ildə həmin kənddə gedən döyüş zamanı əsir götürülüb.

Bakı şəhəri, Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən polkovnik Mirzəyevin

Aliyev
Beylar
Giyas oglu

Aliyev Beylar Giyas oglu was born in Sariyel village of Kalinino district of the Republic of Armenia in 1962. After known events he moved into Azerbaijan.

On the 15th of November, 1993 he voluntarily joined the ranks of National Army. Aliyev Beylar served as a commander of troop in military unit in Javahirli village of Aghdam district. On the 13th of April, 1994 during the fight in the same village he was taken prisoner.

According to the given information colo-

verdiyi məlumata görə, 13 aprel 1994-cü ildə 190 saylı hərbi hissənin tabor komandiri Əliyev Bəylər Cavahirli kəndi uğrunda döyüşdə ayağından yaralı vəziyyətdə əsir götürülüb, Dağlıq Qarabağda saxlanılıb.

nel Mirzeyev who worked at the Military Registration and Enlistment Office of Sabunchi district, during the fight for Javahirli village Aliyev Beylar was wounded in leg and taken prisoner by Armenians on the 13th of April, 1994. Wounded Beylar was kept in Upper Garabagh.



Əliyev
Ədalət
Veysəl oğlu

1973-cü ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Çorman kəndində anadan olub. 1991-ci ilin payızından Kəlbəcər özünümüdafiə taborunun tərkibində döyüşüb. 2 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Cəmilli kəndində gedən döyüşdə

Alışov Feyruz Bəyiş oğlu (tabor komandiri), Hümbətov Xalid Əli oğlu (taborun qərargah rəisi), Süleymanov Şahin Ənvər oğlu (tağım komandiri), Mehdiyev Mirzəli Yəhya oğlu (tağım komandiri), Məmmədov Babək Fərman oğlu (rabitəçi), Səlimov Elxan Səlim oğlu (sıravi) ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Kəlbəcər rayonu Çorman kənd sakini, Tərtər rayonunun Şəhriyar qəsəbəsində məskunlaşmış Əliyev Veysəl İslam oğlunun dediyinə görə, oğlunun axtarışı zamanı əsir Mehdiyev Mirzəlinin atası Mehdiyev Yəhya ona oğullarının əsir götürüldüyünü və Dağlıq Qarabağın Şuşa şəhərində saxlandıqlarını bildirib.

Aliyev
Adalat
Veysel oglu

Aliyev Adalat Veysel oglu was born in Chorman village of Kelbajar district of Azerbaijan Respublic in 1973. He fought allotted to Kelbajar self-defense battalion from autumn of 1991. On the 2nd of February, 1994 during the fight in Jamilli village of Kelbajar district Aliyev Adalat, Alishov Feyruz Beyish oglu (the chief of staff of battalion), Suleymanov Shahin Anvar oglu (the commander of troop), Mehdiyev Mirzali Yahya oglu (the commander of troop)m Mammadov Babek Faramn oglu (signaler), Salimov Elkhan Salim oglu (common) were taken prisoners by Armenians.

According to the words of his father Aliyev Veysel Islam oglu who lived in Chorman village of Kelbajar district (he lives in Shahriyar settlement of Terter district), while searching for his son the father of prisoner of war Mehtiyev Mirzali Yahya oglu – Mehtiyev Yahya informed that their sons were taken prisoners and kept in Shusha town of Upper Garabagh.

Əliyev
Ələsgər
Rəsul oğlu

1965-ci ildə Azərbaycan Respublikası Zərdab rayonunun Körpükənd kəndində anadan olub. 1992-ci ildə Zərdab Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Ağdam rayonunun Zəngişal kəndində yerləşən taborda gizir kimi xidmət edib. 16 iyun 1992-ci ildə Sırxavənd kəndində gedən döyüşdə mühasirəyə düşərək əsir götürülüb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, hazırda Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu izahatında yazıb ki, 1992-ci ildə qarşı tərəfin nümayəndəsi Edikdən aldığı məlumata görə, Əliyev Ələsgər əsir götürülərək Ermənistanın Leninakan şəhərinə aparılıb, orada inşaat işlərinə cəlb edilib.

Aliyev
Alesgar
Rasul oglu

Aliyev Alesgar Rasul oglu was born in Korpukand village of Zardab district of Azerbaijan Republic in 1965. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Zardab district. Alesgar served as ensign in battalion in Zengishal village of Aghdam district. On the 16th of June, 1992 during the fight in Sirkhavand village he was surrounded and taken prisoner.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district) wrote a statement in 1992 an Armenian Edik said that Aliyev Alesgar was taken prisoner, sent to Leninakan city of Armenia and forced for constructive work.



Əliyev
Həsən
Əkbər oblu

1968-ci ildə anadan olub. 3 dekabr 1992-ci ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən səfərbər edilib. Qubadlı rayonu uğrunda döyüşlərdə iştirak edib. 5 yanvar 1993-cü ildə Laçın rayonuna göndərilib, orada Gülebird taborunun tərkibində döyüşüb. 17 avqust 1993-cü ildə Laçın rayonunun Yuxarı Fərəcan kəndi uğrunda döyüşdə itkin düşüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndin-

Aliyev
Hasan
Akbar oglu

Aliyev Hasan Akbar oglu was born in 1968. On the 3rd of December, 1992, he was mobilized by the Military Registration and Enlistment Office of Khatai district. Hasan took part in fights for Gubadli district. On the 5th of January, 1993 he was sent to Lachin and fought allotted to Gulebird battalion. On the 17th of August, 1993 during the fight for Yuhari Farajan village of Lachin district Aliev Hasan was missed.

də məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu yazdığı ərizəsində göstərib ki, o, erməni dilini bildiyi üçün bir müddət əsir və girovların dəyişdirilməsi ilə məşğul olub. Aparılan radiodanışıqlar zamanı qarşı tərəfin nümayəndəsi Edik Əliyev Həsən Əkbər oğlunun sağ olduğunu və Dağlıq Qarabağ ərazisində saxlandığını söyləyib.

İtkin düşmüş oğlunun axtarışı ilə məşğul olan Sadıqov Ağakişi Ərəstun oğlu Bakı şəhəri, Neapol küçəsi 11, mənzil 106-da yaşayan, oğlunun döyüş yoldaşı Kuroçkin Gennadi Vladimiroviçlə görüşüb. Kuroçkindən oğlu Faiqin Əliyev Həsənlə birlikdə döyüş zamanı ermənilər tərəfindən əsir götürüldüyünü öyrənib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin təqdim etdiyi itkin düşmüş Azərbaycan vətəndaşlarının siyahısında Əliyev Həsən Əkbər oğlunun Dağlıq Qarabağda saxlandığı göstərilib.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) wrote a statement that he knew Armenian language and that was why he was engaged in the work of change of prisoners and hostages for a time. An Armenian whose name was Edik informed by radio communication that Aliyev Hasan Akbar oglu was alive and kept on the territory of Upper Garabagh.

During the search for his missed son Sadigov Agakishi Arastun oglu (he lives in Baku, Neapol Street 11, app.106) met his son's front-line comrade Kurochkin Genadiy Vladimirovich and found out that his son Faig and Hasan Aliyev were taken prisoners by Armenians at the fight.

According to a list of missing Azerbaijani people represented by Azerbaijan National Committee of Helsinki Citizen Assembly, Aliyev Hasan Akbar oglu was kept in Upper Garabagh on the 15th of February, 2000.



Əliyev
İlqar
Səftər oğlu

1962-ci ildə Azərbaycan Respublikasının Siyəzən şəhərində anadan olub. 1993-cü ilin mart ayında Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən ehtiyatda olan zabit kimi səfərbər edilib. Motoatıcı tabourun taqım komandiri Əliyev İlqar Kəlbəcər uğrunda döyüşlərdə iştirak edib. 1 aprel 1993-cü ildə Kəlbəcər rayonunun Bağırlı kəndi istiqamətində gedən döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Qardaşı - Əliyev İlham Səftər oğlu yazdığı ərizəsində göstərib ki, yaxın qohumlarından biri Sank-Peterburqda Qarik adlı erməni vasitəsi ilə İlqarın yaralı vəziyyətdə əsir

Aliyev
Ilgar
Saftar oglu

Aliyev Ilgar Saftar oglu was born in Siyazan town of Azerbaijan Republic in 1962. In March of 1993 he was mobilized as an officer in reserve by the Military Registration and Enlistment Office of Davachi district. The commander of moto-shooting battalion Aliyev Ilgar took part in fights for Kelbajar district. On the 1st of April, 1993 during the fight in direction of Bagirli village of Kelbajar district wounded Ilgar was taken prisoner.

His brother Aliyev Ilham wrote a statement that one of close relative found out from an Armenian Garik in Sankt-Peterburg that

götürüldüyünü, Erebuni qospitalında müalicə olunduqdan sonra Yerevan şəhərinə aparıldığını öyrənib.

wounded Ilgar was taken prisoner, sent to Erebuni hospital for treatment and then taken to Yerevan city.



Əliyev
Kamil
Sabir oğlu

1969-cu ildə Azərbaycan Respublikasının Ağdam şəhərində anadan olub. 23 iyul 1993-cü ildə Ağdam rayonu ermənilər tərəfindən işğal olunan gün qohumları İsmayılov Niyazi Şirin oğlu və İsmayılov Vaqif Eldar oğlu ilə birlikdə idarə etdiyi «QAZ-24» markalı 96-89 AQD dövlət nömrə nişanlı avtomaşında ermənilər tərəfindən girov götürülüb.

Qardaşı-Ağdam rayon sakini, Bakı şəhərinin Xətai rayonunda məskunlaşmış Əliyev Tofiq Sabir oğlunun verdiyi məlumata görə, Ağdam Rayon Polis Şöbəsində işlədiyi zaman ermənilər dəfələrlə ona radiodanışıqlar vasitəsilə Kamilin girov götürüldüyünü bildiriblər.

Ağdam rayon sakini, Bərdə rayonunda yerləşən 5 saylı məktəbdə məskunlaşmış Qayıbov Adil Paşa oğlunun dediyinə görə, 23 iyul 1993-cü ildə qohumları Niyazi və Vaqiflə birlikdə Kamilin idarə etdiyi avtomobilə oturan zaman 8 saylı məktəbin yanında mühasirəyə alınaraq atəşə tutulublar. Həmin vaxt Adil maşından düşərək qaçıb, qohumlarının ermənilər tərəfindən girov götürüldüyünü görüb.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndində əsir dəyişdiyi zaman qarşı tərəfin nümayəndəsi Arşavir adlı şəxs ona Əliyev Kamilin və qohumlarının sağ olduqlarını və Şuşa şəhərində saxlandıqlarını bildirib.

Aliyev
Kamil
Sabir oglu

Aliyev Kamil Sabir oglu was born in Aghdam town of Azerbaijan Republic in 1969. On the 23rd of July, 1993 during occupation of Aghdam district by Armenians Ismayilov Niyazi Shirin oglu and Ismayilov Vagif Eldar oglu with Kamil who drove the car «QAZ-24» (public plate number 96-89 AQD) were taken prisoners by Armenians.

According to the information of his brother Aliyev Tofig Sabir oglu who lived in Aghdam district (now he lives in Baku, Khatai district), when he worked at Police Department of Aghdam district Armenians informed by radio communication that Kamil was taken hostage.

According to the words of Gayibov Adil Pasha oglu who lived in Aghdam (at present he lives in school № 5 in Barda district), on the 23rd of July, 1993 he with relatives Niyazi and Vagif got on the car and Armenians surrounded and fired upon them near school № 8. At that time Adil got out from the car, ran away but his relatives were taken hostages by Armenians.

Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Khojavand district) wrote a statement that during the change of prisoners in Garvand village of Aghdam district, the representative of Armenian side whose name was Arshavir said Aliyev Kamil and his relatives were alive and kept in Shusha in 1994.

Əliyev Maarif Əli oğlu

1947-ci ildə Azərbaycan Respublikası Yevlax rayonunun Aşağı Qarxun kəndində anadan olub. Yevlax rayonunda yerləşən Yunun İlkin Emalı fabrikində işləyib. 21 sentyabr 1991-ci ildə şəxsi VAZ-2106 markalı J 86-94 AQ dövlət nömrə nişanlı, ağ rəngli «Jiquli» avtomobilində evdən çıxaraq işə gedib və bir daha geri qayıtmayıb.

Atası - Əliyev Əli Alı oğlunun verdiyi məlumata görə, 21 sentyabr 1991-ci ildə Maarif 2 nəfər naməlum şəxslə birlikdə şəxsi avtomobilində Ağdam istiqamətinə gedib. 18 avqust 1992-ci ildə Qazax rayonunun Kəmərli kəndi ilə Ermənistanın Noyemberyan rayonu sərhədində keçirilmiş görüş zamanı Ermənistan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Aleksandr Sarumyan Əliyev Maarifin girov götürüldüyünü və həmin rayonda saxlandığını bildirib.

Qazax rayonu Kəmərli kənd sakini Orucov İbrahim Əjdər oğlunun məlumatında deyilib ki, 1992-ci ildə Qazax rayonunun Kəmərli kəndi ilə Ermənistanın Noyemberyan rayonunun Dovex kəndi sərhədində kənd təsərrüfatı işlərinin aparılması ilə əlaqədar keçirilən görüşdə Ermənistan Respublikasının Dövlət Təhlükəsizlik Komitəsi Noyemberyan rayon şöbəsinin rəisi Aleksandr Sarumyan Yevlax rayon sakini Əliyev Maarifin Ermənistanda girov saxlandığını söyləyib.

Aliyev Maarif Ali oglu

Aliyev Maarif Ali oglu was born in Ashagi Garkhun village of Yevlakh district in 1947. He worked at Yunun Ilkin Emali factory in Yevlakh district. On the 21st of September, 1991, Maarif went to work by a white private car «Jiguli» (public number-plate J 86-94 AQ) and didn't return any more.

According to his father's information Aliyev Ali Ali oglu, Maarif with 2 unknown persons went by the private car went in the direction of Aghdam district on the 21st of September, 1991. On the 18th of August, 1992 during the meeting on the border of Kamarli village of Gazakh district with Noyemberyan district of Armenia, the head of department of Noyemberyan district of Armenian Committee of State Security Alexander Sarumyan informed that Aliyev Maarif was taken prisoner and kept in the same district.

According to the information of Orujov Ibrahim Ajdar oglu who lived in Kamarli village of Gazakh district of Azerbaijan Republic, during the meeting regarding agricultural work on the border of Kamarli village of Gazakh district with Dovekh village of Noyemberyan district of Armenia, the head of Noyemberyan district department of Armenian Committee of State Security Alexander Sarumyan said that Aliyev Maarif was taken hostage in 1992.



Əliyev Mədət Allahverdi oğlu

1966-cı ildə Azərbaycan Respublikası Ağdam rayonunun Tağıbəyli kəndində anadan olub. Ağdam rayonundakı Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında çavuş qismində xidmət edən Əliyev Mədət yaşadığı ərazinin müdafiəsinin təşkilatçılarından idi. 12 iyun 1993-cü ildə Ağdam rayonunun Çinli kəndində gedən döyüşdə yaralı Ağayev Həsənalı Kommunist oğlunu xilas edərkən əsir götürülüb. Ağdərə rayonunun Vəng kəndində şəxsi evdə saxlanılıb. Qarşı tərəf onun dəyişdirilməsi üçün itkin düşmüş Albert adlı ermənini tələb edib. Erməni tapılmadığı üçün dəyişmə baş tutmayıb.

Bu məlumatı Mədətin həyat yoldaşı, hazırda Bərdə rayonu Körpüqıran kəndində məskunlaşmış Muğanlı kənd məktəbinin müəllimi Əsədova Aidə Xanoğlan qızına Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu verib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu bu faktı təsdiq edib.

Aliyev Madat Allahverdi oglu

Aliyev Madat Allahverdi oglu was born in Tagibeyli village of Aghdam district of Azerbaijan Republic in 1966. Aliyev Madat was a sergeant in special regiment of Aghdam Police and organized the defense of territory where he lived. On the 12th of June, 1993 during the fight in Chinli village of Aghdam district he helped his wounded front-line comrade whose name was Agayev Hasanali Kommunist oglu and he was taken prisoner. He was kept in a private house in Vank village of Aghdara district. Armenian side demanded to change him for missed Albert. The change didn't realize because Armenian wasn't found.

That information was given by his wife, a school teacher in Muganli district Asadova Aida Khanoglan gizi who lived in Korpugiran village of Barda district from Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district).

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives in Allahyarli village of Beylagan district) confirmed that fact.

Əliyev
Mehdi
Yeliş oğlu

1969-cu ildə Azərbaycan Respublikası Ağdam rayonunun Bağbanlar kəndində anadan olub. Əliyev Mehdi 3 iyul 1993-cü ildə Ağdam rayonunun Bağbanlar kəndi ermənilər tərəfindən işğal olunan zaman nənəsi-Əliyeva Töhfə Heydər qızı (1892) və qardaşı-Əliyev Xaqani Yeliş oğlu (1954) ilə girov götürülüb.

Erməni əsirliyindən qayıtmış Ağdam rayonu Bağbanlar kənd sakini, hazırda Bərdə şəhərində məskunlaşmış Şahməmmədov Zəfər Xasay oğlu izahatında yazıb ki, 1993-cü ilin avqust-sentyabr aylarında Xocavənd və Xankəndi şəhərlərində əsir saxlanılıb. Xankəndi uşaq xəstəxanasında həmkəndliləri Əliyeva Töhfə Heydər qızı və onun 2 nəvəsi Əliyev Mehdi və Əliyev Xaqani ilə rastlaşıb.

Aliyev
Mehdi
Yelish oglu

Aliyev Mehdi Yelish oglu was born in Bagbanlar village of Aghdam district of Azerbaijan Republic in 1969. On the 3rd of July, 1993 during the occupation Bagbanlar village of Aghdam district by Armenians, Aliyev Mehdi with his grandmother Aliyeva Tohfa Heydar gizi (year of birth: 1892) and brother Aliyev Khagani Yelish oglu (year of birth: 1954) was taken hostage.

According to a statement of returned from Armenian captivity Shahmammadov Jafar Hasay oglu who lived in Bagbanlar village of Aghdam district (now he lives in Barda), he was kept as a prisoner in Khojavand and Khankandi in August-September of 1993. When Jafar was kept in Khankandi children hospital he met his villagers: Aliyeva Tohfa Heydar gizi and her 2 grandsons Aliyev Mehdi and Aliyev Khagani.



Əliyev
Mehman
Həşim oğlu

1973-cü ildə anadan olub. 1992-ci ilin sentyabr ayında Daxili Qoşunların tərkibində xidmət etdiyi vaxt Ağdərə istiqamətinə göndərilib. 10 oktyabr 1992-ci ildə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Sumqayıt şəhəri, 10-cu mikrorayon, ev 21, mənzil 66-da yaşayan Əliyev Camal Həşim oğlunun verdiyi məlumata görə, Çıldıran kəndi uğrunda döyüşdə Əliyev Mehman da daxil olmaqla 140 əsgər ermənilər tərəfindən mühasirəyə düşərək əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış, Bakı şəhəri, Xətai rayonunda yaşayan Əliyev Bəhram Rəhim oğlunun verdiyi məlumata görə, Əliyev Mehmanla bir müddət Ermənistanın Yerevan şəhərində həbsxanada saxlanılıb. Sonradan ermənilər onu harasa başqa bir yerə aparıblar.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini, erməni girovluğunda olan Hüseynova Tamara Saleh qızının qardaşı Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində erməni Qaqiklə görüşü zamanı ondan aldığı azərbaycanlı əsir və girovların siyahısında Əliyev Mehman Həşim oğlunun da adı olub. Ermənilər Mehmanı əvvəlcə Dağlıq Qarabağda saxlayıb, sonra isə Yerevan şəhərinə göndəriblər.

Aliyev
Mehman
Hashim oglu

Aliyev Mehman Hashim oglu was born in 1973. In September of 1992 he was sent to fight for Aghdara allotted to Internal Forces. On the 10th of October, 1992, Mehman was taken prisoner by Armenians.

According to the information of his brother Aliyev Jamal Hashim oglu (now he lives in Sumqayit, 10th microdistrict app.21/66) during the fight for Childiran 140 soldiers including Aliyev Mehman were surrounded and taken prisoners by Armenians.

According to the information of returned from Armenian captivity Aliyev Bahram Rahim oglu (now he lives in Baku, Khatai district), he was kept in Yerevan prison for a time with Mehman but then Mehman was taken somewhere to another place.

The brother of prisoner Huseynova Tamara - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian whose name was Gagik in Tbilisi, and saw the name of Aliyev Mehman in that list. At first Armenians kept Mehman in Upper Garabagh, later they sent him to Yerevan.



Əliyev
Məstalı
İxtiyar oğlu

1975-ci ildə Azərbaycan Respublikasının Zəngilan şəhərində anadan olub. 1993-cü ildə Zəngilan Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə cağırılıb. 30 yanvar 1994-cü ildə Ağdərə rayonunun Gödəkburun kəndi uğrunda döyüşdə itkin düşüb.

Atası–Bakı şəhəri, Ağa Nemətulla küçəsi 69-da məskunlaşmış Zəngilan sakini Əliyev İxtiyar Fərrux oğlunun, Kərimov Rasimin atası-Nərimanov rayonu Habil Mirzəyev küçəsi, dalan 3, ev 12-də yaşayan Kərimov Qəzənfər Şirməmməd oğlunun, Nəzərov Qəhrəmanın atası-Sumqayıt şəhəri, Corat qəsəbəsi, ev 413-də yaşayan Nəzərov Tarverdi Əhliman oğlunun verdiyi mə-

Aliyev
Mastali
Ikhtiyar oglu

Aliyev Mastali Ikhtiyar oglu was born in Zangilan town of Azerbaijan Republic in 1975. In 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Zangilan district. On the 30th of January, 1994 during the fight for Godakburun village of Aghdara district Mastali was missed.

According to the information Mastali's father - Aliyev Ihtiyar Farrukh oglu who lived in Zangilan (now he lives in Baku, Aga Nematulla Street, 69), the father of prisoner of war Karimov Rasim Gazanfar oglu - Karimov Gazanfar Shirmammad oglu (he lives in Narimanov district, Habil Mirzeyev 3 app. 12) and the father of prisoner Nazarov Tariverdi Ahliman oglu - Nazarov Gahraman

lumata görə, Xocavənd rayonu Qaradağlı kənd sakini, hazırda Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlunun erməni polisinin əməkdaşı Abodan alıb onlara verdiyi siyahıda oğlanlarının Dağlıq Qarabağda saxlandığı göstərilib. Qarşı tərəf valideynlərdən övladlarını azad etmək üçün onların sayı qədər erməni əsiri tələb ediblər. Ermənilərin tələbləri yerinə yetirilmədiyi üçün dəyişmə baş tutmayıb. Eyni döyüşdə əsir götürülmüş döyüşçülərin sonrakı taleyi məlum olmayıb.

Tariverdi oglu (he lives in Sumgayit, Jorat Settlement, app. 413), Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) got a list of prisoners of war and hostages from Armenian policeman Abo. There were the names of their sons in that list and it was shown that they were kept in Upper Garabagh. The opposite side demanded from the parents to change their children for Armenian prisoners. The change didn't realize because they couldn't carry out Armenians' demands. The lives of prisoners who were taken at the same fight were unknown.

Əliyev Nadir Əli oğlu

1943-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Qarabəyli kəndində anadan olub. 31 mart 1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan gün «KamAZ» markalı avtomaşında yaxın qohumları ilə ərazini tərk edərkən qarşı tərəfdən güllələboran edilərək, əvvəldən hazırlanmış mühasirəyə düşüb və girov götürülüb. Əliyev Nadir yaralı olduğu üçün ermənilər onu Xankəndindəki uşaq xəstəxanasında saxlayıblar.

Bu məlumatı oğlu-Laçın rayonu Qarabəyli kənd sakini, Bakı şəhərində yerləşən Kooperativ Texnikumunun 1 saylı yataqxanasında məskunlaşmış Əliyev Müşfiq Nadir oğlu verib.

Aliyev Nadir Ali oglu

Aliyev Nadir Ali oglu was born in Garabeyli village of Lachin district of Azerbaijan Republic in 1943. On the 31st of March, 1993 during the day of Kelbajar's occupation Nadir with close realtives by a car "KamAZ" left the territory. When they ran Armenians opened the fire. They were in surrounding of Armenians and then they were taken hostages. Aliyev Nadir was wounded and that's why Armenians kept him in Khankandi children hospital.

That information was given by his son Aliyev Mushvig Nadir oglu who lived in Garabeyli village of Lachin district (he lives in the hostel N 1 of Cooperative Technical Secondary school in Baku).

Əliyev Nəsrəddin Yunis oğlu

1951-ci ildə Azərbaycan Respublikasının Goranboy şəhərində anadan olub. Goranboy Rayon Polis Şöbəsində xidmət edib. Polis əməkdaşları ilə birlikdə Qarabağın müdafiəsinə göndərilib. 14 sentyabr 1991-ci ildə Goranboy rayonunun Buzluq kəndi uğrunda döyüş zamanı itkin düşüb.

Atası Goranboy şəhəri, Əliyev küçəsi, ev 6-da yaşayan Əliyev Yunis Bəhram oğlunun verdiyi məlumata görə, əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Seyid adlı şəxs ona oğlunun sağ olduğunu, Yerevanda yerləşən şüşə zavodunda fiziki işə cəlb edildiyini bildirib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, hazırda Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlu qarşı tərəfin nümayəndələrindən radioəlaqə vasitəsilə Əliyev Nəsrəddinin sağ olduğunu, Yerevan şəhərində yerləşən şüşə zavodunda işlədildiyini öyrəndiyini yazıb. Erməni tərəfi Buzluq istiqamətində əsir götürülmüş Nəsrəddin və onun polis yoldaşları-Mövsüm və Rizvanı yalnız Həsən qaya deyilən ərazidə itkin düşmüş ermənilərlə dəyişəcəklərini bildirib. Danışıqlar zamanı qarşı tərəfi təmsil edən polkovnik B.Yeseyan əsir götürülmüş polis işçilərinin üçünün də Yerevan şəhərinin təhlükəsizlik idarəsində saxlandığını deyib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni Qaqikdən (Yerevan tel:63-60-70) aldığı hərbi əsir və girovların siyahısında Əliyev Nəsrəddinin də adı olub. Onun ermənilər tərəfindən əsir götürüldüyü və Yerevan şəhərində yerləşən şüşə zavodunda işlədildiyi göstərilib.

Aliyev Nasraddin Yunis oglu

Aliyev Nasraddin Yunis oglu was born in Goranboy town in 1951. He served at Police Department of Goranboy district. Nasraddin with policemen was sent to fight for Garabagh. On the 14th of September, 1991 during the fight for Buzlug village of Goranboy district he was missed.

According to the information of his father Aliyev Yunis Bahram oglu (now he lives in Goranboy, Aliyev Street, 6), a man whose name was Seyid who engaged in change of prisoners and hostages said that his son was alive and forced for heavy labor at glass plant.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district) wrote a statement and showed that Aliyev Nasraddin was alive and worked at glass plant in Yerevan. At the same time Armenians could change Nasraddin who was taken prisoner in direction of Buzlug and his police friends: Movsum and Rizvan for only missed Armenians at the fight on the territory called Hasan Gaya. During talks the representative of Armenian side colonel B.Yesayan said that three of policemen were kept in Yerevan Security Department.

The brother of prisoner Huseynova Tamara Saleh gizi - Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian whose name was Gagik in Tbilisi and saw the name of Ahmedov Ahmed in that list. It was shown that he was taken prisoner by Armenians and worked at glass plant situated in Yerevan.



Əliyev
Niyaz
Fərrux oğlu

1973-cü ildə anadan olub. 1990-cı il iyun ayının 30-da Sumqayıt Şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 1993-cü ilin avqust ayına kimi Laçın, Qubadlı və Zəngilan ərazilərində gedən döyüşlərdə iştirak edib.

23 avqust 1993-cü ildə Cəbrayıl rayonu ermənilər tərəfindən işğal olunan gün Zəngilan taborunun tərkibində həmin ərazinin müdafiəsi zamanı əsir götürülüb.

Anası-Sumqayıt şəhəri, 7-8-12-ci məhəllə, ev 80, mənzil 12-də yaşayan Mustafayeva Fatma Elyaz qızının verdiyi məlumata görə, oğlunun döyüş yoldaşları Niyazın 23 avqust 1993-cü ildə Cəbrayıl rayonunda gedən döyüş zamanı sağ ayağının dizindən yaralandığını, geri dönərkən onu yaralı vəziyyətdə qoyduqları yerdə görə bilmədiklərini deyiblər.

1996-cı ilin may ayında Mustafayeva Fatma erməni əsirliyindən qayıtmış keçmiş döyüşçülərlə görüşüb, onlara oğlunun şəklini göstərib. Ağstafa rayon Poylu kənd sakini Məmmədov Bəxtiyar Volodya oğlu Niyazın şəklini gördükdə tanıyıb, onun 1993-cü ilin sentyabr ayında işğal olunmuş Xankəndi şəhərində, vilayət partiya komitəsinin qarajında saxlanılan 4 azərbaycanlı əsirdən biri olduğunu deyib.

Qazax Rayon İcra Hakimiyyətinin Kəmərli kəndi üzrə nümayəndəsi işləmiş Məmmədov Ələddin Mahmud oğlunun 6 iyun 1999-cu ildə verdiyi məlumata görə, Qazax rayonu ilə Ermənistanın Noyemberyan rayonunun sərhədində kənd təsərrüfatı işlərinin aparılması zamanı əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları Aleksandr Sarumyan və Vladimir Ayrapetyanla keçirilmiş görüşlərdə qarşı tərəfdən alınan azərbaycanlı əsir və girovların siyahısında Əliyev Niyazinin də adı olub və onun Xankəndi şəhərində saxlandığı göstərilib.

Aliyev
Niyaz
Farrukh oglu

Aliyev Niyaz Farrukh oglu was born in 1973. On the 30th of June, 1990 he was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town. In August of 1993 Niyaz took part in fights for the territory of Lachin, Gubadli and Zangilan.

On the 23rd August, 1993 during the day of Jabrayil's occupation Niyaz who allotted to Zangilan battalion was taken prisoner.

According to the information of his mother Mustafayeva Fatma Elyaz gizi (she lives in Sumgayit town, 7-8-12 quarter, app.80/12) her son's front-line comrades said that on the 23rd of August, 1993, he was wounded in knee of right leg at the fight for Jabrayil district and when they returned they couldn't find wounded Niyaz at the same place.

In May of 1996 Mustafayeva Fatma who returned from Armenian captivity met former fighters and showed them the picture of her son. Mammadov Bakhtiyar Volodya oglu who was originally from Poylu village of Agstafa district saw her son's picture and recognized him. He also said that Aliyev Niyaz was one of 4 Azerbaijani prisoners who were taken to the garage of regional committee of Khankandi in September, 1993.

According to the information (from the 6th of June, 1999) of former representative of Executive Power of Kamarli village of Gazakh district Mammadov Aladdin Mahmud oglu, during the meeting regarding agricultural work on the boundary with Gazakh and Noyemberyan district of Armenia which was held in order to provide security for local inhabitants, the officials of Armenian Secret Intelligence Service Alexander Sarumyan and Vladimir Ayropetyan gave him a list of Azerbaijani prisoners and hostages. There was the name of Aliyev Niyaz in the list. It was shown that he was kept in Khankandi.



Əliyev
Piri
Dilavər oğlu

1935-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Sarıcallı kəndində anadan olub. 23 oktyabr 1993-cü ildə ermənilər kəndi işğal edən zaman həmkəndliləri-Qüdrət, Etibar və hazırda Zığ şosesi, Cavanşir küçəsi 36-da, H.Z.Tağıyev adına toxuculuq kombinatının yataqxanasında məskunlaşmış Əhmədov Qaçay Tofiq oğlu ilə həyətdə oturub söhbət edirmişlər. Ermənilərin kəndə girdiklərini görən dinc əhali qaçmağa başlayıb. Bu zaman Əliyev Piri həmsöhbətlərinə evə girib pasportunu və pencəyini götürmək istədiyini bildirib. Onu fikrindən daşındıra bilməyən həmkəndliləri ermənilərin yaxınlaşdığını görüb qaçıblar və bir daha Pirini görməyiblər.

Bu məlumatı həmin vaxt onunla birlikdə olmuş, hazırda məcburi köçkün Əhmədov Qaçay Tofiq oğlu verib.

Oğlu-Bakı şəhəri, Yeni Yasamal 2, ev 10, mənzil 4-də məskunlaşmış, məcburi köçkün Əliyev Əlabbas Piri oğlu və qızı Sabirabad rayonunda yerləşən 1 saylı çadır şəhərciyində yaşayan Qasımova Tərənə atalarının axtarışı ilə məşğul olan zaman həmin faktı 23 oktyabr 1993-cü ildə kənddən çıxan sakinlərdən öyrəndiklərini bildiriblər. Ermənilər Əliyev Pirini girov götürüb Dağlıq Qarabağda saxlayıblar.

Aliyev
Piri
Dilavar oglu

Aliyev Piri Dilavar oglu was born in Sarijalli village of Jabrayil district of Azerbaijan Republic in 1935. On the 23rd of October, 1993 during the occupation of their village Piri with villagers: Gudrat, Etibar and Ahmadov Gachay Tofig oglu (now he lives in hostel of weaving mill named after Tagiyev in Zig Highway, Javanshir Street, 36) sat at the yard and talked. The peaceful inhabitants saw Armenians' coming and began to run away. At that moment Aliyev Piri said to companions that he wanted to go home, take passport and coat. They couldn't make him change his mind. When they saw Armenians they ran away and nobody saw Piri again.

That information was given by forced settler Ahmadov Gachay Tofig oglu who was with him at that time.

The same information was confirmed by his son, forced settler Aliyev Alabbas Piri oglu (he lives in Baku, Yeni Yasamal 2, app.10/4) and daughter Gasimova Tarana (she lives in camp city № 1 in Sabirabad district). Armenians took Aliyev Piri as a prisoner and kept in Upper Garabagh.



Əliyev
Qiyas
Adil oğlu

1937-ci ildə Azərbaycan Respublikasının Ağdam rayonunda anadan olub. 23 iyun 1993-cü ildə ermənilərin Ağdama hücumu zamanı ailə üzvlərini Qərvənd kəndinə yola salıb, özü isə 4 qonşusu ilə birlikdə «Qaz-24» markalı avtomaşına oturub. Onları bir daha görən olmayıb.

Sabiq tabor komandiri, Bakı şəhəri, Zığ şosesi, ev 49, mənzil 6-da yaşayan Cəbrayılov Xaqani Sərdar oğlu izahatında yazıb ki, Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində gedən, onun rəhbərlik etdiyi döyüşdə 36 nəfər əsir götürülüb. 1993-cü il yanvar ayının 1-də ermənilər əlaqə yaradaraq əsir götürdükləri əsgərlərdən 13 nəfərin, o cümlədən, Hadıyev Vidadinin də adı olan siyahını onlara veriblər.

Hərbi əsir Osmanov Əkrəm Məmmədşah oğlunun qardaşı-İsmayıllı rayonu Yuxarıbaş kənd sakini Osmanov Vaqif Məmmədşah oğlunun verdiyi məlumata görə, ermənilərin azərbaycanlı hərbçilərlə apardıqları radiodanışıqlarda atası və qardaşı ilə birlikdə o da iştirak edib. Qarşı tərəf əsir götürdüyü və Ermənistanın Gorus rayonunda saxladığı 13 azərbaycanlı hərbçinin hər biri üçün 10 ton benzin tələb edib. Ermənilərin tələbi yerinə yetirilməyib. Əsirlərin sonrakı taleyi məlum deyil.

ing the fighr for Zangilan district the battalion of 13 soldiers was taken prisoner and sent to Gorus of Armenia.

Former commander Jabrayilov Khagani Sardar oglu (he lives in Baku, Zig highway, 49, app.6) wrote statement during the fight under his command 36 men were taken prisoners in Hayarak village of Zangilan district. On the 1st of January, 1993 Armenians connected and gave them a list of 13 prisoners including Hadiyev Vidadi.

The brother of prisoner of war Osmanov Akram Mammadshah oglu – Osmanov Vagif Mammadshah oglu who lived in Yukharibash village of Ismayilli district informed that Armenians connected with Azerbaijani military men, his father and brother took part in radio communication. They demanded 10 of petrol for every 13 Azerbaijani military men kept by Armenians as prisoners in Gorus district of Armenia. There was no information concerning Hadiyev Vidadi.



Haqverdiyev
Şahin
Məşdi oğlu

1958-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri ermənilər tərəfindən işğal olunan gün qardaşı Cavanşir və onun həyat yoldaşı ilə birlikdə əhaliyə qoşularaq meşəyə üz tutublar. 2 gün qarlı meşədə ac-susuz yol gediblər. Birdən ermənilər onların qarşısına çıxıb. Bu zaman Şahin özünü xəndəyə atıb, qarşı tərəfdən ona bir neçə atəş açılıb. Yaxınları isə gizlənə biliblər. Ara sakitləşən-

Hagverdiyev
Shahin
Mashdi oglu

Hagverdiyev Shahin Mashdi oglu was born in Khojali town of Azerbaijan Republic in 1958. On the 26th of February, 1992 during the day of Khojali occupation Shahin with his brother Javanshir and his wife joined and ran to the forest. They have been stayed without food and water for 2 days. Suddenly Armenians came up to them. At that moment Shahin threw into trench and Armenians opened the fire. His close rel-

dən sonra qardaşıgil Şahindən ayrıldıqları ərazini nə qədər axtarsalar da Şahini tapmaq mümkün olmayıb.

ative could hide. When it became quite, his brother and others couldn't find Shahin.



Harunov
Elşad
Əlibaba oğlu

1969-cu ildə Azərbaycan Respublikası Quba rayonunun Hacıqayıb kəndində anadan olub. 5 fevral 1993-cü ildə könüllü olaraq Milli Orduya yazılıb. Ağdərə ərazisində döyüşüb. 1993-cü ilin mart ayında Ağdərə rayonu uğrunda döyüşdə itkin düşüb.

Bu məlumatı onun atası-Quba rayonu Hacıqayıb kənd sakini Harunov Əlibaba Xanbala oğlu verib.

Quba Rayon Polis Şöbəsinin rəisi polis mayoru K. Mollayev 28 iyun 1994-cü ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətində Harunov Elşadın Ağdərə rayonundakı alayda xidmət etdiyi, 1993-cü il dekabr ayında onların evinə Talıbov Firayıl Bəhram oğlu adlı bir nəfərin gəlib, erməni əsirliyində Elşadla Şuşanın Qaladərəsi adlı yerində saxlandığını söylədiyi haqda məlumat verib.

Harunov
Elshad
Alibaba oglu

Harunov Elshad AliBaba oglu was born in Khajigayib village of Guba district of Azerbaijan Republic in 1969. On the 5th of February, 1993 he voluntarily joined the army to take part in fights for Garabagh. Elshad fought on the territory of Aghdam.

His father Harunov Alibaba Khanbala oglu who lived in Khajigayib village of Guba district gave that information.

In appeal of Ministry of Defense from the 25th of June, 1994, Head of Guba Police Department police major K.Mollayev informed that Harunov Elshad served at regiment in Aghdara district, a man whose name was Talibov Firayil Bahram oglu came to their house and said that Elshad was in Armenian captivity and kept in place called Galadarasi in Shusha in Decemeber, 1993.



Hacıbabəbəyov
Tofiq
Arif oğlu

1959-cu ildə Azərbaycan Respublikası Bakı şəhərində anadan olub. 1991-ci ilin oktyabr ayında Nəsimi Rayon Hərbi Komissarlığı tətəfindən hərbi xidmətə çağırılıb, Şuşa rayonuna göndərilib. 26 yan-

Hacibababeyov
Tofig
Arif oglu

Hacibababeyov Tofig Arif oglu was born in Baku in 1959. In October of 1991 he was called up for military service by the Military Registration and Enlistment Office of Nasimi district and sent to Shusha

var 1992-ci ildə Daşaltı kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Qazax rayonu Dağ - Kəsəmən kənd sakini, əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Muradov Alik Fuad oğlu izahatında yazıb ki, 1992-ci ilin oktyabr-noyabr aylarında Laçın rayonunun Minkənd və İcevan kəndləri yaxınlığında Aşot Markaryan və Samvel Meqrelyandan aldığı məlumata görə, Hacıbababəyov Tofiq Dağlıq Qarabağın Əsgəran şəhərində əsir saxlanılıb. Həmin məlumatı Ermənistan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı Albert Voskanyan və Sərhəd Qoşunlarının Ruben adlı əməkdaşı da təsdiq edib.

town. On the 26th of January, 1992 during the fight in Dashalti village of Shusha district Tofig was taken prisoner by Armenians.

Muradov Alik Fuad oglu who lived in Dag-Kasaman village of Gazakh district wrote a statement that in October-November of 1992 near Muinkand and Ichevan villages of Lachin district in accordance with information of Ashot Markaryan and Samvel Megrelyan, Hacibababeyov Tofig was kept as a prisoner in Asgaran town of Garabagh. That information was confirmed by the official of Armenian Ministry of Internal Affairs Albert Voskanyan and official of Frontier Troops whose name was Ruben.

Həbibullayev Mehman Rafiq oğlu

1973-cü ildə Azərbaycan Respublikası Ağsu rayonunda anadan olub. 8 may 1992-ci ildə Ağsu Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Ağdam rayonuna göndərilib. 11 iyun 1992-ci ildə Əsgəran rayonunun Naxcıvanik kəndində ermənilərin hücumunu dəf edən zaman aldığı mərmi qəlpəsindən ağır yaralanıb və əsir götürülüb.

Bu məlumatı atası-Ağsu rayonu Azadlıq küçəsi 91-də yaşayan Həbibullayev Rafiq Səməd oğlu Mehmanın bölük komandiri və döyüş yoldaşlarından öyrənib.

Həmkəndlisi və döyüş yoldaşı-Ağsu şəhəri N.Tağızadə küçəsi, ev 39-da yaşayan Əliyev Əli Rəşid oğlu ərizəsində yazıb ki, Əsgəran rayonunun Naxçıvanik kəndi uğrunda döyüşdə hər ikisi eyni zamanda mərmi qəlpəsindən ağır yaralanıb, döyüş yoldaşları onu sürüyüb, uzaqlaşdıra biliblər, lakin atışma şiddətləndiyi üçün Mehmanı xilas etmək mümkün olmayıb, o, yaralı vəziyyətdə döyüş meydanında qalıb.

Habibullayev Mehman Rafig oglu

Habibullayev Mehman Rafig oglu was born in Aghsu district of Azerbaijan Republic in 1973. On the 8th of May, 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Aghsu district and was sent to Aghdam district. On the 11th of June, 1992 when Armenians attacked Nakhchivanik village of Asgaran district he was seriously wounded and taken prisoner by Armenians.

His father Habibullayev Rafig Samed oglu (he lives in Aghsu district, Azadlig street, 91) found out that information from Mehman's commander and his front-line comrades.

His villager and front-line comrade Aliyev Ali Rashid oglu (he lives in Aghsu district, N.Tagizde street, 39) wrote a statement that both of them were seriously wounded during the fight for Nakhchivanik village of Asgaran district. His front-line comrades took out

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun təqdim etdiyi azərbaycanlı hərbi əsirlərin siyahısında Həbibullayev Mehmanın da adı olub. Onun Ermənistanın Yerevan şəhərində yerləşən mərkəzi həbsxananın 4 saylı kamerasında saxlandığı göstərilib.

Mehman from the battle field but because of skirmish it was impossible to save him. Wounded Mehman stayed there.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district represented a list of Azerbaijani prisoners of war. There was the name of Habibullayev Mehman in that list. It was shown that he was kept in the cell of Central prison № 4 in Yerevan city.



Həbilov Muxtar İsgəndər oğlu

1972-ci ildə Azərbaycan Respublikası Şəki rayonunun Kiçikdəhnə kəndində anadan olub. 1992-ci ildə Şəki Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 1992-ci ilin may ayında Laçın rayonunda gedən döyüşdə əsir götürülüb.

Atası-Şəki rayonu Kiçik Dəhnə kənd sakini Həbilov İsgəndər Muxtar oğlu ərizəsində yazıb ki, 1996-cı ilin may ayında Qax rayonunun Qaracan kəndində milliyyətcə gürcü olan bir nəfər (adını unudub) onun qızına Gürcüstanlı ermənilər vasitəsilə Muxtarı tapıb qaytaracağına söz verib və buna görə də ondan 150.000 rus rublu alıb. Gürcüstandan qayıdan həmin şəxs görüləcək işin müqabilində məbləğin az olduğunu bildirib, onlardan 400.000 rubl tələb edib. Sonradan həmin şəxs əlaqəni kəsib.

Əsirlikdə olan Bədəlov Vüqar Hamlet oğlunun atası-Bakı şəhəri, General Şıxlinski küçəsi, ev 54, mənzil 10-da yaşayan Bədəlov Hamlet Cəmil oğlunun verdiyi məlumata görə, oğlunun axtarışı zamanı Gürcüstan Respublikası Marneuli rayonunun Sadaxlı kəndində Karo adlı erməni ilə görüşüb. Həmin görüşdə Karodan Ermənis-

Habilov Mukhtar Isgender oglu

Habilov Mukhtar Isgender oglu was born in Kichik Dehne of Shaki district of Azerbaijan Republic in 1972. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Shaki district, Mukhtar took part in fights for Lachin district. In May of 1992 he was taken prisoner in fight for Lachin district.

According to a statement of his father Habilov Isgender Mukhtar oglu who lived in Kichik Dehne of Shaki district, a Georgian who lived in Garachan village of Gakh district (it's pity that he forgot his name) said that his daughter by the assistance of Armenian who lived in Georgia found Mukhtar, promised to return him and took 150 000 Russian rubles for that in May of 1996. That man who returned from Georgia said that it wasn't much money and demanded from them 400 000 Russian rubles. Later the man interrupted the contact.

According to the words of father of prisoner of war Bedelov Vugar Hamlet oglu - Bedelov Hamlet Jamil oglu (he lives in Baku, General Shikhlinski Street, 54, app.10), during the search for his missed son, he met an Armenian whose name was Karo from

tan Respublikasının Spitak şəhərində, hərbi şəhərcik, 306-cı məhəllə, ev 1, mənzil 19-da yaşayan Dadamyan Suren Arturoviçin evində saxlanılan azərbaycanlı əsir və girovların siyahısını alıb. Həmin siyahıda Həbilov Muxtar İsgəndər oğlunun da adı olub.

Sadakhli village of Marneuli district of Georgia. During that meeting he got from Karo a list of Azerbaijani prisoners and hostages who kept in the house of his familiar Suren Dadamyan in Spitak, military town, 306 quarter, app.1/19. There was the name of Mukhtar in that list.



Həmdiyev Osman Həmdi oğlu

1954-cü ildə Özbəkistan Respublikası Səmərqənd Vilayəti Qaradərya rayonunun Yanqara kəndində anadan olub. Milliyyətcə mehseti türküdür. 1989-cu ildə ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Xocalı şəhərinə köçüb. 26 fevral 1992-ci ildə Xocalı şəhəri ermənilər tərəfindən işğal olunan gün şəhəri müdafiə edənlərlə birlikdə döyüşüb. Həyat yoldaşı və 4 uşağı ermənilər tərəfindən girov götürülüb, 3 gündən sonra azad olunub. Həmdiyev Osmanı isə ermənilər Dağlıq Qarabağa aparıblar.

Bu məlumatı onun həyat yoldaşı, Beyləqan rayonunun Türklər kəndində məskunlaşmış, milliyyətcə mehseti türkü olan Baytarova Günəş Baytar qızı verib.

Hamdiyev Osman Hamdi oglu

Hamdiyev Osman Hamdi oglu was born in Yangara village of Garaderya district of Samargand region (The Republic of Ozbekistan) in 1954.

His nationality is mehsti turk. In 1989 with family he moved into Khojali of Azerbaijan Republic. On the 26th of February, 1992 during the day of Khojali's occupation Osman fought with men who defended their town. His wife and 4 children were taken hostages and after 3 days they were released. Armenians took Hamdiyev Osman to Upper Garabagh.

That information was given by his wife Baytarova Gunesh Baytar gizi whose nationality was also mehseti turk (at present she lives in Turkler village of Beylagan district).



Həmidov İlqar Şahgəldi oğlu

1965-ci ildə Azərbaycan Respublikası Lerik rayonunun Livədirgə kəndində anadan olub. 1983-1989-cu illərdə Əfqanıstanda hərbi xidmətdə olub. 23 mart 1992-ci ildə orduya yazılıb. Laçın, Ağdərə, Füzuli, Qubadlı və Kəlbəcər uğrunda gedən döyüşlərdə iştirak edib. Tağım komandiri baş leytenant Həmidov İlqar 2 oktyabr 1992-ci ildə Laçın rayonunun Səfiyan kəndində gedən döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Atası-Lerik rayonu Livədirgə kənd sakini Həmidov Şahgəldi Aşur oğlu İlqarın axtarışı ilə bağlı 1993-cü ildə əslən Lerik rayonunun Dürqan kəndindən olub Gürcüstan Respublikasının Sadaxlı kəndində yaşayan Səfurə Allahverdiyevanın evində, tez-tez Ermənistana gedib-gələn Vazgen adlı erməni ilə görüşüb. Vazgen ona İlqarın Kürdəmir sakini olan hərbçi ilə birlikdə Ermənistanın Spitak şəhərində siyasi dustaqlar üçün nəzərdə tutulmuş həbsxanada saxlandığını deyib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində erməni millətindən olan Qaqikdən (Yerevan tel: 63-60-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında Həmidov İlqarın da adı olub. Onun Ermənistanın Razdan şəhərində saxlandığı göstərilib.

Qardaşı-Lerik rayonu Livədirgə kənd sakini Həmidov Azad Şahgəldi oğlunun verdiyi məlumata görə, ermənilərlə Qubadlı rayonu ərazisində aparılan radiodanışıqlar zamanı qarşı tərəfdən olan Susanna adlı rabitəçi İlqarın yaralı vəziyyətdə başqa bir hərbçi ilə əsir götürüldüyünü, onlara işgəncələr verildiyini və azad olunmaqları

Hamidov Ilgar Shahgeldi oglu

Hamidov Ilgar Shahgeldi oglu was born in Livedirge village of Lerik district of Azerbaijan Republic in 1965. In 1983-1989 he served in Afghanistan. On the 23rd of March, 1992 Ilgar joined the army to take part in fights for Garabagh. He took part in fights for Lachin, Aghdara, Fuzuli, Gubadli and Kelbajar. On the 2nd of October, 1992 during the fight for Safiyan village of Lachin district senior lieutenant, the commander of troop Hamidov Ilgar was wounded and taken prisoner.

When his father Hamidov Shahgeldi Ashur oglu who lived in Livedirge village of Lerik district searched for Ilgar, he met an Armenian Vazgen who frequently went to Yerevan at the house of Safura Allahverdiyeva (originally she was from Durgan village of Lerik district) in Sadakhli village of Georgia in 1993. Vazgen said that Ilgar with a military man who lived in Kurdamir was kept in prison for political prisoners in Spitak of Armenia.

In Tbilisi Huseynov Akif Saleh oglu who lived in Asrik Jirdakhan vilage of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from an Armenian whose name was Gagik (Yerevan phone: 63-60-70). There was the name of Hamidov Ildar in that list. It was shown that he was kept in Razdan town of Armenia.

According to the information of his brother Hamidov Azad Shahgeldi oglu who lived in Livedirge village of Lerik district, during the talks by radio communication with Armenians, a signaler whose name was Susanna informed that wounded Ilgar with other military man was taken prisoner, he was put to the torture and Armenian side demanded for

üçün 1 maşın yanacaq tələb etdiklərini bildirib. Qubadlı rayonu ermənilər tərəfindən işğal olunduğu üçün qarşı tərəflə əlaqə kəsilib.

their release 1 car with fuel. At that time Gubadli was occupied by Armenians, the connection was interrupted.

Həmidova Kifayət Çıraq qızı

1955-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 oktyabr 1992-ci ildə Həmidova Kifayət kiçik oğlu Mübariz, Xəlilov Xasay, Həsənov Əzim və digər sakinlərlə ərazini tərk edən zaman azaraq Naxçıvanik kəndi yaxınlığına gediblər. Şaxtadan ayaqları donan Kifayət yeriyə bilməyib. Onları mühasirəyə alan ermənilər arası kəsilmədən atəş açaraq, xocalıları təslim olmağa çağırıblar. Əhali qaçmağa üz tutan zaman Kifayət oğlunu Əzimə tapşırıb, onlara qaçıb xilas olmağı təkid edib, taqətdən düşmüş halda yıxılıb, qarın içində qalıb. Bu məlumatı onun həmyerlisi Həsənov Əzim Kazım oğlu verib. Onun dediyinə görə, Kifayəti meşədə qoyub, oğlu Mübariz və bir neçə sakinlə yollarına davam edib, 6 saatdan sonra Ağdam rayonunun Qurdlar kəndinə çatıblar. Bir daha Kifayəti görməyiblər.

Xocalı sakini, Oğuz rayonunda məskunlaşmış Xəlilov Xasay Rəhim oğlunun verdiyi məlumata görə, Naxçıvanik kəndi yaxınlığında atışma zamanı yaralandığı üçün qaçaraq canını qurtarmaq istəyən əhalidən geri qalıb. Meşədə qarın üstü ilə kənd istiqamətində sürünərkən ayaqları donduğundan yeriyə bilməyən Kifayəti görüb. O, Naxçıvanik kəndindən çıxan 2 erməninin irəlidə Kifayəti söyüb, təhqir edəedə kəndə tərəf sürüdüklərinin şahidi olub.

Erməni əsirliyindən azad olunmuş Min-

Hamidova Kifayat Chirag gizi

Hamidova Kifayat Chirag gizi was born in Khojali town of Azerbaijan Republic in 1955. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces, Hamidova Kifayat, her younger son Mubariz, Khalilov Khasay, Hasanov Azim and other residents left the territory and lost their way. They came up to Nakhchivanik village. At that moment Kifayet's legs were frozen and she couldn't walk. Armenians surrounded them, fired uninterruptedly and cried to give themselves up. When people ran away Kifayat asked Azim to look after him and weaken she fell on the ground. She stayed at the snow. That information was given by her villager Hasanov Azim Kazim oglu. According to his words, Kifayat stayed at the forest but her son with several residents continued their way. 6 hours later they reached Gurtlar village of Aghdam district. They didn't see Kifayat any more.

According to the information of Khalilov Khasay Rahim oglu who lived in Khojali (at present he lives in Oguz district), during the skirmish village he was wounded near Nakhchivanik and failed to keep up with people. He could hardly walk at the snow forest and saw Kifayat. She couldn't walk because her legs were frozen and she failed to keep with people. Suddenly 2 Armenians are appeared. He witnessed

gəçevir şəhəri, M.Hüseyn küçəsi, ev 10, mənzil 18-də yaşayan Xocalı sakini Eyvazov Əli Nəcəfalı oğlu ərizəsində yazıb ki, 1992-ci ilin mart ayında ermənilərin əlində olan zaman Mehdikəndin mal fermasının müdiri Hrantikin oğlu Murad ona Cavanşir müəllimin qızı Svetlananın və Həmidova Kifayətin Xankəndində Xüsusi Təyinatlı Polis dəstəsinin əlində olduğunu deyib və qeyd edib ki, Cavanşir müəllim vaxtilə atama çox kömək edib. Murad nə qədər çalışsa da, qadınları erməni Xüsusi Təyinatlı Polis dəstəsindən ala bilməyib.

Bakı şəhəri, Mərdəkan qəsəbəsi, Maşınqayırma pansionatında məskunlaşmış Xocalı sakini Həmidov Mübariz Sabir oğlunun dediyinə görə, yaşadıqları şəhər ermənilər tərəfindən işğal olunan vaxt anası, qardaşları Müşfiq və Eldənizlə birlikdə partlayış və atəş səsləri altında, vahimə içində əhali ilə birlikdə Ağdama tərəf üz tutublar. Qarqar çayını keçib, meşəyə girdikdə ermənilərin əvvəldən hazırladıqları pusquya düşüblər. Meşədə, dizə qədər qarın içində, çovğunlu havada güllə-borana tutulan xocalılar pərən-pərən düşüblər. Doğmalarından ayrı düşən Mübariz 5 gün tək-tənha qarlı havada, meyitlərin içində ac-susuz meşəni dolaşıb. Erməniləri gördükdə kolların arxasında gizlənib. Axşamüstü yenidən anasıgilə rast gəlib. Səhərə qədər əhali ilə birlikdə meşədə gecələyib. Cəhər tezdən ermənilər onları mühasirəyə alıblar. Həmin vaxt anasının ayaqları donduğu üçün yeriyə bilməyib, ona yalvararaq deyib ki, sən mənə baxma, qaç. Ermənilər arxadan onu atəşə tutub, əlindəkiləri atmağı əmr ediblər. Evdən çıxanda anası sənədləri və pulu ona veribmiş. Mübariz əlindəkiləri atıb, dağa tərəf üz tutaraq qaçıb. Dağın başında geri dönüb baxarkən ermənilərin anasını sürüklədiklərini görüb. Axşam Ağdamın Şelli kəndinə gəlib çatıb. Ağdamdan vertolyotla Bakıya, xəstəxanaya çatdırılıb. Şaxta vurduğundan sol ayağının 3 barmağını təcili yardım xəstəxanasında kəsiblər. Anası haqqında heç bir məlumat öyrənə bilməyib.

Armenians took her in direction of village.

Eyvazov Ali Najafali oglu who returned from Armenian captivity and lived in Khojali town (now he lives in Mingechevir city, M.Huseyn Street, 10, app.18) wrote a statement that in March, 1992, during captivity, the head of stock-breeding farm in Mehdikand Hrantik's son - Murad said that Javanshir's daughter Svetlana and Hamidova Kifayat were taken in Khankandi and noted that Javanshir helped his father much. Murad did his best to release women but he couldn't.

According to the words of Hamidov Mubariz who lived in Khojali (now he lives in Baku, Mardakan settlement), during the occupation of Khojali town by Armenians his mother, brothers Mushfig and Eldaniz heard sounds of explosion and skirmish and went in direction of Aghdam with panic-stricken people. They passed through the Gargar river and when entered the forest they made an ambush beforehand by Armenians. Mubariz stayed alone among corpses for 5 days at the forest without food and water. When he saw Armenians he hid under the bushes. Mubariz met his mother in the evening. He spent the night with people at the forest. Armenians surrounded them in the morning. At that moment her mother's legs were frozen and couldn't walk, she said him to run away. Armenians fired upon him and ordered to raise up hands. When they left house, his mother gave him documents and money. Mubariz ran in direction of mountain. When he reaches the top of mountain, he saw Armenians took his mother. He reached Shelli village of Aghdam district in the evening. He was sent to Baku hospital from Aghdam by helicopter. His 3 fingers of left leg were cut at the hospital because they were frozen. He didn't see his mother any more.

Həmzətov Nazim Cərullayeviç

1967-ci ildə Bakı şəhərində anadan olub. Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbini bitirib. 1992-ci ildə Zəngilan batalyonunun komandiri vəzifəsində həmin ərazidə gedən döyüşlərdə iştirak edib. 30 avqust 1993-cü ildə Qubadlı rayonunda əsir götürülüb.

Atası-Bakı şəhəri, Naxçıvanski küçəsi, ev 45, mənzil 10-da yaşayan Həmzətov Cərulla Cəmaləddinoviçin verdiyi məlumatda deyilib ki, Nazimin axtarışı zamanı döyüş yoldaşları, oğlunun içində olduğu tankın ermənilər tərəfindən vurulduğunu deyiblər.

Bakı şəhəri, Yasamal rayonu, Zaur Kərimov küçəsi, ev 26-da yaşayan, hərbi əsir leytenant Allahverdiyev İmran Yadulla oğlunun qardaşı Allahverdiyev Etibar Yadulla oğlunun izahatından bəlli olub ki, 30 avqust 1993-cü ildə Qubadlı rayonunun Balasultanlı kəndi ermənilər tərəfindən işğal olunan zaman qardaşı Nazim adlı zabitlə birlikdə əsir götürülüb. Onlarla eyni hərbi hissədə qulluq edən Dağbəyi adlı hərbçinin oğlu ona, Nazim və İmranın heyət üzvü olduğu tankın ermənilər tərəfindən vurulduğunu, 2 nəfərin yaralı vəziyyətdə əsir götürüldüyünü deyib.

Hamzatov Nazim Jarullayevich

Hamzatov Nazim Jarullayevich was born in Baku in 1967. He has finished Baku Supreme Military Common Forces Commanders' School. In 1992 Nazim took part in fight for the same territory as the commander of Zangilan battalion. On the 30th of August, 1993 during the fight for Gubadli district he was taken prisoner.

According to the information of his father Hamzatov Jarulla Jamaleddinovich (he lives in Baku, Nakhchivanski Street, 45, app.10) during the seach for his son, his front-line comrades said that Armenians fired upon his son's tank.

The prisoner of war lieutenant Allahverdiyev Imran Yadulla oglu (he lives in Baku, Yasamal district, Zaur Kerimov Street, 26), his brother Allahverdiyev Etibar Yadulla oglu wrote a statement that on the 30th of August, 1993 during occupation Balasultanli village of Gubadli district by Armenians his brother with an officer whose name was Nazim was taken prisoner. A military man whose name was Dagibeyi served with them in the same unit. His son said that Armenians fired upon Nazim and Imran's tank, 2 men were wounded and taken prisoners.



Həmzəyev İlqar Yasin oğlu

1965-ci ildə anadan olub. 1990-cı ildə Gəncə könüllülər batalyonunun tərkibində cəbhəyə gedib. 19 yanvar 1993-cü ildə Ağdərə rayonunun Vaqauz kəndi istiqamətində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülərək Şuşa şəhərinə aparılıb.

Bu məlumatı Həmzəyev İlqarın qardaşı-Gəncə şəhəri, A. Əhmədov küçəsi 98-də yaşayan Həmzəyev Asif onun döyüş yoldaşlarından alıb.

Ağdam özünümüdafiə batalyonunun sabiq komandiri, Baki şəhəri, 2-ci mikrorayon, H.Əliyev küçəsi, ev 1, mənzil 43-də yaşayan Əliyev Ağalar Xasay oğlu ərizəsində bildirir ki, hərbi əsirlərin dəyişdirilməsi ilə məşğul olarkən qarşı tərəfdən Aleksandr Ağasaryan 72 azərbaycanlı hərbi əsirin siyahısını ona verib. Həmin siyahıda Həmzəyev İlqarın Şuşa şəhər həbsxanasında saxlandığı göstərilib.

Hamzayev Ilgar Yasin oglu

Hamzayev Ilgar Yasin oglu was born in 1965. In 1990 he went to take part in fights for Garabagh allotted to Ganja battalion of voluntaries. On the 19th of January, 1993 during the fight in direction of Vagauz village of Aghdara district Ilgar was taken prisoner and sent to Shusha.

His brother Hamzayev Asif Yasin oglu who lived in Ganja, A.Ahmedov Street 98 got that information from his front-line comrades.

It was shown in a statement of former commander of self-defense battalion Aliyev Agalar Hasay oglu (he lives in Baku, 2nd microdistrict, G.Aliyev Street 1, app.43) that Alexander Agasaryan who was engaged in change of prisoners of war gave him a list of 72 Azerbaijani prisoners of war. There was the name of Hamzayev Ilgar in that list. It was shown that he was kept in Shusha prison.



Həmzəyev Mirnəcəf Müzəffər oğlu

1955-ci ildə anadan olub. Gəncə Hərbi Polis İdarəsində baş gizir vəzifəsində xidmət edib. 1993-cü ilin fevral ayında Ağdərə bölgəsinə göndərilib. 10 fevral 1993-cü ildə Mehmanə kəndi uğrunda döyüşdə əsir götürülüb və Şuşa şəhərinə aparılıb.

Hamzeyev Mirnajaf Muzaffar oglu

Hamzeyev Mirnajaf Muzaffar oglu was born in 1955. He served as a senior ensign in Military Police Department of Ganja. In February of 1993 he was sent to Aghdam district. On the 10th of February, 1993 during the fight for Mehmane village Mirnajaf was taken pris-

Bu məlumatı Mirnəcəfin axtarışı ilə məşğul olan həyat yoldaşı – Yeni Gəncə qəsəbəsi, ev 45-də yaşayan Həmzəyeva Məhluqə Paşa qızı onun döyüş yoldaşlarından öyrənib. Ermənilər tərəfindən əsir götürülmüş Həmzəyev Mirnəcəf və Əmirov İntiqamın qonşusu - Yeni Gəncə qəsəbəsi, bina 62, mənzil 17-də yaşayan Həsənov Musa Şahvələd oğlunun verdiyi məlumata görə, 1998-ci ilin yayında qardaşı ilə birlikdə qatarla Mineralnıye Vodı-Rostov marşrutu ilə Rostov şəhərinə gedən zaman Yerevan sakinləri ilə tanış olub. Söhbət əsnasında ermənilər Musaya evlərinin yanında maşın təlimi məktəbinin yerləşdiyini və oradakı hərbi texnikanın təmiri ilə azərbaycanlı hərbi əsirlərin məşğul olduqlarını deyib. Ona həmin məktəbin ünvanını və telefon nömrəsini də veriblər. Ermənilərdən əsirlərin əlamətini soruşduqda ağsaçlı, orta yaşlı bir nəfərlə, erməni dilini bilən sarışın bir oğlanı həmişə bir yerdə gördüklərini deyiblər. İntiqam əslən Ermənistanlı olduğu üçün erməni dilini bilirdi. Mirnəcəf isə ağsaçlı idi.

oner and sent to Shusha.

His wife Hamzayeva Mahluga Pasha gizi (at present she lives in Yeni Ganja settlement, 45) found out that information from his front-line comrades when she searched for her husband. The neighbour of prisoners Hamzayev Mirnajaf and Amirov Intigam - Hasanov Musa Shahvalad oglu (he lives in Yeni Ganja settlement, 62, app. 17) informed when he went with brother to Rostov by the train (route Mineralniye Vodi – Rostov), they met inhabitants of Yerevan in 1998. During conversation Armenians told Musa there was an automobile school where Azerbaijani prisoners of war repaired military technical equipment. They gave him address and phone number of that school. When Musa asked Armenians about prisoners they said that one of them was grey-haired, middle-aged, another was blond boy who knew Armenian language. They were always together. Intigam was from Armenia and that's why he knew it very much. Mirnajaf was grey-haired.

Həsənov
Asif
Ağamirzə oğlu

1960-cı ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Əmrallar kəndində anadan olub. Xocavənd rayon Polis Şöbəsində çavuş kimi xidmət edən Asif yaşadıqları ərazinin müdafiəçilərindəndir. 29 dekabr 1991-ci ildə Xocavənd rayonunun Əmrallar kəndi yaxınlığında Qaraçux deyilən yerdə postda növbə çəkən zaman həmyerlisi Bəhramov Vaqif Cəlil oğlu ilə birlikdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Xocavənd rayonu Əmrallar kənd

Hasanov
Asif
Agamirza oglu

Hasanov Asif Agamirza oglu was born in Amrallar village of Khojavand district of Azerbaijan Republic in 1960. Police ensign Hasanov Asif from Police Department of Khojavand district was one of who organized the defense of their village. On the 29th of December, 1991 Asif with villager Bahramov Vagif Jalil oglu was taken prisoner by Armenians being on point duty near Garachukh place of Amrallar village of Khojavand district.

According to the words of his father

sakini, hazırda Beyləqan rayonunun Hərami düzü deyilən ərazisində məskunlaşmış Həsənov Ağamirzə Səlim oğlunun dediyinə görə, həmin gün oğlu həmyerlisi Vaqiflə birlikdə ermənilər tərəfindən əsir götürülüb və Xocavənd rayonunun ərazisində saxlanılıb. Bu xəbəri ona Xocavənd rayonunda kolxoz sədri işləmiş milliyyətcə erməni olan Karonun 18-20 yaşlı hərbçi oğlu verib.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun verdiyi məlumata görə, əsir və girovların dəyişdirilməsi zamanı erməni tərəfdən Füzuli rayon sakini, sonradan Hadrutun Tuğ kəndinə köçmüş Karen adlı şəxs ona Əmrallar kənd sakinləri Həsənov Asif və Bəhramov Vaqifin əsir götürülüb, Tuğ kəndində saxlandıqlarını bildirib.

Bəhramov Vaqifin həyat yoldaşı - Xocavənd rayonu Əmrallar kənd sakini, Beyləqan rayonunun Dünyamallar kəndində məskunlaşmış Bəhramova Elza Əhəd qızı ərizəsində yazıb ki, Vaqiflə Asif əsir götürülən gün ermənilər radioəlaqə yaradaraq onları Xocavənd rayonunda saxladıqlarını bildiriblər. 1993-cü ildə Elzanın qardaşı Əbdül hərbçilər vasitəsilə qarşı tərəfdən Vaqiflə Asifin Tuğ kəndində saxlandıqlarını öyrənib.

Hasanov Agamirza Salim oglu who lived in Amrallar village of Khojavand district (at present he lives in Harami of Beylagan district), together with his villager Vagif, he was taken prisoner by Armenians and kept in Khojavand district on the 29th of December, 1991. She got that information from Armenian former chairman of collective farm, Karo's son - military man of 18-20 years old.

According to the information of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (now he lives in Allahyarli village of Beylagan district) and engaged in change of prisoners and hostages, an Armenian Karen who lived in Fuzuli district and then moved into Tug village of Hadrud informed that Hasanov Asif and Bahramov Vagif were taken prisoners and kept in Tug village.

The wife of Bahramov Vagif Bahramova Elza Ahad gizi who lived in Amrallar village of Khojavand district (at present she lives in Dunyamallar village of Beylagan district) wrote a statement that when Vagif and Asif were taken prisoners, Armenians connected by radio communication and informed that they were kept in Khojavand district. In 1993 Elza's brother Abdul connected with opposite side and found out that Vagif and Asif were kept in Tug village.

Həsənov
Çərkəz
Muxtar oğlu

1966-cı ildə Azərbaycan Respublikası Qazax rayonunun Xanlıqlar kəndində anadan olub. Daxili Qoşunların Gəncədə yerləşən hərbi hissələrindən birində baş çavuş kimi qulluq edib. 18 iyul 1992-ci ildə 41 nəfər polis iş-

Hasanov
Cherkez
Mukhtar oglu

Hasanov Cherkez Mukhtar oglu was born in Khanliglar village of Gazakh district of Azerbaijan Republic in 1966. He served as a senior sergeant in Ganja Internal Forces. On the 18th of July, 1992 Cherkez with 41 policemen

çisi ilə birlikdə Ağdərə rayonunun Umudlu kəndinə göndərilib. Elə həmin gün 41 döyüşçü pusquya düşərək əsir götürülüb.

Qazax rayonu Xanlıqlar kənd sakini Həsənov Arşimed Muxtar oğlunun dediyinə görə, qardaşının axtarışı zamanı Ağdərə rayonuna gedib, həlak olanların meyitlərini öz gözləri ilə görüb, döyüş gedən yerdə Çərkəzin nə ölüsünü, nə də dirisini tapa bilməyib.

Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsindən Arşimedə verilmiş məlumata görə, Çərkəz əsir götürülüb, Ermənistana aparılıb.

Azərbaycan Respulikası Gömrük Komitəsinin sədr müavini (təhlükəsizlik orqanlarında işləyib) Rafael Mirzəyevin 1993-cü ildə cəbhə xəttində erməni nümayəndələrindən aldığı azərbaycanlı hərbi əsir və girovların siyahısında Həsənov Çərkəzin Ermənistanda saxlandığı göstərilib.

was sent to Umudlu village of Aghdara district. At that day Armenians made an ambush and nobody of them returned.

According to the words of Hasanov Arshimed Mukhtar oglu who lived in Khanliglar village of Gazakh district, while searching for his brother he was sent to Aghdara district, saw the corpses but Cherkez was neither among killed nor among alive.

According to the information of Azerbaijan National Committee of Helsinki Civil Assembly Cherkez was taken prisoner and sent to Armenia.

The deputy chairman of State Custom Committee of Azerbaijan Republic Rafael Mirzeyev got a list of Azerbaijani prisoners of war and hostages from Armenian representative at the front in 1993. There was the name of Hasanov Cherkez in the list and it was shown that he was kept in Armenia.



Həsənov Eldəniz Novruz oğlu

1972-ci ildə Azərbaycan Respublikası Gədəbəy rayonunun Kələman kəndində anadan olub. 1992-ci ilin dekabr ayında Kəlbəcər Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 17 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ yüksəkliyi uğrunda döyüşdə yaralı vəziyyətdə əsir götürülüb.

Atası-Cədəbəy rayonu Kələman kənd sakini Həsənov Novruz Kazım oğlu Eldənizin qulluq etdiyi hərbi hissədə olub. Tabor komandiri Eldənizin yaralı döyüşçü-Gədəbəy rayonu Şurabad kənd sakini Cəblus Tapdıq oğlunu postdan qəqargaha gətirib geri qayıdarkən yaralanaraq əsir götürüldüyünü deyib. Onun əldə etdiyi məlumata

Hasanov Eldaniz Novruz oglu

Hasanov Eldaniz Novruz oglu was born in Kalaman village of Gedebey district of Azerbaijan Republic in 1972. In December of 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Kelbajar district. On the 17th of February, 1994 during the fight for Murovdagh height of Kelbajar district wounded Eldaniz was taken prisoner by Armenians.

When his father Hasanov Novruz Kazim oglu who lived in Kalaman village of Gedebey district searched for his son, he went to the military unit where he served. The front-line comrade of Eldaniz - Jablus Tapdig oglu who lived in Shurabad village of

görə, oğlu ilə birlikdə əslən Gədəbəy rayonundan olan İsayev Etibar Eldar oğlu (Kiçik Qaramurad kəndi), Şahrzayev Şakir Firudin oğlu (Saratovka kəndi), Tanrıverdiyev İbad Əhməd oğlu (Arabaçı kəndi), Haqverdiyev Elman Əli oğlu (Arxdam kəndi), Ocaqverdiyev Elçin Aydın oğlu (Arxdam kəndi), Verdiyev Elçin Səlim oğlu (İvanovka kəndi) «QAZ-66» markalı avtomaşında əsir götürülüblər.

Gedebey district said to his commander of battalion that Eldaniz was wounded and taken prisoner. According to his information, 6 fighters from Gedebey district: Isayev Etibar Eldar oglu (Kichik Garamurad village), Shahrzayev Shakir Firidun oglu (Saratovka village), Tanriverdiyev Ibad Ahmed oglu (Arabachi village), Hagverdiyev Elman Ali oglu (Aghdam village), Ojagverdiyev Elchin Aydin oglu (Aghdam village), Verdiyev Elchin Salim oglu (Ivanovka village) went by a car "QAZ-66" and they were taken hostages.



Həsənov Elgün Üzeyir oğlu

1973-cü ildə Azərbaycan Respublikasının Zaqatala şəhərində anadan olub. 1990-cı ildə Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbinə daxil olub. 1993-cü ildə III kurs müdavimi leytenant Həsənov Elgün taqım komandiri vəzifəsinə təyin olunub və cəbhəyə yollanıb. 1994-cü il fevral ayının 11-dən 12-nə keçən gecə Cəbrayıl rayonunun Mehdili kəndi uğrunda döyüşdə yaralanıb və əsir götürülüb.

Atası-Zaqatala şəhəri, Sülh küçəsi, ev 3, mənzil 42-də yaşayan Həsənov Üzeyir Həsən oğlunun verdiyi məlumata görə, oğlunun axtarışı zamanı 1994-cü ilin mart ayında Beyləqan rayonunda yerləşən xəstəxanada Elgünün komandir olduğu taqımda qulluq etmiş yaralı əsgər (adını unudub) komandirinin yaralı vəziyyətdə əsir götürüldüyünün şahidi olduğunu deyib.

1997-ci ildə döyüş yoldaşı-Zaqatala rayonu Tala kənd sakini Ramazan (Rusiya Federasiyasında yaşayır) adlı şəxs ona Elgünün çiynindən və ayağından yaralandığını və ermənilərin onu əsir götürdüklərini

Hasanov Elgun Uzeyir oglu

Hasanov Elgun Uzeyir oglu was born in Zagatala town of Azerbaijan Republic in 1973. In 1990 he entered Baku Supreme Military Common Force Commanders school. In 1993 the student of 3rd course lieutenant Hasanov Elgun was appointed the commander of troop and was sent to the front. During the night from 11th to 12th of February, 1994 he was wounded and taken prisoner at the fight for Mehdili village of Jabrayil district.

According to the information of his father Hasanov Uzeyir Hasan oglu (he lives in Zagatala, Sulh Street 3), a soldier from his troop in the hospital of Beylagan district said that his commander was wounded and taken prisoner by Armenians.

In 1997 former fighter Ramazan who lived in Tala village of Zagatala district (at present he lives in RF) informed that Elgun was wounded in shoulder and leg and was taken prisoner by Armenians.

Armenian Lavrik Markarov with family

bildirib.

Milliyyətcə erməni Lavrik Markarov (ünvanı: Rusiya Federasiyası, Jeleznovodsk şəhəri, Moskovskaya küçəsi, ev 22; tel: 8-865-32-4-11-12) Qarabağ müharibəsi başlayan zaman ailəsi ilə birlikdə Jeleznovodsk şəhərinə köçüb. Onun milliyyətcə rus olan həyat yoldaşı Lyuda 1994-cü ilin oktyabr ayında Zaqatala şəhərində yaşayan xalasıgilə gələn vaxt Üzeyir onunla görüşüb və oğlu haqqında ermənilərdən məlumat öyrənməyi xahiş edib. Bir müddət sonra Lyuda ona zəng vurub, Elgünün sağ olduğunu bildirib. 1995-ci ilin mart ayında o, Lavriklə Gürcüstan Respublikasının Laqodeki rayonunda görüşüb. Lavrik ona ermənilərin Elgünü azad etmək üçün erməni əsiri tələb etdiklərini deyib. Bu da imkansız olduğu üçün oğlunu azad etmək mümkün olmayıb. 1998-ci ildə Lyuda vəfat etdiyi üçün həmin ailə ilə əlaqə kəsilib.

moved into Jeleznovodsk city (address: RF, Jeleznovodsk city, Moscowskaya Street 22, phone: 8-865-32-4-11-12). When Garabagh war began, he moved into Jeleznovodsk. Lavrik's wife Lyuda was Russian. In October of 1994 she went to her aunt's place, Uzeyir met her and asked to find out information concerning his son. Later Lyuda rang him up and said that Elgun was alive. In March of 1995 he met Lavrik in Lagadeki district of Georgia. Lavrik said if he wanted to release Elgun it would be necessary to find an Armenian prisoner. It was impossible to release his son. In 1998 Lyuda died and the connection with the family was interrupted.

Həsənov
Əli
İsmayıl oğlu

1957-ci ildə Bakı şəhərində anadan olub. 4 iyun 1993-cü ildə polis leytenantı Həsənov Əli Ağdam rayonu uğrunda döyüşlərə yollanıb. 1993-cü il iyun ayının 12-dən 13-nə keçən gecə Ağdam rayonunun Çinli kəndində yerləşən postda tabeliyində olan 15 polis nəfəri ilə keşik çəkdiyi zaman ermənilər tərəfindən artilleriya atəşinə tutulub və Şuşa şəhər sakini Abbasov Məzahirlə birlikdə əsir götürülüb.

Həyat yoldaşı-Bakı şəhəri, Neapol küçəsi, ev 7q, mənzil 39-da yaşayan Həsənova Arifə Əsgər qızının verdiyi məlumata görə, 20 iyun 1993-cü ildə Əlinin xidmət etdiyi alayın komandirinə özünü Bakı erməni kimi təqdim edən Raçik adlı bir şəxs zəng vuraraq onu yaralı vəziyyətdə əsir götürdüklərini, yalnız itkin düşmüş Xaçaturyan Manvel Anatolyeviçlə dəyişdirmək istədiklərini söyləyib.

Hasanov
Ali
Ismayil oglu

Hasanov Ali Ismayil oglu was born in Baku in 1957. On the 4th of June, 1993 police lieutenant Gasanov Ali was sent to fight for Aghdam district. During the night from the 12th to 13th of June, 1993 when he was on point duty with 15 policemen in Chinli village of Aghdam district, Armenians fired upon them and took him as prisoner together with Abbasov Mazahir.

According to the information of his wife Hasanova Arifa Asgar gizi (she lives in Baku, Neapol Street, 7Q, app.39), an Armenian from Baku whose name was Rajik rang up the commander of Ali's regiment and said

Atası-Bakı şəhəri, Qədirbəyov küçəsi, ev 63a, mənzil 93-da yaşayan Həsənov İsmayıl Ağadədə oğlunun ərizəsində yazılıb ki, oğlunun xidmət etdiyi alayın komandiri mayor Osmanov Tapdığa Arkadi adlı bir erməni Ermənistandan zəng vurub, itkin düşmüş 13 erməninin siyahısını söyləyib. Həmin ermənilər Həsənov Əli ilə dəyişməyi təklif edib. Arkadi ona ermənilər tapılarsa, Füzuli rayon sakini Seyid Əhədlə əlaqə saxlamağı bildirib.

Bundan sonra komandirə Xankəndindən Andrey adlı digər erməni zəng vurub, Əlinin orada əsir saxlandığını deyib. İtkin düşmüş ermənilər tapmaq mümkün olmadığı üçün dəyişmə baş tutmayıb.

that wounded Ali was taken prisoner and they could change him for missed Khachaturyan Manvel Anatoliyevich on the 20th of June, 1993.

His father Hasanov Ismayil Agadede oglu (he lives in Baku, Gadirbeyov Street, 63A, app.93) wrote a statement that an Armenian whose name was Arkadi called to Ali's commander major Osmanov Tapdig and said about a list of 13 missed Armenians. He offered to change those Armenians for Ali. Arkadi said if he found Armenians, he would connect with Seyid Ahad who lived in Fuzuli district.

Then another Armenian whose name was Andrey from Khankandi called to the commander and said that Ali was kept there. Missed Armenians weren't found and the change didn't realize.



Həsənov
Əsədullah
Nuşirəvan oğlu

1963-cü ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Fərəcan kəndində anadan olub. 1981-1983-cü illərdə Əfqanıstan Respublikasında hərbi xidmətdə olub. Sonradan Sumqayıt şəhərinə köçüb. 5 yanvar 1994-cü ildə Sumqayıt şəhər Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Kəlbəcər rayonuna göndərilib. 17 fevral 1994-cü ildə Kəlbəcər rayonunun Murovdağ ərazisində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Füzuli rayonu Qaraxanbəyli kənd sakini, Biləsuvar rayonundakı 3 saylı çadır şəhərciyində məskunlaşmış Əliyev Qəhrəman Həsən

Hasanov
Asadullah
Nushiravan oglu

Hasanov Asadullah Nushiravan oglu was born in Farajan village of Gubadli district of Azerbaijan Republic in 1963. During 1981-1983 he was at military service in Republic of Afghanistan. Later he moved into Sumgayit town. On the 5th of January, 1994 Asadullah was called up for military service by the Military Registration and Enlistment Office of Sumgayit town and sent to Kelbajar district. On the 17th of February, 1994 he was taken prisoner during the fight on the territory of Murovdag of Kelbajar district.

Aliyev Gahraman Hasan oglu who returned from Armenian captivity and lived in Garakhanbeyli village of Fuzuli district (now

oğlu izahatında Xankəndindəki hərbi hissələrdən birində təsərrüfat işlərinə cəlb olunan zaman Həsənov Əsədullahı da orada gördyünü yazıb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun təqdim etdiyi, Şuşa alayının qərargah rəisi Ağayan Elmiranın təsdiqlədiyi azərbaycanlı hərbi əsir və girovların siyahısında Həsənov Əsədullahın Xankəndi şəhərində saxlandığı göstərilib.

he lives in camp town № 3 in Bilasuvar district) wrote a statement when he was forced for agricultural work in military unit of Khankandi, he saw Asadullah there.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district represented a list of Azerbaijani prisoners of war and hostages kept in Upper Garabagh and the chief of staff of Shusha regiment Agayan Elmira confirmed that list. There was the name of Hasanov Asadullah in that list. It was shown that he was kept in Khankandi.



Həsənov
Faiq
Həsən oğlu

1969-cu ildə Azərbaycan Respublikasının Mingəçevir şəhərində anadan olub. 1991-ci ilin oktyabr ayından könüllü olaraq Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Şirin Mirzəyevin taborunda qulluq edib. 28 fevral 1992-ci ildə Ağdərə rayonunun Umudlu kəndində gedən döyüşdə əsir götürülüb.

Qardaşı-Mingəçevir şəhəri, Xətai küçəsi, ev 10, mənzil 23-də yaşayan Həsənov Etibar Həsən oğlunun verdiyi məlumata görə, vaxtilə Faiqin futbol məşqçisi olmuş Mahmudov Nemət onlara Faiqin sağ olduğunu, Xankəndində şəxsi evdə saxlandığını deyib.

Mingəçevir şəhəri, M.Ə.Rəsulzadə küçəsi 72A, mənzil 31-də yaşayan Mahmudov Nemət Usman oğlu izahatında yazıb ki, 1994-cü il yanvar ayının 28-də onlara (ev telefonu 5-38-22) Xənkəndi şəhərindən Ayvazyan Cülyetta Santurovna adlı milliyyətcə erməni olan qadın zəng vurub Həsənov Faiqin sağ olduğunu, evlərində saxlandığını deyib. Cülyetta Nemətə Faiqi Zəngilan ərazisində itkin düşmüş, həyat

Hasanov
Faig
Hasan oglu

Hasanov Faig Hasan oglu was born in Mingechevir city of Azerbaijan Republic in 1969. In October of 1991 he voluntarily took part in fights for Garabagh. Faig served in Shirin Mirzeyev's battalion. On the 28th of February, 1992 he was taken prisoner by Armenians during the fight in Umudlu village of Aghdam district.

According to the information of his brother Hasanov Etibar Hasan oglu (he lives in Mingechevir, Khatai Street, 10, app.23), Faig's football trainer Mahmudov Nemet said that he was alive and kept in a private house of Khankandi.

Mahmudov Nemet Usman oglu (he lives in Mingechevir, M.A.Rasulzade Street, 72A, app.31) wrote a statement that an Armenian whose name was Julietta from Khankandi called and said that Hasanov Faig was alive and kept in their house on the 28th of January, 1994. Julietta wanted to change him for her sister's husband Ayvazyan Beniamin Mikhailovich missed in Zangilan district. 2 days

yoldaşı Ayvazyan Beniamin Mixayloviçlə (Benik təxəllüslü) dəyişmək istədiklərini bildirib. Həmin qadın 2 gün sonra yenə zəng vurub, qohumu haqqında məlumat almaq istəyib və Faiqin anası Nemətgildə olduğundan onunla da danışıb, arxayın edib ki, oğlundan nigaran qalmasın. 10 gün ərzində Faiqin ailə üzvləri beynəlxalq təşkilatlara və əlaqədar orqanlara müraciət edib, lakin Beniamin haqqında heç bir məlumat əldə edə bilməyiblər. Moskva şəhərindən Cülyettanın bacısı Janna növbəti dəfə zəng vurub, Beniamin tapılana qədər Faiqə himayədarlıq edəcəklərini bildirib. Sonradan əlaqə kəsilib, erməni tərəfdən daha heç kim zəng vurmayıb.

later that woman called again and wanted to get information concerning her relative. Faig's mother talked to Julietta. She convinced not to be worried about the son. During 10 days the members of Faig's family appealed to International organization but they didn't get any information regarding Beniamin. Julietta's sister Janna called from Moscow. She promised to look after Faig till they found Beniamin. Then connection was interrupted and nobody from Armenian side called them.



Həsənov
İlham
Gülməmməd oğlu

1974-cü ildə Azərbaycan Respublikası Quba rayonunun Vladimirovka kəndində anadan olub. 1993-cü ilin noyabr ayında Quba-Qusar könüllülər batalyonunun tərkibində Qarabağ uğrunda döyüşlərə yollanıb. Xocavənd rayonunda gedən döyüşlərdə iştirak edib. 31 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Döyüş yoldaşı və həmkəndlisi-Quba rayonu Vladimirovka kənd sakini Novruzov İbrahim Məmmədşah oğlunun verdiyi məlumata görə, 1994-cü il yanvar ayının 31-nə keçən gecə o, əmisi oğlu Tahir, Həsənov İlham və əslən mehseti türkü olan Bayraqdarov Hümmətlə bir yerdə olub. Ermənilər qəfil hücum edən zaman onların sursatı qurtarıb. Buna görə də geri çəkilməyə məcbur olublar. İbrahim yaralandığı üçün başqa istiqamətə qaçıb, geri dönən-

Hasanov
Ilham
Gulmammad oglu

Hasanov Ilham Gulmammad oglu was born in Vladimirovka village of Guba district of Azerbaijan Republic in 1974. In November of 1993 he was sent to fight for Garabagh allotted to Gusar battalion of voluntaries. Hasanov Ilham took part in fights for Khojavand district. On the 31st of January, 1994 during the fight for Shishgaya height of Khojavand district Ilham was taken prisoner by Armenians.

According to the information of his frontline comrade and villager Novruzov Ibrahim Mammadshah oglu who lived in Vladimirovka village of Guba district, he was with cousin Tahir and mehseti turk Bayragdarov Hummet during the night on the 31st of January, 1994. When Armenians attacked them suddenly their bullets were over. They had to return back. Ibrahim was wounded and ran away to unknown direction. When he returned, he saw Ilham was surrounded.

də ermənilərin İlhamın qaldığı tərəfi mühasirəyə aldıqlarını görüb. Həmin anda İlham sursatsız olub, İbrahim əminliklə onun ermənilər tərəfindən əsir götürüldüyünü bildirib.

That moment Ilham was without weapon. Ibrahim was sure that he was taken prisoner by Armenians.



Həsənov İsmiəli İsmayıl oğlu

1924-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Alıxanlı kəndində anadan olub. 23 avqust 1993-cü ildə Alıxanlı kəndi ermənilər tərəfindən işğal olunan gün həyat yoldaşı Həsənova Fatma Hüseynqulu qızı (1933) ilə ermənilər tərəfindən girov götürülüb.

Bu məlumatı oğlu-Bakı şəhəri, 3-cü Alatava, ev 125V-də yaşayan Həsənov Habil İsmiyəli oğlu verib.

1967-ci ildə Ermənistan Respublikası Meqri rayonunun Vartanizon kəndində anadan olub. 1989-cu ildə yurdundan didərgin salındıqdan sonra Bakı şəhərində məskunlaşıb. 1992-ci ilin iyun ayında Suraxanı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 2 oktyabr 1992-ci ildə Xocavənd rayonunun Əmrallar kəndində gedən döyüş zamanı əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Astara rayonu Şuvi kənd sakini Sadığov Elçin Nuraddin oğlunun verdiyi məlumata görə, Xocavənd rayonunda saxlanılan zaman Məmmədov Muradı orada görüb. 1 ay sonra onları birlikdə Xankəndi şəhərində yerləşən istintaq təcridxanasına aparıblar. Elçin dəyişdirilmək məqsədilə bir nəfər erməninin evinə göndərilib. Murad isə təcridxanada qalıb.

Mammadov Murad Ahmed oglu

Mammadov Murad Ahmed oglu was born in Vartanizon village of Megri district of Armenia in 1967. He was expatriated from his motherland by Armenians and moved into Baku, Azerbaijan. In June of 1992 Murad was called up for military service by the Military Registration and Enlistment Office by Surakhani district. On the 2nd of October, 1992 during the fight for Amrallar village of Khojavand district he was taken prisoner.

According to the information of Sadikhov Elchin Nuraddin oglu who lived in Shuvi village of Astara district and returned from Armenian captivity,when he was kept in Khojavand he saw Mammadov Murad. 1 month later they were together sent to investigatory isolation in Khankandi. Elchin was sent to a house of Armenian in order to be changed. Murad stayed at the isolation.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun ərizəsində qeyd olunub ki, 1992-ci ildə rabitə əlaqəsi ilə erməni polisinin əməkdaşı Maksimdən Muradın yaralı olduğunu və əsir saxlandığını öyrənib.

Qəbələ rayonu Xırxatala kənd sakini, erməni əsirliyindən azad olunmuş Rəşidov Təvəkkül Qədir oğlu Xocavənd həbsxanasında Muradla birlikdə saxlandığını, sonradan Xankəndi şəhərindəki istintaq təcridxanasında ayrı-ayrı kameralara köçürüldüklərini deyib. 20 gündən sonra Təvəkkül dəyişdirilmək üçün şəxsi evə aparılıb və bir daha Muradı görməyib.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli (now he lives in Allahyarli village of Beylagan) wrote a statement that he connected by radio communication with Armenian policeman Maxim and found out that Murad was wounded and taken prisoner in 1992.

Rashidov Tavakkul Gadir oglu who lived in Khirkhatala village of Gabala and returned from captivity said that he was kept in Khojavand prison together with Murad. Afterwards they were sent to investigatory isolation in Khankandi and kept in different prison cells. 20 days later Tavakkul was taken to a private house in order to be changed, and since then he had never seen Murad.

Məmmədov Nazim Elmar oğlu

1964-cü ildə anadan olub. Qarabağ döyüşlərində iştirak edib. 8 may 1992-ci ildə Şuşa şəhəri ermənilər tərəfindən işğal olunan zaman Kosalar kəndi uğrunda döyüşdə əsir götürülüb.

Atası-Xırdalan qəsəbəsi, 5-ci məhəllə, ev 29-da yaşayan Məmmədov Elmar Əbdüləli oğlunun dediyinə görə, Nazimin döyüş yoldaşları onun Şuşanın Kosalar kəndində əsir götürüldüyünü bildiriblər.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləyərkən əsir və girov götürülmüş vətəndaşların qeydiyyatını aparmiş, hazırda Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Firəddin Əli oğlunun verdiyi məlumata görə, Füzuli rayonu Yağlıvənd kənd sakini Kazımov Əhəd Musa oğlu erməni tərəfi ilə radiodanışıqlarda Məmmədov Nazimin əsir götürülüb, Şuşada «Lısaya Qora» deyilən yerdə saxlandığını öyrənib.

Mammadov Nazim Elmar oglu

Mammadov Nazim Elmar oglu was born in 1964. He took part in fights for Garabagh. On the 8th of May, 1992 during the occupation of Shusha town by Armenians Nazim was taken prisoner at the fight for Kosallar village.

According to the words of his father Mammadov Elmar Abdulali oglu (he lives in Baku, Khirdalan settlement, 5 quarter, app.29), when he searched for Nazim his front-line comrades informed that he was taken prisoner.

According to the information of Eyvazov Firaddin Ali oglu who was the chief deputy of Executive Power of Fuzuli district during 1992-1993 (he lives in hostel № 4, room 205 of AMU in Baku), he was engaged in registration of prisoners and hostages from 1992 till 1993. According to his information Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli district (he lives in Machgara village of Beylagan district) connected with Armenians by radio communication and found out that Mammadov Nazim was taken prisoner and kept in place called «Lisaya Gora» of Shusha.



Məmmədov Nazim Tofiq oğlu

1963-cü ildə Azərbaycan Respublikasının Gəncə şəhərində anadan olub. 18 aprel 1994-cü ildə Gəncə şəhəri Nizami Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Tərtər döyüşlərində iştirak edib. 2 may 1994-cü ildə Tərtər rayonunun Cəmilli kəndi yaxınlığında əsir götürülüb.

Erməni əsirliyindən qayıtmış Zaqatala rayonu Kəpənəkçi kənd sakini Əliyev Rəşad Bilal oğlunun verdiyi məlumata görə, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin İstintaq Təcridxanasında Nazimlə qonşu kameralarda saxlanılıblar.

Bakı şəhəri, Ə.Əliyev küçəsi, ev 39, mənzil 116-da yaşayan erməni əsirliyindən azad olunmuş Cəfərov Elçin Ənvər oğlu ərizəsində Ermənistan Dövlət Təhlükəsizlik Komitəsinin İstintaq Təcridxanasında saxlanılan zaman Məmmədov Nazimi orada gördüyünü və onunla söhbət etdiyini bildirib.

Mammadov Nazim Tofig oglu

Mammadov Nazim Tofig oglu was born in Ganja city of Azerbaijan Republic in 1963. On the 18th of April 18, 1994 he was called up by the Military Registration and Enlistment Office of Nizami district of Ganja city. Nazim took part in the fights for Terter district. On the 2nd of May, 1994 during the fight for Jamilli village of Terter he was taken prisoner.

According to the information of Aliyev Rashad Bilal oglu who lived in Kapanakchi village of Zagatala district and returned from Armenian captivity, he was kept in the next cell with Nazim in Investigatory Isolation of Armenian Committee of State Security.

Jafarov Elchin Anvar oglu who released from Armenian captivity (he lives in Baku, A. Aliyev Street, 39/116) wrote a statement that when he was kept in Investigatory Isolation of Armenian Committee of State Security he saw Mammadov Nazim there and could talk to him.

Məmmədov Niyaməddin Vaqif oğlu

1979-cu ildə anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri erməni silahlıları tərəfindən işğal olunan zaman ailə üzvləri ilə birlikdə girov götürülüb.

Xalası - Bakı şəhəri, Nərimanov rayonu Qarabağ küçəsi 24, mənzil 1-də yaşayan Məmmədova Əsli İbrahim qızının verdiyi məlumata görə, həmin gün bacısı Məmmədova Afilə İbrahim qızı, onun həyat yoldaşı Məmmədov Vaqif Şükür oğlu və 3 oğlu - Məmmədov Niyaməddin, Məmmədov Ceyhun və Məmmədov Azər ilə birlikdə ərazini tərk edən zaman Əsgəran rayonu qarşısındakı meşədə ermənilər Vaqifi öldürüb, ailə üzvlərini girov götürüblər.

Xocalı sakini Əzimov Aydın Abbasqulu oğlunun verdiyi məlumata görə, işğal günü şəhəri tərk edən sakinlər vahimə içində Ağdama tərəf üz tutublar. Yolda onun anasını, qardaşını və bacısını öldürüblər. Meşədə Aydınla atası Abbasqulunu, Afiləni oğlanları ilə birlikdə görüblər. Məmmədovlar meşədə gecələmək istədiklərini deyiblər. Aydınla atası onları fikirlərindən daşındıra bilməyiblər. Onlar meşədə qalıblar. Aydıngil isə səhərə qədər yol gedib, Ağdama çatıblar. Sonradan onlar nə Afiləni, nə də onun oğlanlarını bir daha görməyiblər.

Hərbi əsir Bədəlov Vüqar Hamlet oğlunun atası - Bakı şəhəri, General Şıxlinski küçəsi, ev 54, mənzil 10-da yaşayan Bədəlov Hamlet Cəmil oğlunun Gürcüstan Respublikasının Sadaxlı kəndində Karo adlı ermənidən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Niyaməddin Vaqif oğlunun da adı olub. Həmin əsirlər Ermənistanın Spitak şəhərində, hərbi şəhərcikdə, 306-cı məhəllə, ev 1, mənzil 19-da - Karonun tanışı Dadamyan Suren Arturoviçin evində saxlanılıblar.

Mammadov Niyamaddin Vagif oglu

Mammadov Niyamaddin Vagif oglu was born in 1979. On the 26th of February, 1992 during occupation of Khojali by Armenians he was taken hostage with other members of his family.

According to the information of his aunt Mammadova Asli Ibrahim gizi (she lives in Baku, Narimanov district, Garabagh street, 24/1), her sister Mammadova Afila Ibrahim gizi, her sister's husband Mammadov Vagif Shukur oglu and 3 sister's sons Mammadov Azar, Mammadov Jeyhun, Mammadov Niyamaddin tried to leave the territory during occupation of Khojali, but Vagif was killed by Armenians near the forest of Asgaran district and the members of family were taken prisoners.

According to the information of Azimov Aydin Abbasgulu oglu who lived in Khojali, during the day of Khojali's occupation they left the territory and panic-stricken people went in direction of Aghdam. His mother, brother and sister were killed on the way. Aydin with his father Abbasgulu and Afil's sons had been seen in the forest. The Mammadovs wanted to spend the night at the forest. Aydin's father couldn't make them change the mind. They stayed at the forest. Aydin and others continued their way till the morning and reached Aghdam. Afterwards he saw neither Afil nor his sons.

Badalov Hamlet Jamil oglu (he lives in Baku, General Shikhlinsky Street, 54/10), father of prisoner of war Badalov Vugar Hamlet oglu got a list of Azerbaijani prisoners and hostages from an Armenian Karo in Sadakhli village of Georgia. There was the name of Mammadov Niyamaddin in that list. Those prisoners were kept in military settlement in Spitak of Armenia, 306 quarter, building 1, app. 1 at the flat of Dadamyan Suren Arturovich who was a friend of Karo.

Məmmədov Qafur Nurəddin oğlu

1966-cı ildə anadan olub. 29 mart 1993-cü ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Kəlbəcər rayonu uğrunda döyüşlərdə ermənilər tərəfindən əsir götürülüb.

Bu məlumatı onun həyat yoldaşı - Bakı şəhəri, Xətai rayonu, Cavanşir küçəsi, ev 6, mənzil 43-də yaşayan Məmmədova Pərvanə Zabit qızı verib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşan Tağıyev Məmməd Qaçay oğlu ərizəsində erməni polisinin əməkdaşı Albert Voskanyandan Məmmədov Qafurun əsir götürülüb, Dağlıq Qarabağda saxlandığı barədə öyrəndiyini bildirib.

Mammadov Gafur Nuraddin oglu

Mammadov Gafur Nuraddin oglu was born in 1966. On the 29th of March, 1993 he was called up by the Military Registration and Enlistment Office of Khatai district. During the fight for Kelbajar Gafar was taken prisoner.

That information was given by his wife Mammadova Parvana Zabit gizi (she lives in Baku, Khatai district, Javanshir Street6/43).

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district) and engaged in change of hostages and prisoners, an Armenian policeman Albert Voskanyan informed him that Mammadov Gafur was taken prisoner and kept in Garabagh.

Məmmədov Qurban Qaraxan oğlu

1924-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 17 may 1992-ci ildə Minkənd kəndi ermənilər tərəfindən işğal olunan gün ailə üzvləri ilə girov götürülüb. Gorus rayonunun Qaraunc kəndində yerləşən maldarlıq fermasında təsərrüfat işlərinə cəlb edilib.

Bu məlumatı Məmmədov Qurbanın qohumu, Bakı şəhəri, Ceyranbatan qəsəbəsi,

Mammadov Gurban Garakhan oglu

Mammadov Gurban Garakhan oglu was born in Minkand village of Lachin district of Azerbaijan in 1924. On the 17th of May, 1992 during occupation of Minkand village by Armenians he was taken prisoner with fellows of his family. Gurban was taken to the stock-breeding farm in Garaunj village of Gorus district of Armenia and forced for agricultural work.

That information was given by Mamma-

Nizami küçəsi, ev 4, mənzil 47-də yaşayan, o vaxtlar Qubadlı Rayon Polis Şöbəsində işləyən İsgəndərov Fərman Soltan oğlu verib. Onun yazdığına görə, həmin məlumatı Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoyluntsdan öyrənib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əsir və itkin düşmüş azərbaycanlıların siyahısında Məmmədov Qurbanın da adı olub və onun Gorus rayonunda saxlandığı göstərilib.

dov Gurban's relative Isgsandarov Farman Soltan oglu who was the head of Police Department of Gubadli district (he lives in Baku, Jeyranbatan settlement, Nizami street 4/47). According to his words, he found out that information from chief of police department of Gorus district Mikhail Khoyluntdan.

According to the list of missing persons presented by Ministry of Defense of Azerbaijan Republic there was the name of Mammadov Gurban. It's shown that he was kept in Gorus district.

Məmmədov Ramazan Qasım oğlu

1942-ci ildə anadan olub. 3 sentyabr 1993-cü ildə Gürcüstan Respublikası Bolnisi rayonunun Kvemo kəndi yaxınlığında həmkəndlisi Göyüşov Yolçu Əhməd oğlu ilə birlikdə mal-qara otararkən ermənilər tərəfindən girov götürülüb və Ermənistana aparılıb. Onlar əvvəlcə Tarşapet rayonunun Sarçapet kəndində, sonra isə Vanadzor şəhərində saxlanılıblar.

Bu faktı «Beynəlxalq Amnistiya» təşkilatının Almaniya və Monqolustanda fəaliyyət göstərən qrupları da təsdiq ediblər.

Mammadov Ramazan Gasim oglu

Mammadov Ramazan Gasim oglu was born in 1942. On the 3rd of September, 1993 when Ramazan with his villager Goyushov Yolchu Ahmed oglu grazed the cattle in Kvemo village of Bolnisi district of Georgia, he was taken hostage and sent to Armenia. At first they were kept in Tarchapet village of Sarshapet district and then in Vanadzor town.

That fact was confirmed by working group of «International Amnesty» organization in Germany and Mongolia.



Məmmədov Rövşən Ərşad oğlu

1969-cu ildə Füzuli rayonunun İşıqlı kəndində anadan olub. Könüllü olaraq Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 4 iyul 1993-cü ildə Hadrut rayonunun Məlikcan kəndində yaralı vəziyyətdə əsir götürülüb.

Qardaşı - Füzuli rayonu İşıqlı kənd sakini Məmmədov Nadir Ərşad oğlunun verdiyi məlumata görə, Rövşən əsgərləri erməni mühasirəsindən çıxaran zaman yaralanıb və əsir götürülüb. Erməni tərəfi onu Piroyev Andrey Borisoviçlə dəyişmək istəyib. Lakin həmin adam tapılmadığı üçün dəyişmə baş tutmayıb.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşan Kazımov Əhəd Musa oğlu ərizəsində yazıb ki, 1993-cü ildə erməni polisinin əməkdaşı Edik onunla radiodanışıq zamanı Rövşənin Dağlıq Qarabağın Hadrut şəhərində saxlandığını deyib.

Mammadov Rovshan Arshad oglu

Mammadov Rovshan Arshad oglu was born in Ishigli village of Fuzuli district of Azerbaijan Republic in 1969. On the 1st of March, 1992 he voluntarily took part in fights for Garabagh. On the 4th of July, 1993 Rovshan was wounded and taken prisoner in Malikjan village of Hadrut district.

According to the information of his brother Mammadov Nadir Arshad oglu who lived in Ishigli village of Fuzuli district, Rovshan broke out of encicrlment for soldiers and then he was wounded and taken prisoner. Armenian side wanted to change him for Piroyev Andrey Borisovich. But the change failed because it was impossible to find him.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli (he lives in Allahyarli village of Beylagan district) wrote a statement that he found out from Armenian policeman Edik by radio communication that Mammadov Rovshan was kept in Hadrut town of Upper Garabagh in 1993.



Məmmədov Saday Süleyman oğlu

1936-cı ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı sakinləri ilə Saday Məmmədov (Milli qəhrəman Əlif Hacıyevin əmisidir) də səhərə kimi er-

Mammadov Saday Suleyman oglu

Mammadov Saday Suleyman oglu was born in Khojali town of Azerbaijan Republic in 1936. On the 26th of February, 1992 during the day of Khojali's occupation by Armenian armed forces, Saday Mamma-

mənilərə qarşı müqavimət göstərib, lakin məğlub olduqlarını gördükdə geri çəkilib. O, qardaşı Hacıyev Lətif Süleyman oğlu, əmisi qızı Əliyeva Filyar və onun qızı ilə birlikdə Xocalını tərk etməli olub. Qarqar çayının sahilində ermənilər onları mühasirəyə alıb, güclü atəşə tutulublar. Həmin vaxt Saday ayağından yaralanıb, yerə yıxılıb.

Bu məlumatı erməni əsirliyindən azad olduqdan sonra Bakı şəhəri, Əzizbəyov rayonu Qala kəndində məskunlaşmış Xocalı şəhər sakini Aslanov Qəyyum Bəhram oğlu verib. Onun dediyinə görə, Sadaya yardım etmək istədikdə ermənilər buna imkan verməyib, yaralı Məmmədovu orada saxlayıb, Qəyyum da daxil olmaqla digər girovları traktor qoşqusunda Xankəndi şəhərinin köhnə avtovağzalına aparıblar.

Bu faktı erməni girovluğundan qayıtdıqdan sonra Naftalan şəhərində yerləşən «Goran» sanatoriyasında məskunlaşmış Xocalı şəhər sakini, Sadayın əmisi nəvəsi Məmmədova Yeganə Hüseyn qızı da təsdiq edib.

Oğlu-Naftalan şəhərində «Qarabağ» sanatoriyasında məskunlaşmış Xocalı şəhər sakini Məmmədov Xasay Saday oğlunun məlumatına görə, 1993-cü ilin əvvəllərində Laçın rayonunun Ağca kəndindən olan Budaq adlı döyüşçü Ağdam rayonu ərazisindəki Yeddi xırman yüksəkliyində, əslən Əsgəran rayonu Xanəzən kənd sakini, milliyyətcə erməni traktorçu Arşakdan Sadayın sağ olduğunu öyrənib. Budağın dediyinə görə, hətta Arşak Sadaya isti paltar da verib.

dov (the uncle of national hero Alif Hajiyev) with residents showed resistance against Armenians but they were defeated and made a fighting retreat. Saday, his brother Hajiyev Latif Suleyman oglu, uncle's daughter Aliyeva Filyar and her daughter had to leave Khojali. Armenians surrounded them on the border of the Gargar river and fired upon them. At that moment Saday was wounded in leg and fell on the ground.

That information was given by Aslanov Geyyum Bahram oglu who released from Armenian captivity and lived in Khojali town (at present he lives in Baku, Azizbeyov district, Gala village). According to his words, he wanted to help Saday but Armenians didn't give an opportunity. Wounded Mammadov fell on the ground. Armenians took other prisoners including Geyyum to the trailer of tractor and sent them to an old auto terminal.

That fact was confirmed by the granddaughter of Saday's uncle Mammadova Yegana Huseyn gizi who returned from Armenian captivity (she lives in «Goran» sanatorium in Naftalan town).

His son Mammadov Khasay Saday oglu who lived in Khojali (he lives in «Garabagh» sanatorium in Naftalan) connected with Armenians on the front position at the beginning of 1993. When he searched for his father in Yeddi Khirman height of Aghdam district, a fighter whose name was Budag originally from Agja village of Lachin district said he found out from a tractor driver Arshak that Saday was alive.

Məmmədov Şaiq Fərman oğlu

1973-cü ildə Azərbaycan Respublikası Ağstafa rayonunun Həsənsu kəndində anadan olub. 20 fevral 1993-cü ildə hərbi xidmətə çağırılıb. Ağdərə döyüşlərində iştirak edib. 2 mart 1993-cü ildə Ağdərə rayonu ərazisində, Sərsəng su anbarı uğrunda döyüşdə ayağından ağır yaralanaraq əsir götürülüb.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən (Yerevan telefonu: 63-60-70) aldığı azərbaycanlı əsir və girovların siyahısında Ermənistanın Gorus rayonunda saxlanılan Məmmədov Şaiqin də adı olub.

Mammadov Shaig Farman oglu

Mammadov Shaig Farman oglu was born in Hasansu village of Agstafa district of Azerbaijan Republic in 1973. On the 20th of February, 1993 he was called up for military service. Shaig took part in fights for Aghdara district. On the 2nd of March, 1993 he was wounded in leg and taken prisoner during the fight for Sarsang water barn in Aghdara district.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostges from Armenian whose name was Gagik (Yerevan, phone: 63-60-70) in Tbilisi and there was the name of Shaig in that list kept in Gorus district of Armenia.



Məmmədov Şakir Cavanşir oğlu

1955-ci ildə Azərbaycan Respublikasının Füzuli rayonunda anadan olub. Füzuli rayonu ərazisində yerləşən hərbi hissədə xidmət edib. 23 oktyabr 1993-cü ildə həmin rayonun Şükürbəyli kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı - Füzuli sakini, İmişli dəmiryol stansiyasında, vaqonda məskunlaşmış Məmmədov Əlövsət Cavanşir oğlunun izahatında Şakirin döyüş yoldaşlarından onların yük maşını ilə Füzuli rayonunun Hora-

Mammadov Shakir Javanshir oglu

Mammadov Shakir Javanshir oglu was born in Fuzuli district of Azerbaijan Republic in 1955. He served in a military unit in Fuzuli district. On the 23rd of October, 1993 during battle for Shukrubayli village of Fuzuli district Shakir was taken prisoner.

His brother Mammadov Alovsat Javanshir oglu who lived in Fuzuli district (he lives in wagon at Imishli railway station) wrote a statement that he learned from his brother's front-line comrades that they went by truck

diz qəsəbəsindən Yağlıvənd kəndinə gedən zaman ermənilər tərəfindən atəşə tutulduqlarını və həmin maşında Şakirin də olduğunu öyrənib. Sağ qalan hərbçilər Şakirgilin sonrakı taleyi həqqında məlumat əldə edə bilməyiblər.

Füzuli rayonu Yağlıvənd kənd sakini, hazırda Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun verdiyi məlumata görə, 1993-cü ilin noyabr ayında Edikdən aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Şakirin də adı olub. Onun Xocavənd şəhərində saxlandığı göstərilib.

from Horadiz settlement to Yaghlivand village of Fuzuli district, Shakir also was in that truck, when suddenly Armenians opened fire upon them. Being alive military men didn't know what happened to Shakir.

Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli (he lives in Allahyarli village of Beylagan) wrote a statement that he got a list of Azerbaijani prisoners of war from Armenian policeman Edik in 1993. There was the name of Mammadov Shakir in that list. It was shown that he was kept in town of Khojavand.



Məmmədov
Səyyaf
İsmayıl oğlu

1965-ci ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qiyaslı kəndində anadan olub. 1991-ci ildə hərbi xidmətə çağırılıb. 15 iyun 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndi uğrunda döyüş zamanı əsir götürülüb.

Ağdam ərazi özünümüdafiə batalyonunun sabiq komandiri, Bakı şəhəri, 2- ci mikrorayon, H. Əliyev küçəsi ev 1, mənzil 43-də yaşayan Əliyev Ağalar Xasay oğlunun verdiyi məlumata görə, əsir və girovların dəyişdirilməsi zamanı qarşı tərəfin nümayəndəsi Aleksandr Ağasaryandan aldığı 72 azərbaycanlı hərbi əsirin siyahısında Məmmədov Səyyafın da adı olub. Onun Şuşa şəhər həbsxanasında saxlandığı göstərilib.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində göstərib ki, 1993-cü ildə hərbi əsirlərin dəyişdirilməsi zamanı erməni polisinin əməkdaşı Albert Voskanyan

Mammadov
Sayyaf
Ismayil oglu

Mammadov Sayyaf Ismayil oglu was born in Giyasli village of Aghdam district of Azerbaijan Republic in 1965. He was called up to military service in 1991. On the 15th of June, 1992 during the fight for Sirkhavand village of Aghdara district Sayyaf was taken prisoner.

Former commander of Agdam self-defense battalion Aliyev Agalar Khasay oglu (he lives in Baku, 2nd Microdistrict, H. Aliyev Street, 1/43) informed that when he was engaged in change of prisoners, he got a list of 72 Azerbaijani prisoners of war from representative of the opposite side Alexander Agasaryan. There was the name of Mammadov Sayyaf in that list. It was shown that he was kept in Shusha prison.

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (now he lives in Machgara village of Beylagan district) and engaged in change of hostages and prisoners, Armenian policeman Albert Vos-

radioəlaqə vasitəsilə Məmmədov Səyyafın Şuşa həbsxanasında saxlandığını bildirib.

kanyan informed him by radio communication that Mammadov Sayyaf was taken prisoner and was kept in Shusha prison.



Məmmədov
Şirin
Muxtar oğlu

1946-cı ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qalayçılar kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. Ağdam rayonunun Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən əsir götürülüb.

Ağdam rayonu Maqsudlu kənd sakini, şəhid atası Mehdiyev Bayram Hüseyn oğlunun verdiyi məlumatda Qalayçılar kəndindən olan Şirin Məmmədovun Spitak şəhərində yerləşən həbsxananın 15-ci kamerasında saxlandığını bildirilib.

Erməni girovluğundan qayıtmış Laçın rayon sakini, Ağcabədi rayonunun «Taxtakörpü» düşərgəsində məskunlaşmış Kərimov Yusif Museyib oğlu ərizəsində yazıb ki, Məmmədov Şirin Spitak rayonundakı həbsxananın 15-ci kamerasında saxlanılıb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini (əvvəllər təhlükəsizlik orqanlarında işləyib) Mirzəyev Rafael Xalid oğluna 1993-cü ildə Azərbaycan və Ermənistan nümayəndələrinin görüşündə təqdim olunan azərbaycanlı əsir və girovların siyahısında Şirin Məmmədovun Ermənistanda saxlandığı göstərilib.

Hüseynov Akif Saleh oğlunun ermənilərdən əldə etdiyi 42 azərbaycanlı əsir və girovun siyahısında Məmmədov Şirinin adı olub.

Mammadov
Shirin
Mukhtar oglu

Mammadov Shirin Mukhtar oglu was born in Galaychilar village of Agdam district of Azerbaijan Republic in 1946. He took part in fights for Garabagh. Shirin was taken prisoner during the battle for Sirkhavand village of Aghdam.

Father of the dead soldier Mehdiyev Bayram Huseyn oglu who lived Magsudlu village of Aghdam informed that Shirin Mammadov who was from Galaychilar village was kept in prison cell № 15 of Spitak in Armenia.

Karimov Yusif Museyib oglu who lived in Lachin district (he lives in "Takhtakorpu" refugee camp) and returned from Armenian captivity wrote a statement that Shirin Mammadov was kept in prison cell № 15 of Spitak in Armenia.

Mammadov Shirin's name was also in a list of Azerbaijani prisoners of war presented by Mirzayev Rafael Khalid oglu, deputy chairman of Customs Committee of Azerbaijan (in the past he worked at security services) which he received by radio communication at front line between Azerbaijani and Armenian representatives in 1993. It was shown that he was kept in Armenia.

Mammadov Shirin's name was also in a list of 42 Azerbaijani prisoners of war gotten by Huseynov Akif Saleh oglu from Armenians.

Məmmədov
Söhbət
Məmməd oğlu

1976-cı ildə Ermənistanın Göyçə mahalında anadan olub. Məlum hadisələrlə bağlı Xocalıya pənah gətirib, orada məskunlaşıblar. Qarabağ münaqişəsi başlayandan Xocalını müdafiə edənlərin sırasında olub. 26 fevral 1992-ci ildə ailəliklə girov götürülüb. Sonradan anası, 3 qardaşı və bacısı azad olunub.

Erməni əsirliyindən qayıtmış Xocalı şəhər sakini, hazırda Naftalan şəhərində məskunlaşmış Əzizov Ramin İbrahim oğlunun verdiyi məlumata görə, 26 fevral 1992-ci ildə işğal olunmuş ərazini tərk edən zaman ermənilər onu Naxçivanik yolunda girov götürüb Əsgəran Rayon Polis Şöbəsinin təcridxanasına aparıblar. Orada Xocalı sakinləri Məmmədov Məmməd, onun 2 oğlu Söhbət və Möhnətlə bir gün eyni kamerada saxlanılıb. Səhər ermənilər Ramini başqa kameraya keçiriblər. Bir daha Məmmədovları görməyib.

Anası-Qobustan rayonunun Mərəzə kəndində məskunlaşmış Məmmədova Narxanım Heydərəli qızı ərizəsində yazıb ki, Xocalının işğalı zamanı Məmməd və oğlanları Möhnətlə Söhbət şəhəri müdafiə edənlərin sırasında olub. Erməni silahlıları dinc əhalini, girov götürüb, 6 gün Əsgəran qalasında saxlayıblar. Ermənilər onlardan qaradərili (zənci) muzdlu döyüşçünün meyidinin harada olduğunu soruşublar. Vəd ediblər ki, həmin meyit tapılsa, 85 nəfər girovu azad edəcəklər. Xocalılar qaradərili muzdlu döyüşçünün meyidini tapmaqda ermənilərə bələdçilik etdikdən sonra, onlar Narxanım, 2 oğlu və 1 qızı daxil olmaqla 85 girovu azad ediblər. Həyat yoldaşı Məmmədlə oğlanları Möhlət və Söhbət əsir saxlanılıb.

Mammadov
Sohbat
Mammad oglu

Mammadov Sohbat Mammad oglu was born in Goycha of Armenia in 1976. Armenians expatriated them from native land and then they moved into Khojali. When Garabagh conflict began, he was in ranks of who defended Khojali. On the 26th of February, 1992 Armenian occupied their town and with family they were taken prisoners. Then his mother, 3 brothers and sister were released.

According to the information of Azizov Ramin Ibrahim oglu who released from Armenian captivity and lived in Khojali (now he lives Naftalan town), when he left the occupied territory and ran away, Armenians took them on the way to Nakhchivanik and sent to the isolation of Police Department of Asgaran district on the 26th of February, 1992. He was kept in the same cell with Khojali's residents: Mammadov Mammad and his sons – Sohbat and Mohlat for a day. The next morning Ramin was sent to another cell. He didn't see the Mammadovs.

His mother Mammadova Narkhanim Heydarali gizi (she lives in Maraza village of Gobustan district) wrote a statement that during Khojali's occupation Mammad and his sons: Sohbat and Mohlat defended the town. Armenian armed forces took cell as hostages and kept them in Asgaran for 6 days. Armenians asked them about the corpse of foreign Negro fighter. They promised if they found his corpse, they would release 85 fighters. Khojali's residents found Negro fighter, they released 85 fighters including Narkhanim, 2 sons and daughter but her husband Mammad and 2 other sons: Mohlat and Sohbat weren't released.

Məmmədov
Vahid
Şahvələd oğlu

1961-ci ildə anadan olub. Mayor Məmmədov Vahid Bakı şəhəri Xətai Rayon Hərbi Komissarlığında işləyib. 1992-ci ilin yanvar ayında könüllü olaraq cəbhəyə yollanıb. 8 may 1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunan gün qaynı-hərbi həkim Hüseynov Ağası Rauf oğlu ilə birlikdə zirehli döyüş maşınında əsir götürülüb. Bu məlumatı döyüş yoldaşları onların axtarışı ilə məşğul olan yaxın qohumlarına deyiblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Qaqikdən (Yerevan tel: 63-60-70) aldığı qarşı tərəfdə saxlanılan azərbaycanlı hərbi əsir və girovların siyahısında Məmmədov Vahidin Dağlıq Qarabağda saxlandığı göstərilib.

Mammadov
Vahid
Shahvalad oglu

Mammadov Vahid Shahvalad oglu was born in 1961. Major Mammadov Vahid worked at the Military Registration and Enlistment Office of Khatai of Baku. In January of 1992 he voluntarily went to the front. On the 8th of may, 1992 during the day of Shusha's occupation Vahid with his brother-in-law Huseynov Agasi Rauf oglu by the armoured infantry machine went to the battle field and then they were taken hostages. That information was given by his front-line comrades when his relatives searched them.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got from Armenian Gagik (phone in Yerevan: 63-60-60) a list of Azerbaijani prisoners of war and hostages kept by Armenians. There was the name of Mammadov Vahid in that list. It was shown that he was kept in Upper Garabagh.

Məmmədov
Valeh
Şiraslan oğlu

1969-cu ildə anadan olub. Ermənilərin Qarabağa hücumları başlayan gündən könüllülər batalyonu tərkibində döyüşüb. 1992-ci il fevral ayının 21-dən 22-ə keçən gecə yaşadığı Füzuli rayonunun Veysəlli kəndinə ermənilərin qəfil hücumu zamanı Valeh xalası oğlu Tahirov Hüseyn və həmkəndlisi Qurbanov

Mammadov
Valeh
Shiraslan oglu

Mammadov Valeh Shiraslan oglu was born in 1969. When Armenians began to attack Garabagh he voluntarily joined the battalion. On the 21st of February, 1992 Armenians suddenly attacked Veysalli village of Fuzuli district. Valeh, his cousin Tahirov Huseyin and a villager Gurbanov Yunis

vahiməyə düşmüş kənd sakinlərini ərazidən çıxarmağa kömək ediblər. Döyüşə-döyüşə sakinləri kənddən çıxaran zaman biri-birlərindən ayrı düşüblər. Sonradan Valehi heç kim görməyib.

Bu məlumatı Valehin qardaşı - Füzuli rayonu Veysəlli kənd sakini, Sumqayıt şəhəri, 5-ci mikrorayon, ev 35, mənzil 41-də məskunlaşmış Məmmədov Saleh Şiraslan oğlu verib.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, hazırda Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Firəddin Əli oğlunun təqdim etdiyi Füzuli rayonundan itkin düşmüş vətəndaşların siyahısında Məmmədov Valehin də adı olub. Onun Xocavənd rayonunun Qırmızı Bazar kəndində saxlandığı göstərilib.

helped panic-stricken villagers to leave. During the fight people lost each other. After that Valeh saw none of them.

That information was given by his brother Mammadov Saleh Shiraslan oglu who lived Veysalli village of Fuzuli (now he lives in Sumgayit town, 5th microdistrict 35/41).

The former head of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked in 1992-1993 (he lives in the hostel № 4 of AMU, room № 205) got a list of missing persons in Fuzuli district. There was the name of Mammadov Valeh in the list It was shown that he was kept in Girmizi Bazar village of Khojavand district.

Məmmədov Yalçın Habil oğlu

1973-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun Qərvənd kəndində anadan olub. Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbini bitirib. 1993-cü il fevral ayının 13-dən Ağdərə rayonu uğrunda döyüşlərdə iştirak edib. 21 fevral 1993- cü ildə Umudlu kəndi ətrafında gedən döyüşdə itkin düşüb.

Bakı şəhəri, Sabunçu rayonunda yerləşən Maşınqayırma zavodunun yataqxanasında məskunlaşmış keçmiş hərbi əsir Gülməmmədov Zaur Həsrət oğlunun verdiyi məlumata görə, 1992-1993-cü illərdə Xankəndi və Şuşa şəhərlərində əsirlikdə olan zaman əslən Ağdamdan olan Yalçın Məmmədovu görüb. Sonradan ermənilər

Mammadov Yalchin Habil oglu

Mammadov Yalchin Habil oglu was born in Garvand village of Agdam district of Azerbaijan Republic in 1973. He graduated from Baku Supreme Military Commom Forces Commanders' School. On the 13th of February, 1993 Yalchin took part in the battle for Aghdara district. He was missed during the battle for Umudlu village on the 21st of February, 1993.

According to the information of Gulmammadov Zaur Hasrat oglu (he lives in Sabunchu district machinery building plant's hostel) while being in captivity in 1992-1993 he was kept as a prisoner in Shusha and Khankandi. When he was in Shusha he saw there Yalchin Mammadov who was from Aghdam. Afterwards Armenians took him

onu dəyişmək adı ilə harasa aparıblar. Yalçının sonrakı taleyi məlum olmayıb.

Hərbi əsir Eyyubov Vadimin anası - Eyyubova Tamara Dağlıq Qarabağa səfəri zamanı Xankəndi hərbi xəstəxanasında işləyən Boris Şagenoviç və Arkadiy Abalyan adlı həkimlərlə görüşüb. Hərbi əsirlərin analarının iştirak etdiyi bu səfəri Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva təşkil edib. Boris Şagenoviç, Marqo və Anuş adlı tibb bacıları Vadimlə birlikdə orada müalicə olunmuş 7 azərbaycanlı hərbçini, o cümlədən Məmmədov Yalçını da tanıdıqlarını deyiblər.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan telefonu: 48-67-93) aldığı azərbaycanlı əsir və girovların siyahısında Məmmədov Yalçının da adı olub. Onun Ermənistanın Spitak şəhərində yerləşən 42411 saylı həbsxanada saxlandığı göstərilib.

away and told that he would be changed. Yalchin's further life is unknown.

Eyyubova Tamara – the mother of the prisoner of war Eyyubov Vadim while visiting Garabagh, had met doctors working in Khankandi hospital Boris Shagenovich and Arkadiy Abalyan. That visit of the mothers of prisoners of war was organized by Arzu Abdullayeva – chairman of Azerbaijani National Committee of Helsinki Civil Assembly. Boris Shagenovich and nurses Margo and Anush told that they knew Vadim and other 7 Azerbaijani military men among whom was Mammadov Yalchin. They were under medical treatment there in hospital.

Hueynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from Armenian Allaverdyan Shamir (phone in Yerevan 48 67 93) in Tbilisi. There was the name of Mammadov Yalchin in the list. It was shown that he was kept in prison № 42411 of Spitak in Armenia.



Məmmədov Yelmar Ağca oğlu

1968-ci ildə Azərbaycan Respublikası Şuşa şəhərinin Turşsu kəndində anadan olub. Şuşa Rayon Polis Şöbəsində polis nəfəri işləyib. 7 may 1992-ci ildə Şuşa şəhərini müdafiə edən polis əməkdaşı ilə birlikdə postda keşik çəkərkən ermənilər tərəfindən əsir götürülüb.

Bu faktı onun döyüş yoldaşı və həmkəndlisi - polis işçisi, Ağdam rayonunun Quzanlı kəndindəki «Alman» çadır şəhərciyində məskunlaşmış Məmmədov Şakir Yusif oğlu verib.

Qardaşı - Şuşa rayonu Turşsu kənd sa-

Mammadov Yelmar Aghja oglu

Mammadov Yelmar Aghja oglu was born in Turshsu village of Shusha town of Azerbaijan Republic in 1968. He was a policeman in Police Department of Shusha district. On the 7th of May, 1992 Yelmar was taken prisoner by Armenians together with policemen defending Shusha while they were on point duty.

That fact was confirmed by his front-line comrade and fellow-villager Mammadov Shakir Yusif oglu who was also policeman (he lives in «Alman» refugee camp in Guzanli village of Agdam district).

His brother Mammadov Mehman Aghja

kini, Ağcabədi rayonundakı çadır şəhərciyində məskunlaşmış Məmmədov Mehman Ağca oğlu Yelmarın Kirs dağının müdafiəsi zamanı ermənilər tərəfindən əsir götürüldüyünü təsdiq edib. 1993-cü ildə ona Helsinki Vətəndaş Assambleyasının Azərbaycan Milli Komitəsindən Mehmanın sağ olduğunu və Dağlıq Qarabağda saxlandığını bildiriblər.

Xocavənd rayonu Qaradağlı kənd sakini, Beyləqan rayonunun Maçqara kəndində məskunlaşmış Tağıyev Məmməd Qaçay oğlu ərizəsində yazıb ki, ermənilər ona radiodanışıqlar zamanı Məmmədov Yelmarı əsir götürüb, Xankəndində saxladıqlarını deyiblər.

Füzuli rayonu Yağlıvənd kənd sakini, Beyləqan rayonunun Allahyarlı kəndində məskunlaşmış Kazımov Əhəd Musa oğlunun bildirdiyinə görə, erməni polisinin əməkdaşları mayor Edik və podpolkovnik Boris Yesayan 1992-ci ildə radiodanışıq vasitəsilə 7 may 1992-ci ildə Kirs dağında əsir götürülmüş azərbaycanlı döyüşçülərin arasında Yelmar Məmmədovun da olduğunu bildiriblər.

oglu who lived in Turshsu village of Shusha (he lives in refugee camp in Aghjabadi district) confirmed that Yelmar was taken prisoner during defense of Kirs mountain. In 1993 he was informed by Azerbaijani National Committee of Helsinki Civil Assembly that Yelmar was alive and kept in Garabagh.

According to a statement of Tagiyev Mammad Gachay oglu who lived in Garadaghli village of Khojavand district (he lives in Machgara village of Beylagan district), Armenians told him by radio communication that Mammadov Yelmar was taken prisoner and kept in Garabagh.

According to the information of Kazimov Ahad Musa oglu who lived in Yaglivand village of Fuzuli (he lives in Allahyarli village of Beylagan) during radio communication with Armenians: policemen – major Edik and colonel-lieutenant Boris Yesayan, he learned that Mammadov Yelmar was among Azerbaijani soldiers who were taken prisoners in Kirs mountain in 1992.

Məmmədov Yusif Musa oğlu

1969-cu ildə Bakı şəhərində anadan olub. 1 may 1993-cü ildə Nərimanov Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Füzuli rayonunun Kürdmahmudlu kəndində yerləşən hərbi hissədə qulluq edib. Sonradan Alxanlı kəndindəki hərbi hissəyə göndərilib. 23 avqust 1993-cü ildə Alxanlı kəndinə ermənilərin hücumu zamanı Yusif 6 döyüş yoldaşı ilə birlikdə əsir götürülüb.

Mammadov Yusif Musa oglu

Mammadov Yusif Musa oglu was born in Baku in 1969. On the 1st of May, 1993 he was called up for military service by the Military Registration and Enlistment Office of Narimanov district and served at military unit in Kurdmahmudlu village of Fuzuli district. Afterwards he was sent to a military unit in Alkhanli village. On the 23rd of August, 1993 Yusif was taken prisoner with other 6 soldiers during attack on Alkhanli village.

Xalası - Bakı şəhəri, Böyük-Şor qəsəbəsi, Daş karxanası, ev 4-də yaşayan Məmmədova Faqət Şahmurad qızının verdiyi məlumata görə, erməni əsirliyindən qayıtmış Yusifin döyüş yoldaşı Emin onlara bacısı oğlunun əsir götürüldüyünü deyib. Emin 1995-ci il oktyabr ayının 28-də ermənilərin Bakı şəhərində metronun «Ulduz» və «Nərimanov» stansiyaları arasında törətdikləri terror aktı zamanı faciəli şəkildə həlak olub.

Qohumu -Neftçala rayonu Xalqaraqaşlı kənd sakini Abbasov İlqar Əfsus oğlunun bildirdiyinə görə, 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu yaxınlığında, Azərbaycan-Ermənistan sərhədində xidmət edərkən əslən Sumqayıt şəhərindən olan Asif adlı erməni hərbçisi ilə radioəlaqə yaradıb və Yusif haqqında məlumat əldə edib. Asif ona Məmmədov Yusifin əsir götürüldüyünü və Yerevan şəhərində, aeroport yolu yaxınlığında yerləşən sement zavodunda işlədildiyini bildirib.

According to the information of his aunt Mammadova Fagat Shahmurad gizi (she lives in Baku, Boyuk Shor settlement, 4 Rock quarry,) Yusif's front-line comrade Emin who returned from Armenian captivity told them that her nephew was taken prisoner. Emin has tragically died in terrorist attacks on subway stations "Narimanov" and "Ulduz" in Baku Metro on the 28th of October, 1995.

According to the information of his relative Abbasov Ilgar Afsus oglu who lived in Khalgaragashli village of Neftchala district, while serving in army in 1996 on the territory of Sadarak district of the Nakhchivan Autonomous Republic on the border between Azerbaijan and Armenia, he was able to connect by radio communication with Armenian Asif who in origin was from Sumgayit and learned from him that Yusif after being captured he was taken to Yerevan and worked there on cement works near the road to airport.

Məmmədov Zaur Nəsir oğlu

1975-ci ildə Bakı şəhərində anadan olub. 1994-cü ildə könüllü olaraq ordu sıralarına yazılıb. «Əzizbəyov» batalyonunun tərkibində Ağdam rayonu uğrunda döyüşdə iştirak edib. 20 aprel 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndində gedən döyüşdə itkin düşüb.

Türkan qəsəbəsi, Gənclər küçəsi, 11 saylı evdə yaşayan Zaurun anası Məmmədova Nənəxanım Hacıbaba qızı ərizəsində 1996-cı il sentyabr ayının 2-də Qızıl Aypara Cəmiyyətindən oğlunun erməni tərəfində əsir götürüldüyünü öyrəndiklərini yazıb.



Mammadov Zaur Nasir oglu

Mammadov Zaur Nasir oglu was born in Baku in 1975. In 1994 he voluntarily joined the army. Zaur took part in the fight for Aghdam allotted to "Azizbeyov" battalion. On the 20th of April, 1994 during the fight for Garvand village of Agdam district he was missed.

Zaur's mother Mammadova Nanakhanim Hajibaba gizi (she lives in Turkan settlement, Ganjlar Street, 11) wrote a statement that she found out from Society of Red Crescent on the 2nd September, 1996 that her son was taken prisoner by Armenians.

His father Mammadov Nasir Firdovsi oglu

Atası - Məmmədov Nəsir Firdovsi oğlunun (1996-cı ildə vəfat edib) verdiyi məlumata görə, əsirlikdən qayıtmış Quliyev Pənah Zakir oğlu Zauru Şuşa həbsxanasında saxlanılan zaman görüb.



Məmmədov Zaur Qəyyum oğlu

1975-ci ildə Azərbaycan Respublikası Tərtər rayonunun Leninabad kəndində anadan olub. Torpaqların müdafiəsində iştirak edib. 4 fevral 1992-ci ildə 5 döyüş yoldaşı ilə Ağdərə rayonu Madagiz kəndində gedən döyüşdən qayıtmayıb.

Qardaşı - Tərtər rayonu Leninabad kənd sakini Məmmədov Natiq Qəyyum oğlu məlumatında bildirib ki, 1994-cü ilin avqust-sentyabr aylarında Sarıcallı kənd sakini traktorçu Famil bir zabitdən Zaur haqqında məlumat öyrəndiyini deyib. Həmin zabitin dediyinə görə, erməni hərbçiləri döyüş xəttində qarşı tərəfdən qışqıraraq tərtərli Məmmədov Zaur Qəyyum oğlunun Gürcüstanla Ermənistan arasındakı sərhəd rayonunda saxlandığını deyiblər.

Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsi «Zuğulba» sanatoriyasında məskunlaşan, 1994-cü ildə əsir və girovların dəyişdirilməsi ilə məşğul olmuş Abdullayev Tofiq İsmayıl oğlu hərbi əsirlərin işi ilə əlaqədar komissiyanın sədri Albert Voskanyandan Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilmiş 37 azərbaycanlı əsirin siyahısını əldə edib. Həmin siyahıda Zaurun da adı olub və onun Şuşa şəhərində yerləşən erməni alayında saxlandığı göstərilib. Ermənilər həmin əsirləri jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyiblər. Dəyişmə baş tutmadığı üçün Məmmədov Zaurun sonrakı taleyi məlum olmayıb.

(died in 1996) informed that Guliyev Panah Zakir oglu who returned from captivity said that he saw Zaur in Shusha prison while being there.

Mammadov Zaur Gayyum oglu

Mammadov Zaur Gayyum oglu was born in Leninabad village of Terter district of Azerbaijan Republic in 1975. He took part in defense of native land. On the 4th of February, 1992 he didn't return with other 5 soldiers from the fight near Madagiz village of Aghdara district.

According to the information of his brother Mammadov Natig Gayyum oglu who lived in Leninabad village of Terter district, a tractor driver Famil from Sarijalli village told him that he found out from an officer some information concerning Zaur in Agust-September of 1994. According to the words of that officer Armenians cried on the front line and said that Mammadov Zaur Gayyum oglu was in a boundary district between Armenia and Georgia.

Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (he lives in "Zugulba" sanatorium in Buzovna settlement Baku) and engaged in change of prisoners and hostages in 1994, a chairman of commission for prisoners-of-war Albert Voskanyan gave him a list of 37 Azerbaijani prisoners hidden from ICRC. There was the name of Zaur among those 37 prisoners. It was shown that he was kept in an Armenian regiment in Shusha. Armenians wanted to change those prisoners for Arkadiy Ayriyan (nickname "Napoleon") – the killer of Azerbaijani journalist Salatin Asgarova.

Məmmədova Afilə İbrahim qızı

1949-cu ildə Azərbaycan Respublikasının Xocalı şəhərində anadan olub. 26 fevral 1992-ci ildə Xocalı şəhəri işğal olunan gün həyat yoldaşı - Məmmədov Vaqif, oğlanları Azər, Ceyhun və Niyaməddinlə birlikdə Ağdam istiqamətinə qaçarkən meşədə ermənilərin pusqusuna düşüblər. Ermənilər Afilənin həyat yoldaşını öldürüb, oğlanlarını isə özü ilə birlikdə girov götürüblər.

Xocalı sakini Əzimov Aydın Abbasqulu oğlunun verdiyi məlumata görə, həmin gün şəhəri tərk edən sakinlər vahimə içində Ağdama tərəf üz tutublar. Yolda onun anasını, qardaşını və bacısını öldürüblər. Meşədə Aydınla atası Abbasqulunu, oğlanları ilə Afiləni görüblər. Məmmədovlar meşədə gecələmək istədiklərini deyiblər. Aydınla atası onları fikirlərindən daşındıra bilməyiblər. Onlar meşədə qalıblar. Aydıngil isə səhərə qədər yol gedərək Ağdama çatıblar. Sonradan onlar nə Afiləni, nə də onun oğlanlarını bir daha görməyiblər.

Əldə olunan məlumatlara görə, ermənilər Məmmədovları girov götürüb, Ermənistana aparıblar.

Zaur's further life is unknown, because the change didn't realize.

Mammadova Afila Ibrahim gizi

Mammadova Afila Ibrahim gizi was born in Khojali town of Azerbaijan Republic in 1949. On the 26th of February, 1992 during occupation of Khojaly town she and her husband Mammadov Vagif Shukur oglu with 3 sons: Mammadov Azer Vagif oglu, Mammadov Jeyhun Vagif oglu, Mammadov Niyamaddin Vagif oglu ran towards Aghdam but they were ambushed by Armenians in the forest. Armenians killed her husband and took prisoner her and her sons.

According to information of Azimov Aydin Abbasgulu oglu who lived in Khojali, during occupation of town panic-stricken people tried to run towards Agdam. On the way Armenians killed his mother, brother and sister, he could run with father. In the forest he and his father Abbasgulu met Afila and her sons. The Mammadovs wanted to spend the night in the forest. Aydin and his father couldn't make them change their decision. They stayed in the forest but Aydin and his father walked till morning towards Agdam and could reach it. They haven't seen Afila and her sons any more since then.

According to the given information Armenians took the Mammadovs as hostages and sent to Armenia.

Məmmədova Ceyran Soltan qızı

1934-cü ildə Azərbaycan Respublikası Laçın rayonunun Minkənd kəndində anadan olub. 17 may 1992-ci ildə Minkənd kəndi ermənilər tərəfindən işğal olunan gün ailə üzvləri və yaxın qohumları ilə girov götürülərək Ermənistanın Gorus rayonunun Qaraunc kəndinə aparılıb. Orada yerləşən maldarlıq fermasında saxlanılaraq təsərrüfat işlərinə cəlb edilib.

Bu məlumatı Məmmədova Ceyranın qardaşı - Bakı şəhəri, Ceyranbatan qəsəbəsi, Nizami küçəsi, ev 4, mənzil 47-də yaşayan İsgəndərov Fərman Soltan oğlu verib. Onun yazdığına görə, Məmmədovlar girov götürülən zaman Qubadlı Rayon Polis Şöbəsində işlədiyi üçün həmin məlumatı Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoyluntsdan öyrənib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyində Laçın rayonundan əsir və itkin düşmüş azərbaycanlıların siyahısında Məmmədova Ceyranın da adı var. Onun Ermənistanın Gorus rayonunda saxlandığı göstərilib.

Mammadova Jeyran Soltan gizi

Mammadova Jeyran Soltan gizi was born in Minkand village of Lachin district of Azerbaijan in 1934. On the 17th of May, 1992 during occupation of Minkand village by Armenians she was taken prisoner with other members of her family and close relatives and was taken to Garaunj village of Gorus district of Armenia to a stock-breeding farm and was forced for agricultural work there.

That information was given by the brother of Mammadova Jeyran - Isgandarov Farman Soltan oglu (he lives in Baku, Jeyranbatan settlement, Nizmai Street, 4/47). He wrote that he could get that information from the head of Police Department of Gorus district Mikhail Khoyluntsd because the Mammadovs were taken prisoners in Gubadli district.

According to a list of prisoners and hostages in Lachin district given by the Ministry of Defense of Azerbaijan Republic Mammadova Jeyran's name was also in that list. It was shown that she was kept in Gorus district of Armenia.

Məmmədova Lətifə İbad qızı

1928-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Xələfli kəndində anadan olub. Sonradan Xocavənd rayonunun Günəşli kəndinə köçüb. 2 iyul 1993-cü ildə ermənilər həmin kəndə hücum etdikləri zaman qardaşı Qəhrəmanov Şamil Adil oğlu ilə birlikdə girov götürülüb.

Qızı - Bakı şəhəri, 10-cu Bayıl döngəsi, ev 1-də yaşayan Qəhrəmanova Fitat Xəlil qızının verdiyi məlumata görə, atası və əmisi kəndləri işğal olunan gün ermənilər tərəfindən girov götürülüb. Erməni əsirliyindən qayıtmış Cəbrayıl rayonu Şahvəlli kənd sakini Maqsudov Əhməd Abbas oğlu ona Qəhrəmanov Xəlilin və Şamilin Xocavənd rayonunda girov saxlandıqlarını deyib. Əhməd qeyd edib ki, Qəhrəmanov qardaşlarını erməni evlərində mal-qara otaran görüb.

Erməni əsirliyindən azad olunmuş Cəbrayıl rayonu Soltanlar kənd sakini Məmmədov Əli Məhəmməd oğlu da bu faktı təsdiqləyib.

Gahramanov Khalil Adil oglu

Gahramanov Khalil Adil oglu was born in Khalafli village of Jabrayil district of Azerbaijan Republic in 1928. Then he moved into Guneshli village of Khojavand district. On the 2nd of July, 1993, while Armenians attacking Guneshli village of Khojavand district, Khalil with his brother Gahramanov Shamil Adil oglu was taken prisoner.

According to his daughter's information Gahramanova Fitat Khalil gizi (she lives in Baku, 10 Bayil quarter, app.1), during occupation of their village her father and uncle were taken hostages. Magsudov Ahmed Abbas oglu who lived in Shahvalli village of Jabrayil district and returned from Armenian captivity said that Gahramanov Khalil and Shamil were kept as hostages in Khojavand district. Ahmed noted that he saw Gahramanov's brothers grazed the cattle.

Mammadov Ali Mahammad oglu who lived in Soltanlar village of Jabrayil district and released from Armenian captivity confirmed that fact.

Qəribov Zaur Rafiq oğlu

1975-ci ildə Azərbaycan Respublikasının Ağcabədi rayonunda anadan olub. 4 yanvar 1994-cü ildə Ağdam rayonunun Mərzili kəndi uğrunda göyüşdə əsir götürülüb.

Qəribov Zaurun qohumu-Ağcabədi rayonu, Qarabağ küçəsi 38-də yaşayan Məmmədov Əli Ələkbər oğlunun bildirdiyinə görə, 11 may 1994-cü ildə bir nəfər naməlum şəxs ona yaxınlaşaraq Qəribov Zauru tanıyıb-tanımadığını soruşub. Müsbət cavab aldıqda Zaurla birlikdə əsirlikdə olduğunu və Ermənistanın Sisyan rayonunda yaşayan erməni zabitin evini təmir etdiklərini, ev sahibinin pasportunu oğurlayaraq erməni adı ilə yük qatarında Gürcüstan ərazisindən keçərək gəldiyini söyləyib. Həmin adam Zaurun ona Ağcabədi polis şöbəsinə gedib, orada yeməkxanada işləyən qohumu Məmmədov Əlini tapıb sağ olduğunu söyləməsini xahiş edib. Məmmədov həyəcandan naməlum adamın adını belə soruşmağı unudub.

Garibov Zaur Rafig oglu

Garibov Zaur Rafig oglu was born in Aghjabadi district of Azerbaijan Republic in 1975. On the 4th of January, 1994 during the fight for Marzili village of Aghdam district he was taken prisoner.

According to the information of Zaur's relative - Mammadov Ali Akber oglu (he lives in Aghjabadi district, Qaradagh Street, 38) someone came up to him and asked if he khew Garibov Zaur on the 11th of May, 1994. When the man got the positive answer, he said that with Zaur, they were taken prisoners. While he repaired a house of Armenian in Sisiyan district, they stealed the passport of owner and as Armenians went to Georgia by goods train. That man went to Aghjabadi Police Department, found his relative Mammadov Ali who worked there at the canteen and said that Zaur was alive. Mammadov was so excited that forgot to ask his name.



Qocayev Əlövsət Qocabəy oğlu

1974-cü ildə Azərbaycan Respublikasının Xaçmaz rayonu Şıxlar kəndində anadan olub. 28 mart 1993-cü ildə Xaçmaz Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Sabunçu tabo-

Gojayev Alovsat Gojabey oglu

Gojayev Alovsat Gojabey oglu was born in Shikhlar village of Khachmaz district of Azerbaijan Republic in 1974. On the 28th of March, 1993 he was called up for military service by the Military Registration

runun tərkibində Ağdam uğrunda döyüşlərdə iştirak edib. 11 aprel 1994-cü ildə Ağdam rayonunun Cəvahirli kəndində gedən döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Atası-Xaçmaz rayonu Şıxlar kənd sakini Qocayev Qocabəy Talıb oğlu Əlövsətin axtarışı zamanı döyüş yoldaşlarından onun son döyüşdə əsir götürüldüyünü və Hadrut rayonunda saxlandığını öyrənib.

Döyüş yoldaşı-Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsi, Əfəndiyev küçəsi, ev 12/3, mənzil 5-də yaşayan Qəhrəmanov Şahin Xanlar oğlu izahatında Ağdamın Cəvahirli kəndi uğrunda döyüşdə Əlövsətin ermənilər tərəfindən əsir götürüldüyünün şahidi olduğunu və qarşı tərəflə aparılan radiodanışıqlar zamanı onun Hadrut rayonunda saxlandığını öyrəndiklərini yazıb.

and Enlistment Office of Khachmaz district. Alovsat took part in the fight for Aghdam district allotted to Sabunchu battalion. On the 11th of April, 1994 during the fight in Javahirli village of Aghdam district he was taken prisoner by Armenians.

His father – Gojayev Gojabey Talib oglu who lived in Shikhlar village of Khachmaz district informed that while searching for Alovsat, his front-line comrade said that he was taken prisoner and kept in Hadrud village during the last fight.

His front-line comrade Gahramanov Shahin Khanlar oglu (he lives in Sumgayit town, Inshaatchilar settlement, Afandiyev street 12/3, app. 5) wrote a statement that during the fight for Javahiler village of Aghdam, Alovsat was taken prisoner by Armenians and during radio communication it was found out that he was kept in Hadrud district.



Qocayev Elsevər Sabir oğlu

1970-ci ildə Azərbaycan Respublikası Qəbələ rayonunun Vəndam kəndində anadan olub. 1994-cü ildə könüllü olaraq Qarabağ uğrunda döyüşlərə yollanıb. 19 aprel 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndində əsir götürülüb.

Atası-Qəbələ rayonu Vəndam kənd sakini Qocayev Sabir Əhmədxan oğlu ərizəsində yazıb ki, Elsevər əsir düşəndən bir qədər sonra Bakı şəhərində yaşayan qardaşı Güləhməd onlara gəlib, erməni millətindən olan Elmira adlı bir qadının onlara zəng vurub, özünü işğal olunmuş Xankəndi şəhərində yerləşən erməni alayının qərargah rəisinin müavini kimi təqdim etdiyini bildirib. Həmin qadın Elsevərin sağ olduğu-

Gojayev Elsevar Sabir oglu

Gojayev Elsevar Sabir oglu was born in Vandam village of Gabala district of Azerbaijan Republic in 1970. In 1994 he voluntarily was sent to fight for Garabagh. On the 19th of April, 1994 during the fight in Gulluje village of Aghdam district Elsevar was taken prisoner.

His father – Gojayev Sabir Ahmedkhan oglu who lived in Vandam village of Gabala district wrote a statement when Elsevar was taken prisoner, his brother Gulahmed who lived in Baku went to his place. An Armenian Elmira who represented herself as a chief of staff of Khankandi regiment rang them up. That woman said

nu, Xankəndi şəhərində yerləşən «Çor» alayında saxlandığını və azad olunması üçün Güllücə kəndində əsir götürülmüş 3 erməni ilə dəyişməyi təklif edib. Həmçinin Elmira öz əlaqə nömrəsini də verib: 4-32-58. Əmisi Elsevərlə telefonla danışıb, atasının tez bir zamanda onu azad edəcəyinə söz verib. 25 aprel 1994-cü ildə Qocayev Sabir qardaşıgildən oğlu ilə telefonla danışıb. Bir saat sonra Rusiya Federasiyasının Pyatiqorsk şəhərindən Valerik adlı erməni zəng vuraraq Elsəvəri öz evində saxlayacağını, ona qulluq edəcəyini bildirib. Valerik onlara əlaqə telefonunun 7-07-99 olduğunu deyib. Əsir götürülmüş ermənilər tapılmadığı üçün Elmira təkrar zəng vurub, 20 milyon rus rublu tələb edib. Sonradan danışıb, qiyməti 16 milyona endirib. Qocayev Sabir tələb olunan pulu Marneuli rayonu ərazisində Elmiraya verib. Qadın pulu alıb, guya Elsəvəri gətirməyə gedib. Qocayev 3 dəfə Qəbələdən Marneuliyə gedib. Sonuncu dəfə Elmira evində onu erməni hərbçiləri ilə qarşılayıb. Ermənilər onu tutub, bir neçə gün Ermənistan Respublikası Dövlət Təhlükəsizlik Komitəsinın istintaq təcridxanasında saxlayıb, ona hədə-qorxu gəldikdən sonra buraxıblar.

Erməni əsirliyindən qayıtmış, Şəki rayonu Sarıca kənd sakini Bayramov Mehman Telman oğlu, Bakı şəhəri, Əhmədli şosesi, ev 34/103-də yaşayan İsmayılov Asif Sakit oğlu və Şəki rayonu Zunud kənd sakini Eyyubov Fikrət Qurban oğlu Xankəndindəki «Çor» erməni alayında Qocayev Elsevərlə birlikdə saxlandıqlarını bildiriblər.

that Elsevar was alive, kept in "Chor" regiment in Khankandi town and offered to change Elsevar for 3 Armenian prisoners taken in Gulluje village. Elmira gave her contact phone: 4-32-58. His uncle talked to Elsevar and promised that his father would release him soon. On the 25th of April, 1994 Gojayev Sabir talked to his son from his brother's place. An hour later Armenian Valerik from Pyatigorsk city of RF rang them up and said that Elsevar was kept in his house, he would take care about him. Valerik gave him contact phone: 7-07-99. They couldn't find prisoners, Elmira rang them up and demanded 20 million Russian rubles. Then she talked and went up the price for 16 million of Russian rubles. Gojayev Sabir gave money to Elmira in Marneuli district. The woman took money and went for Elsevar supposedly. Gojayev went to Marneuli from Gabala for 3 times. Last time Elmira met him in her house with Armenian military men. Armenians took him and kept in investigatory isolation of Committee of State Security.

Bayramov Mehman Telman oglu who lived in Sarija village of Shaki district, Ismayilov Asif Sakit oglu who lived in Baku, Ahmedi Highway, app. 34/103 and Eyyubov Fikret Gurban oglu who lived in Zunud village of Shaki and who returned from Armenian captivity informed that together with Gojayev Elsevar, they were kept in "Chor" Armenian regiment in Khankandi.

Quliyev Adil Məhəmməd oğlu

1969-cu ildə Azərbaycan Respublikası Tərtər rayonunun Qaynaq kəndində anadan olub. Qarabağ uğrunda döyüşlərdə iştirak edib. 2 aprel 1993-cü ildə Ağdərə rayonunun Qlobus yüksəkliyi uğrunda döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Tərtər rayonu Qaynaq kənd sakini Quliyev Eldəniz Məhəmməd oğlunun verdiyi məlumata görə, 2 aprel 1993-cü ildə Ağdərə rayonunun Qlobus yüksəkliyi uğrunda döyüşdə hava dumanlı olduğundan döyüşçülər ermənilərin əvvəldən hazırladıqları pusquya düşüblər. Döyüş bitdikdən sonra hərbçilər əraziyə baxış keçirən zaman meyitlərin arasından Adili tapmayıblar. 1994-cü ilin mart ayında ermənilər radioəlaqə yaradaraq Adili Ağdamın işğal olunmuş Şahbulaq adlanan ərazidə saxladıqlarını bildiriblər

Əsir Ağalarov Yaşarın atası-Goranboy rayonu Xanqərvənd kənd sakini Ağalarov Musa oğlunun axtarışı zamanı Əsgəran rayonu Daşuşen kənd sakini, Bakı şəhəri, Buzovna qəsəbəsindəki «Zuğulba» sanatoriyasında məskunlaşmış Abdullayev Tofiq İsmayıl oğlundan əldə etdiyi məlumata görə, işğal olunmuş Şuşa şəhərindəki erməni alayının rəisi Armayis Saakyanın təsdiq etdiyi Xankəndi və Şuşa şəhərlərində yerləşən erməni alaylarında və şəxsi evlərdə saxlanılan 37 azərbaycanlı hərbi əsirin siyahısında Quliyev Adilin də adı olub. Əsirlər Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədiliblər. Qarşı tərəf onları jurnalist Salatın Əsgərovanın qətlinin təşkilatçısı, «Napoleon» ləqəbli Arkadi Ayriyanla dəyişmək istəyib. Ayriyan vəfat etdiyi üçün dəyişmə baş tutmayıb.

Guliyev Adil Mahammad oglu

Guliyev Adil Mahammad oglu was born in Gaynag village of Terter district of Azerbaijan Republic in 1969. He took part in fights for Garabagh. On the 2nd of April, 1993 during the fight for Globus heifght of Aghdara district he was taken prisoner by Armenians.

According to the information of his brother Guliyev Eldaniz Mahammad oglu who lived in Gaynag village of Terter district, the weather was foggy during the fight for Globus height of Aghdara district and Armenians made an ambush beforehand on the 2nd of April, 1993. When the fight was over, military men watched over the territory and Adil wasn't among the corpses. In March of 1994 Armenians connected by radio communication and informed that Adil was kept in Shahbulag village of Aghdam.

The father of prisoner of war Agalarov Yashar Musa oglu – Agalarov Musa who lived in Khangarvand village of Goranboy district got information from Abdullayev Tofig Ismayil oglu who lived in Dashushen village of Asgaran district (at present he lives in sanatorium "Zugulba" in Baku, Buzovna settlement) that the chief of Armenian regiment Armayis Saakyan in Shusha confirmed the list of 37 Azerbaijani prisoners of war hidden from ICRC. They were kept in Armenian regiment in Khankandi and Shusha and the private houses. There was the name of Guliyev Adil in that list. The opposite side wanted to change them for a killer of Azerbaijani journalist Salatin Asgarova – Arkadi Ayriyan whose nickname was «Napoleon». Ayriyan died and the change didn't realize.

That fact was confirmed by the father of prisoner of war Humbatov Khalid Ali oglu –

Bu faktı hərbi əsir Hümbətov Xalidin atası Kəlbəcər rayonu Halçalı kənd sakini Hümbətov Əli, hərbi əsir Muxtarov Telmanın atası-Hacıqabul rayonu Nəvahi kənd sakini Muxtarov Əlisahib, hərbi əsir İsayev Bəxtiyarın atası-Bakı şəhəri, Motodrom massivi ev 8-də yaşayan İsayev Səfər Əli oğlu da təsdiq edib.

Humbatov Ali who lived in Halchali village of Kelbajar district, the father of prisoner of war Mukhtarov Telman Alisahib oglu – Mukhtarov Alisahib who lived in Navahi village of Hajigabul district, the father of prisoner of war Isayev Bakhtiyar oglu – Isayev Bakhtiyar who lived in Baku, Motodrom massif, 8.

Quliyev Aqil Mehralı oğlu

1969-cu ildə Azərbaycan Respublikasının Zəngilan şəhərində anadan olub. Çavuş Quliyev Aqil 1988-ci ildən Zəngilan Rayon Polis Şöbəsində işləyib. 23 oktyabr 1993-cü ildə ermənilər eyni zamanda Horadiz, Cəbrayıl və Zəngilan rayonuna hücum edərkən polis əməkdaşları ilə birlikdə Cəbrayıl rayonuna göndərilib. 25 oktyabr 1993-cü ildə polis işçiləri Bəşirov Fazil Arif oğlu (çavuş), Quliyev İlham İmamqulu oğlu (çavuş), İsmayılov İsmayıl Barat oğlu (çavuş), İsmayılov Möhlət Bəhmən oğlu (çavuş), Nərimanov Elşad Əvəz oğlu (bölmə komandiri, baş çavuş), Paşayev Sabir Əziz oğlu (sahə müvəkkili, leytenant) ilə birlikdə Cəbrayıl rayonunun Dərzili kəndi uğrunda döyüşdə əsir götürülüb.

Bu faktı onların qohumları Paşayev Əziz Şükür oğlu, Məmmədov Fəxrəddin Məhəmməd oğlu, Cəfərova Qızılgül İmamqulu qızı, Nərimanov Vidadi Əvəz oğlu və Qocayev Barat İsmayl oğlu da təsdiq ediblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu Qafan Rayon Polis Şöbəsində saxlanılan zaman həmin idarənin rəisi Eduard Varseqyan Zəngilan Rayon Polis Şöbəsinin əsir götürülmüş 7 polis əməkdaşını göstərərək onları tanıyıb-tanımadığını soruşub.

Guliyev Agil Mehrali oglu

Guliyev Agil Mehrali oglu was born in Zangilan of Azerbaijan Republic in 1969. In 1988 he worked at Zangilan district Polis Department. On the 23rd of October, 1993 when Armenians attacked Horadiz, Jabrayil and Zangilan districts at the same time, Agil with other policemen was sent to Jabrayil district. On the 25th of October, 1993 together with 6 policemen: Bashirov Fazil Arif oglu (sergeant), Guliyev Ilham Imamgulu oglu (sergeant), Ismayilov Ismayil Barat oglu (sergeant), Ismayilov Mohlat Behman oglu (sergeant), Narimanov Elshad Avaz oglu (the commander of sub-unit, sergeant), Pashayev Sabir Aziz oglu (district policeman, lieutenant) were taken prisoners during the fight for Derzili village of Jabrayil district.

That fact was confirmed by their relatives: Pashayev Aziz Shukur oglu, Mammadov Fakhraddin Mahammad oglu, Jafarova Gizilgul Imamgulu gizi, Narimanov Vidadi Avaz oglu and Gojayev Barat Ismayil oglu.

Yusifov Farhad Umud oglu who lived in Hamzali village of Gubadli district and returned from Armenian captivity said that when he was kept in Police Department of Gafan district, head of that district Edik showed him 7 policemen including Guliyev Agil Mehrali oglu and asked if he recognized them.



Quliyev Bayram Mədət oğlu

1925-ci ildə Azərbaycan Respublikası Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub. 31 mart 1993-cü ildə saat 15 radələrində yaşadıqları kənd ermənilər tərəfindən işğal olunan zaman Yazıdüzü adlanan yerdə şəxsi mal-qarasını otarırmış.

Bu məlumatı oğlu-Qubadlı rayonu Mahmudlu kənd sakini, Sumqayıt şəhəri, 41-ci məhəllədə yerləşən 6A saylı yataqxanada məskunlaşmış Quliyev Bəşir Bayram oğlu verib.

Bakı şəhərinin Xocasən kəndi, H. Sultanov küçəsi, ev 1-də yaşayan, Bakı-Sumqayıt şosesinin üstündə yerləşən «Xəzər-Lada» (keçmiş «VAZ») avtotəmir mərkəzində bağban işləyən Səfərov Ümidvar Mehbalı oğlu izahatında yazıb ki, 1999-cu ilin sentyabr ayında kənd yaxınlığındakı ərzaq məhsulları anbarında gözətçi işlədiyi vaxt oraya mal gətirən İran maşınlarının sürücülərindən biri-Mirzə adlı şəxs ona 1998-ci ilin qış aylarında İrandan Xankəndi şəhərinə asfalt apardığını, Füzuli-Xankəndi istiqamətində Xankəndinə 50-60 km qalmış mal-qara otaran milliyyətcə azərbaycanlı yaşlı bir kişinin əl qaldırıb, maşını saxlatdığını deyib. O, Qubadlı rayonunun Mahmudlu kənd sakini Bayram kişi olduğunu, ermənilər tərəfindən girov götürüldüyünü bildirib. Mirzədən Bəşir adlı oğluna onu azad etməyi çatdırmağı xahiş edib. Mirzə həmin məlumatı Ümidvar kişiyə bildirib. Ümidvar isə Ceyranbatan qəsəbəsinin kənarında mal-qara alveri ilə məşğul olan Qubadlı qaçqınlarından Bayram kişinin oğlu Bəşiri tapmağı xahiş edib.

Guliyev Bayram Madat oglu

Guliyev Bayram Madat oglu was born in Mahmudlu village of Gubadli district of Azerbaijan Republic. On the 31st of March, 1993 during the occupation of their village he grazed his cattle at the place called Yaziduzu.

That information was given by his son Guliyev Bashir Bayram oglu who lived in Mahmudlu village of Gubadli district (he lives in Sumgayit town, 41 quarter, app.64).

Safarov Umidvar Mehbali oglu was a gardener at the repair shop «Khazar-Lada» (former «VAZ») in Baku-Sumgayit highway (he lives in Baku, Khojasan village, H.Sultanov Street, 1) wrote a statement that when he was a watchman at the granary, the trucks from the Islamic Republic of Iran came there in September of 1999. One of the drivers of those trucks Mirza brought asphalt to Khankandi from Iran in winter of 1998. He saw that an old Azerbaijani man grazed the cattle and wanted to stop the car on the way to Fuzuli-Khankandi 50-60 km. That man was Bayram kishi from Mahmudlu village of Gubadli district taken hostage by Armenians and asked to tell his son Bashir to release him. Mirza informed about him to Umidvar kishi. Umidvar asked the refugee from Gubadli district who sold the cattle in Jeyranbatan settlement to find his son Bashir.



Quliyev
Ceyhun
Valeh oğlu

1970-ci ildə Azərbaycan Respublikası Siyəzən şəhərində anadan olub. 1990-cı ildə Bakı şəhərinə köçüb. 1992-ci ildə Suraxanı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb və Şuşa rayonunun müdafiəsinə göndərilib. 1992-ci il may ayının 8-dən 9-na keçən gecə Şuşa rayonunun Nəbilər kəndində gedən döyüş zamanı ermənilər tərəfindən əsir götürülüb.

Atası-Siyəzən şəhəri, İ.Qayıbov küçəsi, ev 8-də yaşayan Quliyev Valeh Mahmud oğlunun dediyinə görə, 1992-ci ilin sentyabr ayında Bakı şəhəri, Suraxanı rayonunda təşkil edilmiş şəhid ailələri ilə görüşdə Alimov Vladimir Sergeyeviç ona Geyhunun sağ olduğunu, ayağından yaralanaraq əsir götürüldüyünü bildirib.

Keçmiş əsir Alimov Vladislav Vladimiroviçin atası-Bakı şəhəri, Pirallahı qəsəbəsi, Pesçanaya küçəsi, ev 5, mənzil 17-də yaşayan Alimov Vladimir Sergeyeviç oğlunun axtarışı zamanı (sonradan 1992-ci ildə Vladislav azad olunub) Ermənistan və Gürcüstanda əldə etdiyi Dağlıq Qarabağ və Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsirlərin siyahısında Quliyev Ceyhunun da adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

Guliyev
Jeyhun
Valeh oglu

Guliyev Jeyhun Valeh oglu was born in Siyazan town of Azerbaijan Republic in 1970. In 1990 he moved into Baku. In 1992 Jeyhun was called up for military service by the Military Registration and Enlistment Office of Surakhani district and sent to defend Shusha. In May of 1992 during the fight in Nabiler village of Shusha district he was taken prisoner.

According to the words of his father Guliyev Valeh Mahmud oglu (he lives in Siyazan town, I.Gayibov Street, 8), Alimov Vladimir Sergeyevich who organized the meeting with families of shehids in Baku, the representative of Surakhani district said that Jeyhun was alive, wounded in knee and taken prisoner in September of 1992.

When the father of former prisoner of war Alimov Vladislav Vladimirovich – Alimov Vladimir Sergeyevich (he lives in Baku, Pirallahi settlement, Peschanaya Street 5, app. 17) searched for his son (Vladislav was released in 1992), he got a list of Azerbaijani prisoners of war and hostages kept in Upper Garabagh and Armenia. There was the name of Guliyev Jeyhun in the list. It was shown that he was kept in Upper Garabagh.



Quliyev
Elman
Əsgərxan oğlu

1970-ci ildə Azərbaycan Respublikası Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olub. Qəsəbənin işğal olunduğunu eşidib, 24 oktyabr 1993-cü ildə məktəb yoldaşı Məmmədov Rafiq Sevindik oğlu ilə Bakı şəhərindən oraya yollanıb. 25 oktyabr 1993-cü ildə Molla Məhərrəmli kəndində ermənilər tərəfindən əsir götürülüb.

Horadiz qəsəbə sakini, erməni əsirliyindən qayıtmış Məmmədov Rafiq Sevindik oğlunun verdiyi məlumata görə, qəsəbə ermənilər tərəfindən işğal olunan gün, o, həmyerlisi və məktəb yoldaşı Quliyev Elmanla Bakı şəhərində olub. Onlar Horadizə getməyi qərara alıblar. Horadizə az qalmış Molla Məhərrəmli kəndində yerləşən kanalın üstündəki körpünü keçərkən ermənilər Rafiqi əsir götürüb, qaçmaq istəyən Elmanı isə yaralayıblar. Rafiq Azərbaycanın işğal olunmuş bir neçə rayonunda əsir saxlandıqdan sonra 7 iyul 1994-cü ildə dəyişdirilib. Saxlanıldığı yerlərdə Elman haqqında heç bir məlumat ala bilməyib.

Erməni tərəfi faktı inkar etdiyi üçün Quliyev Elmanın taleyi bəlli deyil.

Guliyev
Elman
Asgarkhan oglu

Guliyev Elman Asgarkhan oglu was born in Horadiz settlement of Azerbaijan Republic in 1970. Elman heard that Horadiz settlement of Fuzuli district was occupied by Armenians and with school fellow Mammadov Rafig Sevindik oglu went to the same settlement from Baku on the 24th of October, 1993. On the 25th of October, 1993 Armenians took him as prisoner near Molla Maharramli village of Horadiz settlement.

According to the information of Mammadov Rafig Sevindik oglu who lived in Horadiz settlement and returned from Armenian captivity, during the day od Horadiz settlement's occupation by Armenians he was in Baku with villager and school fellow Guliyev Elman. They decided to go to Horadiz. When they passed through the bridge situated not far from Molla Maharramli village, Rafig was taken prisoner by Armenians. But Elman wanted to run away and at that moment he was wounded Rafig who was kept as a prisoner in several districts of Azerbaijan occupied by Armenians and then he was changed on the 7th of July, 1994. But Rafig couldn't get any information concerning Elman.

Armenians denied that fact and that's why his further life was unknown.

Quliyev
İlham
İmamqulu oğlu

1970-ci ildə Azərbaycan Respublikası Zəngilan rayonunun Yeməzli kəndində anadan olub. Zəngilan Rayon Polis Şöbəsində çavuş kimi xidmət edən İlham 1991-ci ildən erməni işğalçılarına qarşı döyüşüb. 25 oktyabr 1993-cü ildə polis işçiləri Bəşirov Fazil Arif oğlu (çavuş), Quliyev Aqil Mehralı oğlu (çavuş), İsmayılov İsmayıl Barat oğlu (çavuş), İsmayılov Möhlət Bəhmən oğlu (çavuş), Nərimanov Elşad Əvəz oğlu (bölmə komandiri, baş çavuş), Paşayev Sabir Əziz oğlu (sahə müvəkkili, leytenant) ilə birlikdə Cəbrayıl rayonu Dərzili kəndi (Zəngilan rayonu ilə həmsərhəddir) uğrunda döyüşdə əsir götürülüb.

Bu faktı onların qohumları - Paşayev Əziz Şükür oğlu, Məmmədov Fəxrəddin Məhəmməd oğlu, Cəfərova Qızılgül İmamqulu qızı, Nərimanov Vidadi Əvəz oğlu və Qocayev Barat İsmayl oğlu da təsdiq ediblər.

Erməni əsirliyindən qayıtmış Qubadlı rayonu Həmzəli kənd sakini Yusifov Fərhad Umud oğlu Qafan Rayon Polis Şöbəsində saxlanılan zaman həmin idarənin rəisi Eduard Varseqyan ona Zəngilan rayon Polis Şöbəsinin əsir götürülmüş, Quliyev İlham da daxil olmaqla 7 nəfər əməkdaşını göstərərək onları tanıyıb, tanımadığını soruşub.

Guliyev
Ilham
Imamgulu oglu

Guliyev Ilham Imamgulu oglu was born in Yemezli village of Zangilan district of Azerbaijan Republic in 1970. He took part in defense of territories occupied by Armenians as a policeman of Police Department of Zangilan district from 1991. On the 25th of October, 1993 during the fight for Darzili village of Jabrayil district 6 policemen: Bashirov Fariz Arif oglu (sergeant), Guliyev Agil Mehrali oglu (sergeant), Ismayilov Ismayil Barat oglu (sergeant), Ismayilov Mohlet Bahman oglu (sergeant), Narimanov Elshad Avaz oglu (the commander of subunit, senior sergeant), Pashayev Sabir Aziz oglu (district policeman, lieutenant) were taken prisoners together.

That fact was confirmed by his relatives: Pashayev Aziz Shukur oglu, Mammadov Fakhraddin Mahammad oglu, Jafarova Gizilgul Imamgulu gizi, Narimanov Vidadi Avaz oglu and Gojayev Barat Ismayil oglu.

The head of Police Department of Gafan district Edik asked Yusifov Farhad Umud oglu who returned from Armenian captivity and lived in Hamzali village of Gubadli district about 7 policemen including Guliyev Ilham and asked if he recognized them.



Quliyev
İxtiyar
Atakişi oğlu

1972-ci ildə Azərbaycan Respublikasının Cəbrayıl rayonu Arazmaşanlı kəndində anadan olub. 1990-cı ilin noyabr ayında Cəbrayıl Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 7 ay Rusiya Federasiyasının Moskva vilayətində sovet ordusu sıralarında xidmət etdikdən sonra Azərbaycana qayıdıb. Hərbi xidməti Naxçıvan Muxtar Respublikasında davam etdirib. 1992-ci ildə isə Cəbrayıl taboruna göndərilib. Füzuli və Cəbrayıl rayonlarında gedən döyüşlərdə iştirak edib. 11 yanvar 1992-ci ildə Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində gedən döyüş zamanı yaralanıb və əsir götürülüb.

Döyüş yoldaşları-Abdullayev Salman Abdulla oğlu, Mirzəliyev Surac Halay oğlu və Məmmədov Salman Məhəmməd oğlunun verdiyi məlumata görə, PKM markalı pulemyot atıcısı olan İxtiyar 11 yanvar 1992-ci ildə yaralı vəziyyətdə ermənilər tərəfindən mühasirəyə alınıb və əsir götürülüb.

Hərbçilər cəbhə xəttində erməni tərəfi ilə aparılan danışıqlar zamanı Quliyev İxtiyarın Xocavənd rayonunun Məlikcanlı kəndində əsir saxlandığı öyrənilib.

Guliyev
Ikhtiyar
Atakishi oglu

Guliyev Ikhtiyar Atakishi oglu was born in Arazmashanli village of Jabrayil district of Azerbaijan Republic in 1972. In November of 1990 he was called up for military service by the Military Registration and Enlistment Office of Jabrayil district. Guliyev Ikhtiyar served in the ranks of Soviet Army in Moscow district of RF for 7 months and then returned Baku. He continued his military service in the Nakchivan Autonomous Republic. In 1992 Ikhtiyar was sent to Jabrayil battalion and took part in fights in Fuzuli and Jabrayil district. On the 11th of January, 1993 Guliyev Ikhtiyar was wounded and taken prisoner during the fight in Ashagi Abdurrahmanli village of Fuzuli district.

According to the information of his frontline comrades Abdullayev Salman Abdulla oglu, Mirzaliyev Suraj Halay oglu and Mammadov Salman Mahammad oglu, wounded Ikhtiyar was surrounded and then taken prisoner by Armenians on the 11th of January, 1992.

It was found out during the talks with Armenians at the front line that Guliyev Ikhtiyar was kept as a prisoner in Melikyanli village of Khojavand district.



Quliyev Mehbalı Zeynalabdin oğlu

1931-ci ildə Azərbaycan Respublikasının Laçın şəhərində anadan olub. 18 may 1992-ci ildə ermənilər iki istiqamətdə Laçın rayonuna hücum edib, yolu kəsərək əhalini mühasirəyə alan zaman bacısının həyat yoldaşı Mayılov Şamil Xəlil oğlu və bacısı oğlu Mayılov Manaf Şamil oğlu ilə birlikdə Sultanlar kəndində girov götürülüb.

Bu faktı Laçın Rayon İcra Hakimiyyəti başçısının Şeylanlı kəndi üzrə nümayəndəsi Gülalıyev Nuruş Xanhüseyn oğlu da təsdiq edib.

Əslən Laçın rayonunun Şeylanlı kəndindən olan, Ağcabədi rayonunda məskunlaşmış məcburi köçkünlər Quliyev Şakir Mehbalı oğlu, Mayılova Gülzar Zeynalabdin qızı, Zamanov Yəhya Həsən oğlu və Əhmədov Əzizağa Ziyad oğlunun ərizələrində bildirilir ki, Quliyev Mehbalı və onun həmkəndlilərinin oturduqları maşın ermənilər tərəfindən atəşə tutulub, özləri isə girov götürülüblər.

Laçın rayonunun Qaraqışlaq kəndindən olan, erməni girovluğundan qayıtdıqdan sonra Bərdə rayonunun «Pambıqçı» sanatoriyasında məskunlaşmış Əsgərov Nadir İbiş oğlunun verdiyi məlumata görə, Laçın rayonu ermənilər tərəfindən işğal olunan zaman ayağından yaralanaraq girov götürülüb və Gorus rayonunun Xoznavar kəndinə aparılıb. Quliyev Mehbalını da orada görüb. Ermənilər cavan əsirləri Xoznavarda saxlayıb, yaşlıları isə təsərrüfat işlərinə cəlb etmək üçün şəxsi evlərə veriblər. Sonradan Mehbalı haqqında heç bir məlumat əldə edilməyib.

Guliyev Mehbali Zeynalabdin oglu

Guliyev Mehbali Zeynalabdin oglu was born in Lachin town of Azerbaijan Republic in 1931. On the 18th of May, 1992 Armenians attacked Lachin district in 2 directions, they blocked the road, surrounded Guliyev Mehbali with sister's husband Mayilov Shamil Khalil oglu and sister's son Mayilov Manaf Shamil oglu and then they were taken hostages in Sultanlar village.

That fact was confirmed by the representative of Sheylanli village of Executive Power of Lachin district Gulaliyev Nurush Khanhuseyn oglu.

According to a statement of forced settlers: Guliyev Shakir Mehbali oglu, Mayilova Gulzar Zeynalabdin gizi, Zamanov Yahya Hasan oglu and Ahmedov Azizaga Ziyad oglu who lived in Sheylanli village of Lachin district (they live in Aghjabedi district), Armenians fired upon their car and they were taken prisoners.

According to the information of Asgarov Nadir Ibish oglu who lived in Garagishlaq village of Lachin district (he lives in Barda district, «Pambigchi» sanatorium) and released from Armenian captivity, during occupation of Lachin district by Armenians he was wounded in leg, taken hostage and sent to Hoznavar village of Gorus district. He saw Mehbali there. Young prisoners were kept in Hoznavar but old prioners were taken to the private houses to force for agricultural work. Later there was no information concerning Mehbali.

Quliyev Məhəmməd Ədil oğlu

1974-cü ildə Azərbaycan Respublikasının Qubadlı rayonunda anadan olub.1992-ci ildə Qubadlı Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. 29 mart 1993-cü ildə Kəlbəcər rayonu uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Qardaşı-Qubadlı rayon sakini, Sumqayıt şəhərinin Corat qəsəbəsində məskunlaşmış Quliyev Cavanşir Ədil oğlu ərizəsində yazıb ki, 1993-cü ilin avqust ayında Ermənistanın Gorus Rayon Polis Şöbəsinin rəisi Mixail Xoylunts Qubadlı Rayon Polis Şöbəsinin rəisi Faiq Kərimova orada saxlanılan 5 azərbaycanlı hərbi əsirin siyahısını verib. Həmin siyahıda Quliyev Məhəmmədin də adı olub.

Guliyev Mahammad Adil oglu

Guliyev Mahammad Adil oglu was born in Gubadli district of Azerbaijan Republic in 1974. In 1992 he was called up for military service by the Military Registration and Enlistment Office of Jabrayil district. On the 29th of March, 1993 during the fight for Kelbajar district Mahammad was taken prisoner by Armenians. His brother Guliyev Javanshir Adil oglu who lived in Gubadli district (he lives in Sumgayit, Jorat Settlement) wrote a statement that the head of Police Department of Gorus district of Armenia Mikhail Khoylunts gave to the head of Police Department of Gubadli district Faig Karimov a list of 5 Azerbaijani prisoners kept there in August of 1993. There was the name of Guliyev Mahammad in the list.



Quliyev Məzahir Əkbər oğlu

1965-ci ildə Azərbaycan Respublikası Goranboy rayonunun Nərimanlı kəndində anadan olub. 11 may 1992-ci ildə Ağdərə rayonunun Marquşevan kəndi uğrunda döyüşdə ermənilər tərəfindən əsir götürülüb.

Bacısının axtarışı zamanı Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Alaverdiyan Şamirdən (Yere-

Guliyev Mazahir Akbar oglu

Guliyev Mazahir Akbar oglu was born in Nerimanli village of Goranboy district of Azerbaijan Republic in 1965. On the 11th of May, 1992 during the fight for Margushevan village of Aghdara district he was taken prisoner by Armenians.

Huseynov Akif Saleh oglu who lived in Asrik-Jirdakhan village of Tovuz district and searched for his sister, got a list of

van-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22; tel: 48-67-93) aldığı qarşı tərəfdə saxlanılan azərbaycanlı hərbi əsir və girovların siyahısında Quliyev Məzahirin də adı olub. Həmin siyahiya görə, Məzahir Ermənistanın Spitak şəhərində yerləşən 42411 saylı həbsxanada saxlanılıb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində yerləşən Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Fireddin Əli oğlunun verdiyi məlumata görə, erməni tərəfi radioəlaqə yaradaraq Quliyev Məzahiri Dağlıq Qarabağda saxladıqlarını bildirib.

Azerbaijani prisoners of war and hostages from Armenian Alaverdiyan Shamir (Yerevan city – 74, Nijniy Shengavit Street, 35, ap.22, phone 48-67-93). There was the name of Guliyev Mazahir in the list. According to that list Mazahir was kept in prison № 42411 in Spitak of Armenia.

According to the information of Eyvazov Fireddin Ali oglu, the former deputy head of Executive Power of Fuzuli district who worked in 1992-1993 (at present he lives in the hotel № 4, room 205 of ATU in Baku), he connected with Armenians by radio communication and found out that Guliyev Mazahir was kept in Upper Garabagh.

Quliyev Məzahir Qara oğlu

1983-cü ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Çorman kəndində anadan olub. 31 mart 1993-cü ildə Kəlbəcər rayonu ermənilər tərəfindən işğal olunan zaman ailə üzvləri ilə Tunel adlanan ərazidə girov götürülüb.

Atası-Kəlbəcər rayonu Çorman kənd sakini, Şəki şəhəri Dəmiryol Qaçqınlar qəsəbəsində məskunlaşmış Quliyev Qara Cəlal oğlu verdiyi məlumata görə, yaşadıqları ərazi işğal olunan zaman 6 uşağı – Quliyeva Nəsibə Qara qızı (1979), Quliyev Azər Qara oğlu (1980), Quliyev Yaşar Qara oğlu (1981), Quliyev Məzahir Qara oğlu (1983), Quliyev Bəxtiyar Qara oğlu (1984), Quliyev Aygün Qara qızı (1990) və həyat yoldaşı ilə ermənilər tərəfindən girov götürülüb. Sonradan Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə 3 övladı azad olunub. Yaşar, Məzahir, Aygün isə qaytarılmayıb.

Guliyev Mazahir Gara oglu

Guliyev Mazahir Gara oglu was born in Chorman village of Kelbajar district of Azerbaijan Republic in 1983. On the 31st of March, 1993 with his family his was taken hostage in Tunel during Kelbajar's occupation by Armenians.

According to the information of his father Guliyev Gara Jalal oglu who lived in Chorman village of Kelbajar district (now he lives in Railway town for refugees in Shaki town) during occupation his 6 children – Guliyeva Nasiba (year of birth: 1979), Guliyev Azer (year of birth: 1980), Guliyev Yashar (year of birth: 1981), Guliyev Mazahir (year of birth: 1983), Guliyev Bakhtiyar (year of birth: 1984), Guliyeva Aygun (year of birth: 1990) and his wife were taken hostages by Armenians. Then by the assistance of ICRC 3 children were released. Yashar, Mazahir and Aygun didn't return.

Dövlət Gömrük Komitəsinin sədr müavini (əvvəllər təhlükəsizlik orqanlarında işləyib) Mirzəyev Rafael Xalid oğlunun 1993-cü ildə cəbhə xəttində Azərbaycan və Ermənistan nümayəndələrinin keçirdikləri görüş zamanı qarşı tərəfdən əldə etdiyi azərbaycanlı əsir və girovların siyahısında Quliyev Məzahir Qara oğlunun da adı olub. Həmin siyahıda onun Xankəndində saxlandığı göstərilib.

Tovuz rayonu Əsrik-Cırdaxan kənd sakini Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində milliyyətcə erməni olan Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22; tel: 48-67-93) aldığı qarşı tərəfdə saxlanılan azərbaycanlı hərbi əsir və girovların siyahısında Quliyev Məzahirin də adı olub. Onun Dağlıq Qarabağda saxlandığı göstərilib.

In 1993, during the meeting with Armenian and Azerbaijani representatives, chairman deputy of Custom Committee of Azerbaijan Republic Mirzeyev Rafael Khalid oglu (he workwd at the security organs) got a list of Azerbaijani prisoners and hostages. There was the name of Guliyev Mazahir Gara oglu in the list. It was shown that he was kept in Khankandi.

Huseynov Akif Saleh oglu who lived in Arsik-Jirdakhan village of Tovuz district got a list of Azerbaijani prisoners and hostages from an Armenian Alaverdiyan Shamir (Yerevan city – 74, Nijniy Shengavit Street, 35, ap.22, phone 48-67-93) in Tbilisi. There was the name of Guliyev Mazahir in the list. It was shown that he was kept in Upper Garabagh.

Quliyev Museyib Ramazan oğlu



1972-ci ildə Azərbaycan Respublikası Sabirabad rayonunun Məmişlər kəndində anadan olub. 25 avqust 1992-ci ildə ordu sıralarına çağrılıb. 1992-ci ildən Ağdam rayonunda yerləşən hərbi hissənin tərkibində döyüşlərdə iştirak edib. 18 fevral 1994-cü ildə Ağdam rayonunda gedən döyüş zamanı itkin düşüb.

Bu məlumatı atası - Sabirabad rayonu Məmişlər kənd sakini Quliyev Ramazan Müseyib oğluna Müseyibin döyüş yoldaşları deyiblər.

Əslən Füzuli rayonunun Qaraxanbəyli kəndindən olan Sabirabad rayonunun Məmişlər kəndində məskunlaşmış, 1993-cü ilin avqust ayından 1995-ci ilin iyun ayına kimi erməni girovluğunda qalmış Hüsey-

Guliyev Museyib Ramazan oglu

Guliyev Museyib Ramazan oglu was born in Mamishler village of Sabirabad district of Azerbaijan Republic in 1972. On the 25th of August, 1992 he was called up for military service. In 1992 Museyib was allotted to military unit in Aghdam district and took part in fights for Garabagh. On the 18th of February, 1994 during the fight in Aghdam district he was missed.

His father Guliyev Ramazan Museyib oglu who lived Memishler village of Sabirabad district got that information from his front-line comrades.

Huseynov Jamal Azim oglu who was at Armenian captivity from August, 1993 to June, 1995 and lived in Garakhanbeyli village of Fuzuli district (he lives in Mamishler

nov Camal Əzim oğlu izahatında 1995-ci ilin mart-iyun aylarında Xankəndi uşaq xəstəxanasında Quliyev Müseyibin də onunla birlikdə saxlandığını yazıb.

Erməni əsirliyindən qayıtmış, Bərdə rayonu Qaradəmirçi kənd sakini Abutalıbov Mikayıl Musa oğlunun ərizəsinə görə, o, 22 fevral 1994-cü ildə Xankəndi xəstəxanasında saxlanılan zaman Müseyibi də oraya gətiriblər. Müseyib ona 18 fevral 1994-cü ildə Ağdam ərazisində əsir götürüldüyünü, 4 gün Drmbonda saxlandıqdan sonra Xankəndinə gətirildiyini söyləyib.

Mikayılın dediyinə görə 11 gündən sonra Müseyibi Şuşa həbsxanasına aparıblar.

village of Sabirabad district) wrote a statement that he was kept in children hospital in Khankandi with Guliyev Museyib in March-June, 1995.

According to a statement of Abutalibov Mikayil Musa oglu who lived in Garademirchi village of Barda district and returned from Armenian captivity, when he was kept in Khankendi hospital of Upper Garabagh Museyib was also taken there on the 22nd of February, 1994. Museyib said him that he was taken prisoner by Armenians on the territory of Aghdam district on the 18th of February, 1994. He was kept in Drmbond for 4 days and then Armenians sent him to Khankandi.

According to Mikayil's words, after 11 days Museyib was taken to Shusha prison.



Quliyev Natiq Vəliəddin oğlu

1972-ci ildə Azərbaycan Respublikası Əsgəran rayonunun Daşbulaq kəndində anadan olub. 1991-ci ildə ali məktəbdə təhsilini yarımçıq qoyub, Qarabağın bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün özünümüdafiə batalyonuna yazılıb. Xocalı şəhəri erməni silahlı dəstələri tərəfindən işğal olunduğu gün qızğın döyüşdə yaralanaraq Əsgəran yaxınlıqında əsir götürülüb.

Atası - Əsgəran rayonu Daşbulaq kənd sakini, Bərdə şəhəri 105 saylı texniki peşə məktəbində məskunlaşmış məcburi köçkün Quliyev Vəliyəddin Fərman oğlu ərizəsində bildirib ki, 17 mart 1992-ci ildə Xocalı faciəsinin qurbanı olmuşların meyitlərini alan zaman Əsgəranda yerləşən erməni hərbi birləşmələrinin komandiri Vitali Balasanyan və qardaşı Slavik ona Natiqin sağ olduğunu və əsir götürüldüyünü deyiblər.

Guliyev Natig Valiaddin oglu

Guliyev Natig Valiaddin oglu was born in Dashbulag village of Asgaran district of Azerbaijan Republic in 1972. He interrupted to study at the institute and joined self-defence battalion to take part in fights for integrity of Garabagh in 1991. When Armenian armed forces captured Khojali, he was wounded and taken as prisoner near Asgaran.

His father forced settler Guliyev Valiaddin Farman oglu who lived in Dashbulag village of Asgaran district (at present he lives in technical secondary school № 105 situated in Barda) wrote a statement that on the 17th of March, 1992, when he got corpses of Khojali residents commander of Armenian millitary forces Vitaliy Balasanyan and his brother Slavik said Natig was alive and taken prisoner.

Kazimov Ahad Musa oglu who enga-

1992-ci il noyabr ayının sonunda əsir və girovların dəyişdirilməsi ilə məşğul olan Kazımov Əhəd Musa oğlu Quliyev Natiqin Xocavənd rayonunda Qriqoryan Albertin yanında saxlandığını bildirib.

Əliyev Nuruşanın əsir düşmüş oğlunun axtarışı zamanı 1994-cü ildə erməni tərəfindən əldə etdiyi azərbaycanlı əsirlərin siyahısında Şuşa şəhərində saxlanılan Quliyev Natiqin də adı olub.

Erməni əsirliyindən azad olunmuş Xocalı şəhər sakinləri, Naftalan şəhərində yerləşən «Qarabağ» sanatoriyasında məskunlaşmış Abışov İntizam Niyaz oğlunun, Məmmədov Suren Heydər oğlunun və Hüseynov Valeh Sahib oğlun verdikləri məlumata görə, onlar Natiqlə bir neçə gün Əsgəran polis şöbəsində saxlanılıblar. Sonradan ermənilər yaralı Natiqi naməlum istiqamətə aparıblar.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin verdiyi məlumata görə, Quliyev Natiq 27 fevral 1992-ci ildən 2 mart 1992-ci ilə kimi Əsgəran şəhər həbsxanasında saxlanılıb.

Hüseynova Tamara Saleh qızının axtarışı ilə məşğul olan qardaşı Hüseynov Akif Saleh oğlunun Tbilisi şəhərində Alaverdiyan Şamirdən (Yerevan-74, Nijnıy Şenqavit küçəsi, ev 35, mənzil 22. tel: 48-67-93) əldə etdiyi əsir və girovların siyahısında Quliyev Natiqin Xankəndi polis şöbəsində saxlandığı göstərilib. Həmin siyahını işğal olunmuş Xankəndi şəhərində yerləşən erməni alayının qərargah rəisi Ağayan Elmira təsdiq edib. Natiqin sonrakı taleyi məlum deyil.

ged in change of prisoners and hostages informed that Natig was kept in Khojavand district at Albert Grigoryan's place in November, 1992.

Aliyev Nurushan Sevindik oglu who engaged in search for his missed son, got a list of Azerbaijani prisoner and saw the name of Natig kept in Shusha in 1994.

According to the information of Abishov Intizam Niyaz oglu, Mammadov Suren Heydar oglu and Huseynov Vagif Sahib oglu who lived in Khojali (now they live in «Garadagh» sanatorium in Naftalan) and released from Armenian captivity, they were kept in Police Department of Asgaran district with Natig for several days. Later Armenians took wounded Natig to unknown direction.

According to the information of ICRC, Guliyev Natig was kept in prison in Asgaran from the 27th of February to the 2nd March, 1992.

When the brother of Huseynova Tamara Saleh gizi who was taken as hostage by Armenians - Huseynov Akif Saleh oglu searched for his sister, he got a list of Azerbaijani prisoners and hostages from Alaverdiyan Shamir (Yerevan-74, Nijniy Shengavit Street 35, app. 22, phone: 48-67-93) in Tbilisi. There was the name of Guliyev Natig in the list. It was shown that Guliyev Natig was kept in Khankandi Police Department. That list was confirmed by troop of chief of staff Agayan Elmira in occupied Khankandi. The further life of Natig is unknown.



Quliyev
Novruz
Mahmud oğlu

1964-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Çimən kəndində anadan olub. 14 aprel 1992-ci ildə kəndləri işğal olunan zaman yaralanaraq girov götürülüb.

Həyat yoldaşı - Füzuli rayonu Çimən kənd sakini, Ağcabədi şəhəri, E. Sadıqov küçəsi, 208 saylı evdə yaşayan Ağayeva Rəsmiyyə Kamil qızının ərizəsinə görə, 1994-cü ilin aprelində yaşadıqları Çimən kəndi ermənilər tərəfindən işğal olunandan sonra Kürdlər kəndində məskunlaşıblar. Həyat yoldaşı Novruz aprel ayının 14-də evlərinə baxmaq üçün Çimən kəndinə gedib və bir daha geri qayıtmayıb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşmış Eyvazov Firəddin Əli oğlunun verdiyi məlumata görə, radiodanışıqlar zamanı ermənilər Quliyev Novruzu girov götürüb, Xocavənd rayonunun Qırmızı Bazar kəndində saxladıqlarını bildiriblər.

Guliyev
Novruz
Mahmud oglu

Guliyev Novruz Mahmud oglu was born in Chimen village of Fuzuli district of Azerbaijan Republic in 1964. On the 14th of April, 1992 during occupation of Chimen village by Armenians wounded Novruz was taken hostage.

His wife Agayeva Rasmiyya Kamil gizi who lived in Chimen village of Fuzuli district (she lives in Agjabedi, Sadigov Street 208) wrote a statement that they moved into Kurdler village after occupation of her village by Armenians in April of 1994. On the 14th of April her husband Novruz went to Chimen village and didn't return back.

Acording to the information of former head deputy Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked during 1992-1993 (he lives in Baku, hostel № 4 of AMU, room № 205), Armenians informed by radio communication that Guliyev Novruz was taken hostage and kept in Girmizi Bazar village of Khojavand district.

Quliyev
Oqtay
Gülməmməd oğlu

1968-ci ildə Azərbaycan Respublikası Şuşa rayonunun Kosalar kəndində anadan olub. Ermənilərin Qarabağa hücumları başlayan zaman könüllü olaraq cəbhəyə gedib. Şuşanın Daşaltı kəndində keçirilən əməliyyatda iştirak edib və 27 yanvar 1992-ci ildə ermənilər tərəfindən əsir götürülüb.

Anası-Şuşa rayonu Kosalar kənd sakini, Tərtər rayonunun Qaynax kəndində məskunlaşmış Quliyeva Sehran Xasay qızının verdiyi məlumata görə, oğlu Daşaltı əməliyyatı zamanı əsir götürülüb.

1992-1993-cü illərdə Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini işləmiş, Bakı şəhərində Azərbaycan Tibb Universitetinin 4 saylı yataqxanasının 205-ci otağında məskunlaşan Eyvazov Firəddin Əli oğlu ərizəsində göstərib ki, qarşı tərəf radiodanışıqlar zamanı Quliyev Oqtayın Şuşa şəhərində əsir saxlandığını bildirib.

Guliyev
Ogtay
Gulmammad oglu

Guliyev Ogtay Gulmammad oglu was born in Kosalar village of Shusha district of Azerbaijan Republic in 1968. When Armenians began to attack Garabagh Ogtay voluntarily went to the front. Guliyev Ogtay took part in Dashalti operation, and then he was taken prisoner by Armenians on the 27th of January, 1992.

According to his mother's information, Guliyeva Sehran Hasay gizi who lived in Kosalar village of Shusha district (she lives in Gaynakh village of Terter district) during Dashalti operation, her son was taken prisoner.

It was shown in a statement of former head deputy of Executive Power of Fuzuli district Eyvazov Firaddin Ali oglu who worked in 1992-1993 (he lives in hostel № 4 of AMU in Baku) Armenians informed by radio communication that Guliyev Ogtay was taken prisoner and kept in Shusha town.



Quliyev
Rafiq
Barat oğlu

1963-cü ildə Azərbaycan Respublikası Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub. Ağdam rayonunda yerləşən hərbi hissədə gizir vəzifəsində xidmət edib. 4 iyul 1993-cü ildə ermənilər Ağdamın İsmayılbəyli kəndini işğal edən zaman qaynı-polis batalyonunda gizir vəzifəsində xidmət edən Həsənov Vüqar Çərkəz oğlu ilə «UAZ-469» markalı 24-93 AQZ dövlət nömrə nişanlı xidməti avtomaşında babasını və digər qohumlarını ərazidən çıxartmaq üçün İsmayılbəyli kəndinə gedib və orada əsir götürüb.

Ağdam rayonu İsmayılbəyli kənd sakini, Bakı şəhəri, Mərdəkan qəsəbəsi «Kristal» düşərgəsində məskunlaşmış Abbasov Həsən Cəmil oğlunun verdiyi məlumata görə, 1993-cü ildə Ağdam rayonu ermənilər tərəfindən işğal olunan zaman ailəliklə Rusiya Federasiyasının Krasnodar vilayə-

Guliyev
Rafig
Barat oglu

Guliyev Rafig Barat oglu was born in Ismayilbeyli village of Aghdam district of Azerbaijan Republic, 1963. He served as an ensign in military unit in Aghdam district. On the 4th of July, 1993 during the occupation of Ismayilbeyli village of Aghdam by Armenians, he with brother-in-law Hasanov Vugar who served as an ensign in police battalion, grandfather and other relatives wanted to leave the territory and went to Ismayilbeyli village by the car «UAZ-469» (public number-plate 24-93 AQZ) but they were taken prisoners there.

According to the information of Abbasov Hasan Jamil oglu who lived in Ismayilbeyli village of Aghdam district (now he lives in camp «Kristal» in Baku, Mardakan settlement), during occupation of Aghdam district by Armenians they moved into Krasnodar region of RF in 1993. In 2001 he was at the birthday party. There was resident of the sa-

tinə köçüblər. 2001-ci ildə yaşadığı qəsəbənin sakini, milliyyətcə erməni Joranın ad günündə (Krasnodar şəhər avtovağzalından Novorosiysk şəhəri istiqaməti ilə 4-5 km hərəkət edib, Kuban çayını keçdikdən sonra) milliyyətcə adıgey olan polis rəisi (adını unudub) və tanımadığı ermənilərlə bir masa arxasında oturub. Jora əslən Xocavənd rayonunun Qarakənd kənd sakini imiş. Həmin kənd İsmayılbəyli kəndi ilə qonşu olub. Ad günündə 40-45 yaşlı, Xocavənd rayonunun keçmiş sakini, Ağdamın işğalı zamanı hərbi əməliyyatlarda iştirak etmiş Karo adlı erməni də olub. Karonun dediyinə görə, ermənilər Ağdam rayonunun Bağmanlar kənd sovetliyi yaxınlığında yerli sakinləri girov götürüblər. Girovların arasında Ağdam sakinləri Yeliş, Barat və Çərkəzin oğlanları da olub. Həmin girovları Əsgəran rayonunda ağır fiziki işə-işğal olunmuş ərazilərin evlərini söküb, hissələrini İrandan gəlmiş maşınlara yükləməyə cəlb ediblər. Sonradan həmin əsirləri Xankəndinə aparıblar.

